Xalqın qəzeti!

# Xalq qəzeti

№ 67 (31036) 21 aprel 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Zəngəzur dəhlizi Asiya ilə Avropanı tezliklə daha da yaxınlaşdıracaq

## *BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının 82-ci sessiyasının iştirakçılarına*



**Hörmətli Baş katibin müavini!**
**Zati-aliləri!**
**Xanımlar və cənablar!**

Azərbaycanın sədrliyi ilə keçirilən BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (BMT ASİSK) 82-ci sessiyasında çıxış etmək üçün mənə göndərdiyi səmimi dəvətə görə Baş katibin müavininə dərin təşəkkürümü bildirmək istəyirəm.

BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası dayanıqlı inkişafın irəliləməsi, eləcə də regional bağlantıların, ticarətin və iqtisadi əməkdaşlığın asanlaşdırılmasında olduqca mühüm rol oynayan BMT-nin ən geniş və təsirli regional platformalarından biri olaraq qalır. Biz xüsusən də multilateralizmin gücləndirilməsinə ehtiyac duyulduğu vaxtda bu mühüm işə töhfə verməkdən məmnunuq.

Görüşümüz artan qlobal qeyri-müəyyənlik dövründə baş tutur. Yüksələn geosiyasi gərginlik və genişlənən münaqişələr beynəlxalq sülh və təhlükəsizliyin həssaslığını, o cümlədən onilliklər ərzində əldə olunmuş inkişaf nailiyyətlərinin kövrəkliyini üzə çıxarır. Bu xüsusda Azərbaycan dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə özünün sarsılmaz sadiqliyini bir daha vurğulayır.

2021-ci ildə bu mötəbər qurumda ilk dəfə çıxış etdikdən sonra Cənubi Qafqazda dərin transformasiya baş vermişdir. Azərbaycan özünün suverenliyini və ərazi bütövlüyünü tam şəkildə bərpa etmiş, Ermənistanla sülh gündəliyinə başlamışdır. Ötən ilin avqustunda Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın ev sahibliyi ilə keçirilmiş Vaşinqton Zirvə görüşündə Azərbaycan ilə Ermənistan arasında normallaşmada tarixi irəliləyiş əldə olunmuşdur.

Bu gün biz sülhün bəhrəsinin şahidiyik. Azərbaycan ilə Ermənistan arasında ticarət münasibətləri başlamışdır və hazırda Azərbaycan Ermənistan üçün tranzit çıxışına şərait yaradır. Vətəndaş cəmiyyəti nümayəndələrinin qarşılıqlı səfərləri etimadın qurulmasına töhfə verir.

Eyni zamanda, Azərbaycan işğal zamanı tam dağıdılmış və azad edilmiş ərazilərdə unikal və genişmiqyaslı yenidənqurma layihələrini həyata keçirir. Böyük Qayıdış Proqramı uğurla icra olunur. 80 000-dən artıq insan öz həyatını yenidən qurmaq, doğma yurdlarına qovuşmaq, təhsil almaq və işləmək məqsədilə Qarabağ və Şərqi Zəngəzur bölgələrinə qayıtmışlar. Bununla belə, minalar humanitar və inkişaf sahələrində ciddi təhdid olaraq qalır. Asiya və Sakit okean üzrə Komissiyanın əhatə dairəsində olan bir sıra ölkələrdə də mövcud olan mina problemi bu sahədə geniş beynəlxalq əməkdaşlığı zəruri edir. 2020-ci ildə münaqişə başa çatdıqdan sonra 400-dən artıq azərbaycanlı mülki şəxs mina partlayışları nəticəsində həyatını itirmiş və ya yaralanmışdır.

Xanımlar və cənablar,

Azərbaycan inklüziv və dayanıqlı inkişafı davam etdirir. Son iki onillik ərzində iqtisadiyyatımız təxminən dörd dəfə artmış, yoxsulluq və işsizlik isə təqribən 5 faiz səviyyəsinə düşmüşdür. Sosial müdafiə və infrastruktur sahəsində böyük sərmayələr hazırda sayı 10 milyonu keçmiş əhalimizin rifahını yaxşılaşdırmışdır.

Azərbaycan BMT-nin 2030-cu il Gündəliyini milli inkişaf strategiyalarına daxil edərək, yoxsulluğun azaldılması, təhsil və səhiyyə sahələrində nailiyyətlər qazanaraq, "heç kəsi diqqətdən kənarda qoymamaq" prinsipinə qəti şəkildə sadiq çıxdığımızı əks etdirən könüllü milli hesabatlarını dövri olaraq təqdim edərək, Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında böyük tərəqqi əldə etmişdir.

Bundan əlavə, Azərbaycan əsas daşımalar qovşağı kimi öz rolunu gücləndirir. Cari geosiyasi mühitdə Orta Dəhlizin əhəmiyyəti artır. Zəngəzur Dəhlizi Asiyanı Avropa ilə birləşdirərək, Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyanın prioritetləri ilə tam uyğun şəkildə daha geniş nəqliyyat, enerji və rəqəmsal şəbəkələrə töhfə verərək regional bağlantıları daha da artıracaq.

Azərbaycan sabit və şaxələndirilmiş enerji təchizatına töhfə verərək müxtəlif bölgələrdə enerji təhlükəsizliyinin təminatçısı kimi öz etibarlı rolunu oynamaqda davam edir.

Münaqişənin başa çatması Azərbaycanın beynəlxalq səylərinin genişləndirilməsi üçün də yeni imkanları yaratmışdır. Azərbaycanın Türk Dövlətləri Təşkilatında və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyi, onun D8 - İqtisadi Əməkdaşlıq üzrə Təşkilata, Mərkəzi Asiyada dövlət başçılarının məşvərətçi görüşlərinə qəbul olunması və COP29 tədbirinə uğurlu ev sahibliyi etməsi beynəlxalq ictimaiyyətin Azərbaycanın xarici siyasətinə artan etimadının təzahürüdür.

Sonda məmnunluqla qeyd etmək istərdim ki, Azərbaycan gələn ay Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına ev sahibliyi edəcək. Genişmiqyaslı yenidənqurma və dayanıqlı şəhərsalma işlərində iştirak edən ölkə kimi biz sessiyada öz təcrübəmizi bölüşməyi və ən yaxşı qlobal təcrübələrlə tanış olmağı arzulayırıq. Mən hamınızı Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasında iştirak etməyə dəvət edirəm.

Bu iclasın işinə uğurlar arzu edirəm.
Sağ olun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Azərbaycanın Serbiyaya dəstəyi məmnunluq doğurur



**Aprelin 19-da Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Telefon söhbəti zamanı Azərbaycan Prezidentinin bu ilin fevralında Serbiyaya rəsmi səfəri, dövlət başçılarının iştirakı ilə keçirilmiş Azərbaycan Respublikası və Serbiya Respublikası arasında Strateji Tərəfdaşlıq Şurasının 1-ci iclası məmnunluqla xatırlanıb, səfər çərçivəsində imzalanmış sənədlərin əməkdaşlığın möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Azərbaycan və Serbiya prezidentləri ikitərəfli əlaqələrimizin daha da gücləndirilməsi barədə fikir mübadiləsi aparıb, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi, enerji, investisiyalar və hər iki dövlət üçün strateji əhəmiyyət kəsb edən yeni birgə layihələrin daha da inkişaf etdirilməsi ilə bağlı planları müzakirə ediblər.

Serbiyaya göstərdiyi davamlı dəstəyə görə Prezident İlham Əliyevə bir daha minnətdarlıq edən Aleksandar Vuçiç ölkəsinin Azərbaycanla münasibətləri səmimi dostluq, qarşılıqlı hörmət və iqtisadi tərəqqiyə ortaq maraq ruhunda gələcəkdə də inkişaf etdirmək əzmini bir daha vurğulayıb.

Aleksandar Vuçiç bütün bunları ölkələrimiz arasında güclü tərəfdaşlığın və qarşılıqlı etimadın təsdiqi kimi qiymətləndirib. Serbiya Prezidenti gələn ay Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun XIII Sessiyasında iştirak edəcəyini də deyib.

Telefon danışığı zamanı Serbiyanın "Airserbia" şirkətinin mayın 3-nə planlaşdırılan Belqrad-Bakı marşrutu üzrə birbaşa uçuşların həyata keçiriləcəyindən məmnunluq bildirilib, bunun xalqlarımızın yaxınlaşdırılması və iqtisadiyyatlarımızın, o cümlədən turizm potensialının möhkəmləndirilməsi istiqamətində mühüm addım olduğu vurğulanıb.

Dövlət başçıları Yaxın Şərqdəki mövcud vəziyyətlə bağlı fikir mübadiləsi aparıb, regionun təhlükəsizliyi və inkişafı üçün əsas şərtlərdən biri kimi sülhün və sabitliyin bərpasının vacibliyini bir daha qeyd ediblər.

***Prezidentin Mətbuat Xidməti***

## TRIPP və erməni cəmiyyəti üçün həyati məsuliyyət



Səhifə ⇨ 4

## Türkiyə və regional sülhün Zəngəzur dəhlizi məntiqi



Səhifə ⇨ 5

## Atom enerjisinə tələbat zərurətə çevrilir



Səhifə ⇨ 7

## "Gözəgörünməz baltalar"ın "yaşıl soyqırımı"



Səhifə ⇨ 8

## Beynəlxalq nizama vasitəçilik dəstəyi



Səhifə ⇨ 4

# Belçika və Niderland səfirləri XİN-ə çağırılıb

**Aprelin 20-də Belçikanın Azərbaycandakı səfiri Julyen de Frepon və Niderlandın Azərbaycandakı səfiri Marian de Yonq ayrı-ayrılıqda Xarici İşlər Nazirliyinə çağırılıblar.**

Görüşlərdə aprelin 16-da Belçika və Niderland Parlamentləri tərəfindən qəbul edilmiş, Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü, həmçinin Azərbaycanla Ermənistan arasında davam edən sülh prosesini sarsıtmaq məqsədi daşıyan növbəti məsuliyyətsiz cəhdlər olan sənədlərə qarşı kəskin etiraz ifadə edilib.

Sənədlərin tamamilə yalan və əsassız qiymətləndirmələrə uyğun olaraq tərtib olunduğu, bu qurumlar daxilində dərin kök salmış Azərbaycan əleyhinə qərəzi nümayiş etdirdiyi vurğulanıb.

Parlament qərarlarında yer alan qəbuledilməz iddiaların beynəlxalq hüququn kobud şəkildə pozulması və qanunun aliliyinə açıq şəkildə müdaxilə olduğu qeyd edilib.

***XQ***

# "Qansız-xatasız zəfər"dən 2 il ötür

## Ermənistanın 4 kəndi də qaytarması sülh prosesinə töhfədir



**2024-cü il aprelin 19-da müasir tariximizə "qansız və silahsız zəfər" kimi daxil olan Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşündə Qazaxın dörd kəndinin - Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılının Azərbaycana qaytarılması barədə əldə olunan razılıq 2020-ci ilin noyabrından başlayan böyük strateji xəttin kulminasiya nöqtəsi idi. Həmin il mayın 24-də Azərbaycan Dövlət Sərhəd Xidmətinin o ərazilərdə nəzarəti tam təmin etməsi ilə təxminən 12,7 kilometrlik sərhəd xətti delimitasiya və demarkasiya olundu ki, bu da iki ölkə arasında müasir sərhədin ilk rəsmi müəyyənləşmiş hissəsi idi.**

*(ardı 5-ci səhifədə)*

# Yerin təkindən istifadə sahəsində fəaliyyətin təkmilləşdirilməsi (neft-qaz sahəsi üzrə fəaliyyət istisna olmaqla) və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında iqtisadi islahatların davamı olaraq faydalı qazıntı yataqlarının öyrənilməsi, istismarı və idarə olunması sahəsində fəaliyyətin səmərəliliyinin artırılmasını, innovativ texnologiyalar tətbiq edilməklə çevik icra və nəzarət mexanizminin qurulmasını, habelə bu sahədə beynəlxalq təcrübə nəzərə alınmaqla normativ hüquqi aktların təkmilləşdirilməsini, o cümlədən yerin təkindən istifadə sahəsində sahibkarlara göstərilən xidmətlərin operativliyinin və şəffaflığının gücləndirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı sahəsində səmərəliliyin artırılması və bazar tələbatının ödənilməsi məqsədilə Bakı şəhərinin Qaradağ rayonu ərazisində yerləşən "Qaradağ I və II", Bakı şəhərinin Qaradağ rayonu və Abşeron rayonunun ərazilərində yerləşən "Güzdək muldası" əhəngdaşı yataqları, Zaqatala rayonu ərazisində yerləşən "Katexçay I və II" , Balakən rayonu ərazisində yerləşən "Balakənçay I və II", Oğuz rayonu ərazisində yerləşən "Ağçay I" qum-çınqıl yataqları və İmişli rayonu ərazisində yerləşən "İmişli" qum-çınqıl yataqları daxilində Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müəyyən etdiyi yer təki sahələri "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra – Cəmiyyət) istifadəsinə verilsin.

**2** Müəyyən edilsin ki:

2.1. yerin təkindən istifadə sahəsində (neft-qaz sahəsi üzrə fəaliyyət istisna olmaqla) yer təkindən istifadə hüququnun verilməsi, yer təki sahələrinin dövlət ekspertizasının aparılması, yer təki istifadəçiləri tərəfindən hesabatların təqdim edilməsi, yer təkinin istifadəyə verilməsi üzrə aidiyyəti dövlət orqanlarından (qurumlarından) rəylərin, habelə torpaq mülkiyyətçilərinin və istifadəçilərinin yazılı razılıqlarının alınması, hərraclara (auksion və müsabiqə) dair sənədlərin qəbulu və onların keçirilməsi zamanı torpaqların kateqoriyalara aid edilməsi, kateqoriyasının, yaxud məqsədli təyinatının dəyişdirilməsi və digər əlaqəli proseslər 2027-ci il avqustun 1-dən etibarən "Rəqəmsal ekologiya" informasiya sistemi vasitəsilə "bir pəncərə" prinsipi əsasında həyata keçirilir;

2.2. bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan "bir pəncərə" prinsipi üzrə əlaqələndirici dövlət orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. yer təkindən istifadə sahəsində normativ hüquqi aktların tələblərinin pozulmasına görə məsuliyyətin gücləndirilməsi ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. altı ay müddətində:

3.2.1. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin təklifləri, bu Fərmanın 4.1.2-ci yarımbəndi nəzərə alınmaqla, prioritet qeyri-filiz faydalı qazıntı yataqlarının monitorinqinin və qiymətləndirilməsinin həyata keçirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2.2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifləri nəzərə alınmaqla, qeyri-filiz faydalı qazıntı yataqlarının əsas istehlak bazarından olan məsafəsindən, ərazinin relyefindən, iqlim şəraitindən və infrastrukturun mövcudluğundan asılı olaraq, iqtisadi dövriyyəyə cəlb edilməsi üçün güzəştlərin tətbiqinə dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2.3. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və dövlət torpaq kadastrı məlumatlarına əsasən mənafeyinə toxunulan aidiyyəti dövlət orqanlarının (qurumlarının) təklifləri nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 7 aprel tarixli 639 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə məşğul olan yer təki istifadəçilərinin fəaliyyətinin sağlamlaşdırılması tədbirlərinə dair qaydalar"ın 5.1.1-ci yarımbəndində nəzərdə tutulan siyahıya daxil ediləcək yer təki istifadəçilərinin istifadəsindəki və bu Fərmanın 1-ci hissəsi ilə Cəmiyyətin istifadəsinə verilən yer təki sahələrinin yerləşdiyi və sənaye, nəqliyyat, rabitə, müdafiə və digər təyinatlı olmayan torpaqların kateqoriyasının həmin kateqoriyaya keçirilməsini Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təmin etsin;

3.2.4. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təklifləri nəzərə alınmaqla, yer təkindən istifadə hüququnun əldə edilməsi, yer təkinin geoloji öyrənilməsi, faydalı qazıntıların çıxarılması, faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı zamanı yer təki istifadəçiləri tərəfindən təqdim edilməsi tələb olunan normativ hüquqi aktlarda nəzərdə tutulan sənəd və hesabatların nümunəvi formalarını təsdiq etsin;

3.3 bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

4.1. qeyri-filiz faydalı qazıntı yataqlarının geoloji öyrənilməsinə və istismarına dair Dövlət Geoloji İnformasiya Fondunda mövcud olan, habelə bu Fərmanın 4.1.3-cü yarımbəndinə uyğun olaraq aparılan monitorinq və qiymətləndirmə işləri nəticəsində əldə edilən məlumatlar əsasında müvafiq informasiya ehtiyatının yaradılması məqsədilə:

4.1.1. Dövlət Geoloji İnformasiya Fondunda mövcud olan məlumatlardan (mövcud yataqların siyahısı və koordinatları, sahəsi, xammalın növü, sənaye təyinatı, ilkin və qalıq ehtiyatı, ehtiyatların hesablanması planı (və ya xəritəsi), yer təki istifadəçiləri barədə məlumat, faydalı layın qalınlığı, geoloji məlumatlar, faktiki materiallar xəritəsi, yanakı komponentlər, laboratoriya nəticələri və digər qrafik məlumatlar), ayrılmış və faydalı qazıntı ehtiyatları yerləşən ərazilər üzrə torpaq kadastr məlumatlarından, habelə faktiki yer təki istifadəçiləri və istismar olunan sahələr barədə məlumatlardan ibarət olan informasiya ehtiyatını 2028-ci il yanvarın 1-dək yaratsın;

4.1.2. prioritet qeyri-filiz faydalı qazıntı yataqlarının siyahısını Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi ilə birlikdə üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.1.3. bu Fərmanın 4.1.2-ci yarımbəndində nəzərdə tutulmuş siyahı üzrə qeyri-filiz faydalı qazıntı yataqlarında aparılacaq monitorinq və qiymətləndirmə işləri nəticəsində əldə edilən məlumatların (koordinatlar, sahəsi, xammalın növü, sənaye təyinatı, ilkin və qalıq ehtiyatı, ehtiyatların hesablanması planı (və ya xəritəsi), yer təki istifadəçiləri barədə məlumat, faydalı layın qalınlığı, geoloji məlumatlar, faktiki materiallar xəritəsi, yanakı komponentlər, laboratoriya nəticələri və digər qrafik məlumatlar) bu Fərmanın 4.1.1-ci yarımbəndi ilə nəzərdə tutulan informasiya ehtiyatına daxil edilməsini təmin etsin;

4.2. yer təkindən istifadə sahəsində proseslərin idarə olunmasında "bir pəncərə" prinsipinin tətbiqi ilə əlaqədar "Rəqəmsal ekologiya" informasiya sisteminin "Geologiya və mineral xammal" altsistemi vasitəsilə aşağıdakıları təmin etsin:

4.2.1. yer təkindən istifadə sahəsində normativ hüquqi aktların tələblərinə uyğun olaraq icazələrin verilməsini, dövlət geoloji ekspertizasının keçirilməsi, yer təkinin istifadəyə verilməsi üzrə hərraclara (auksion və müsabiqə) dair ərizələrin və digər sənədlərin qəbulunu, müvafiq dövlət orqanlarından (qurumlarından) razılıq və rəylərin alınmasını;

4.2.2. yer təkindən istifadə sahəsində hesabatların qəbulunu, razılaşdırılmasını və təsdiqini, aşkar edilmiş uyğunsuzluqlar barədə yer təki istifadəçilərinin məlumatlandırılmasını;

4.2.3. hərraca çıxarılmış faydalı qazıntı yataqları yerləşən torpaq sahəsinin müvafiq kateqoriyaya aid edilməsi və ya kateqoriyasının, yaxud məqsədli təyinatının dəyişdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə müraciət göndərilməsini;

4.2.4. dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə hərracdan əvvəl razılaşdırılmış icarə haqqının məbləği barədə hərrac iştirakçılarına məlumat verilməsini;

4.3. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**5** Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bu Fərmanın 2.1-ci bəndində nəzərdə tutulan proseslərin "Rəqəmsal ekologiya" informasiya sisteminin "Geologiya və mineral xammal" altsistemi vasitəsilə Elektron Hökumət İnformasiya Sistemi üzərindən həyata keçirilməsini, habelə aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarından və sistemlərindən məlumatların əldə edilməsini, mübadiləsini və həmin informasiya ehtiyatlarının və sistemlərinin inteqrasiyasını 2027-ci il avqustun 1-dək təmin etsin.

**6.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmanın 4.1-ci bəndində nəzərdə tutulan informasiya ehtiyatının yaradılması məqsədilə ayrılmış və faydalı qazıntı ehtiyatları yerləşən ərazilər üzrə torpaq kadastr məlumatlarının Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilməsini üç ay müddətində təmin etsin.

**7** Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, yerin təkindən istifadə ilə bağlı texniki təhlükəsizlik və tikinti, habelə geoloji öyrənmə, tədqiqat, sınaqlar aparılması və mədənlərin bağlanması üzrə dövlət standartlarının hazırlanmasını 2027-ci il iyulun 1-dək təmin etsinlər.

**8** Azərbaycan İnvestisiya Holdinqi bu Fərmanın 14-cü hissəsindən irəli gələn məsələlərin icrasını bir ay müddətində təmin etsin.

**9** Aidiyyəti yerli icra hakimiyyəti orqanları bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan qeyri-filiz faydalı qazıntı sahələrinin yerləşdiyi və dövlət mülkiyyətində olan torpaq sahələrinin "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Cəmiyyətin müraciəti əsasında, Cəmiyyətin istifadəsinə verilməsini bir ay müddətində təmin etsinlər.

**10.** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 974 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 579 (Cild I) ilə təsdiq edilmiş "Yerin təkindən, dəniz dibi sahələrindən və akvatoriyasından istifadəyə görə ödənişlərin alınması Qaydaları"nın 13-cü hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Su anbarlarında və ya sututarlarda toplanan çöküntülərin (qum, qum-çınqıl, gil), habelə tunellərin və ya keçidlərin tikintisi ilə əlaqədar yerin təkindən çıxarılan süxur kütləsinin (dövlət geoloji ekspertizası aparılmaqla) iqtisadi dövriyyəyə cəlb edilməklə istifadəsinə görə ödənişin miqdarı müvafiq faydalı qazıntının hasilatına görə ödənişin (mədən vergisi) 50 faizi miqdarında müəyyən olunur.".

**11.** Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 580 (Cild I) ilə təsdiq edilmiş "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. aşağıdakı məzmunda 2.4-cü bənd əlavə edilsin:

"2.4. Agentlik hərraca çıxarılmış faydalı qazıntı yataqları yerləşən torpaq sahəsinin müvafiq kateqoriyaya aid edilməsi və ya kateqoriyasının dəyişdirilməsi, yaxud məqsədli təyinatının dəyişdirilməsi üçün, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın 2-ci və 3-cü hissələrinin tələblərinə uyğun olaraq fəaliyyət sferasına (maraqlarına) toxunulan aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəylərini, habelə torpaq mülkiyyətçilərinin və istifadəçilərinin yazılı razılıqlarını əldə edir və həmin Qaydalara əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə (bundan sonra – Xidmət) təqdim edir. Bu zaman müvafiq rəy və razılıqların əldə edilməsi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nın 2-ci və 3-cü hissələrinə uyğun olaraq aidiyyəti dövlət orqanlarının (qurumlarının) rəylərinin, habelə torpaq mülkiyyətçilərinin və istifadəçilərinin razılıqlarının Xidmətə təqdim edilməsinə bərabər tutulur.";

11.2. 4.3.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 4.3.8-ci yarımbənd əlavə edilsin:

"4.3.8. dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqlara münasibətdə razılaşdırılmış icarə haqqının məbləği barədə məlumat.";

11.3. 8-ci hissə üzrə:

11.3.1. aşağıdakı məzmunda 8.2-1-ci bənd əlavə edilsin:

"8.2-1. Hərrac komissiyası auksiona çıxarılan qeyri-filiz faydalı qazıntı yatağının axtarışı və (və ya) kəşfiyyatı bu Qaydaların 8.1.5-ci yarımbəndinə uyğun olaraq ən yüksək qiymət təklifini verən və qalib elan olunan auksion iştirakçısı tərəfindən aparıldığı təqdirdə, auksion qalibinin təklif etdiyi qiymətə 25 (iyirmi beş) faiz güzəşt tətbiq edir. Tətbiq edilmiş güzəşt yekun protokolda qeyd olunur.";

11.3.2. 8.3-cü və 8.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"8.3. Auksion qalibi auksionun nəticələri haqqında yekun protokolu imzalamaqdan imtina etdikdə və (və ya) 10 (on) iş günü ərzində yekun qiymətin 30 (otuz) faizi məbləğində ödənişi etmədikdə auksionun nəticəsi ləğv olunur. Yekun protokolu imzalamaqdan imtina edən və (və ya) 10 (on) iş günü ərzində yekun qiymətin 30 (otuz) faizi məbləğində ödənişi etməyən auksion qalibinin behi qaytarılmır və həmin iştirakçı yer təkinin istifadəyə verilməsi üzrə keçiriləcək növbəti 2 (iki) hərracda iştirak hüququnu itirir.

8.4. Auksionun nəticələri haqqında yekun protokol əsasında, auksion qalibi 10 (on) iş günü ərzində yekun qiymətin 30 (otuz) faizi, istismar işlərinə başladıqda 40 (qırx) faizi, ilkin ehtiyat həcminin 50 (əlli) faizini çıxardıqda isə qalan 30 (otuz) faizi məbləğində ödənişi təmin etməlidir.".

**12** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 28 sentyabr tarixli 201 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 9, maddə 1006; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 8 aprel tarixli 640 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Torpaqların kateqoriyalara aid edilməsi və onların bir kateqoriyadan digərinə keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. 3-cü hissə üzrə:

12.1.1. 3.1.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.1.5-ci yarımbənd əlavə edilsin:

"3.1.5. faydalı qazıntı yataqlarının (neft-qaz yataqları istisna olmaqla) istismara verilməsi zamanı – Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi (işğaldan azad edilmiş ərazilər istisna olmaqla).";

12.1.2. 3.2.4.7-ci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.2.4.8-ci abzas əlavə edilsin:

"3.2.4.8. bu Qaydaların 3.1.5-ci yarımbəndinə uyğun olaraq müraciət edildiyi hallarda, "Yerin təki haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yer təkinin istifadəyə verilməsi üzrə hərracların (auksion və müsabiqələrin) keçirilməsi Qaydaları"na uyğun olaraq, faydalı qazıntı yataqlarının istifadəyə verilməsi mərhələsində aidiyyəti dövlət orqanlarından (qurumlarından) əldə edilmiş rəylər, habelə torpaq mülkiyyətçilərindən, istifadəçilərindən əldə edilmiş yazılı razılıq sənədləri (həmin sənədlər təqdim edildiyi halda bu Qaydaların 3.2.4.3-cü abzasında göstərilmiş Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi, habelə bu Qaydaların 3.2.4.4-cü və 3.2.4.5-ci abzaslarında nəzərdə tutulmuş sənədlər təqdim edilmir).";

12.2. 4.1.1-ci yarımbənddə "3.1.1–3.1.4-cü" sözləri "3.1.1–3.1.5-ci" sözləri ilə əvəz edilsin.

**13** Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 282 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 1, maddə 22) ilə təsdiq edilmiş "Rəqəmsal ekologiya" informasiya sistemi haqqında Əsasnamə"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

13.1. 3.1.8-ci yarımbəndə "Geologiya" sözündən sonra "və mineral xammal" sözləri əlavə edilsin;

13.2. 3.3.8-ci yarımbəndə "Geologiya" sözündən sonra "və mineral xammal" sözləri, "proseslərin" sözündən sonra ", yerin təkindən istifadə sahəsində (neft-qaz sahəsi üzrə fəaliyyət istisna olmaqla) yer təkindən istifadə hüququnun verilməsi, yer təki sahələrinin dövlət ekspertizasının aparılması, yer təki istifadəçiləri tərəfindən hesabatların təqdim edilməsi, yer təkinin istifadəyə verilməsi üzrə aidiyyəti dövlət orqanlarından (qurumlarından) rəylərin, habelə torpaq mülkiyyətçilərinin və istifadəçilərinin yazılı razılıqlarının alınması, hərraclara (auksion və müsabiqə) dair sənədlərin qəbulu və onların keçirilməsi zamanı torpaqların kateqoriyalara aid edilməsi, kateqoriyasının, yaxud məqsədli təyinatının dəyişdirilməsi və digər əlaqəli proseslərin" sözləri əlavə edilsin.

**14** "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 11 fevral tarixli 1047 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 179 (Cild I) 2-ci hissəsinə "filizi" sözündən sonra ", habelə qeyri-filiz" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2026-cı il**

# "Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsində əməliyyat-axtarış subyektlərinin səlahiyyət bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 507 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 405 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 fevral tarixli 604 nömrəli Fərmanı) I hissəsinin beşinci abzasına "Xidməti" sözündən sonra "və Dövlət Gömrük Komitəsi" sözləri əlavə olunsun və həmin abzasda "keçirir" sözü "keçirirlər" sözü ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 20 aprel 2026-cı il**

# İqtisadi Şuranın iclası



**Aprelin 20-də İqtisadi Şuranın aqrar sahənin inkişafına həsr olunmuş iclası keçirilib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində aqrar sahənin dayanıqlı inkişafı, o cümlədən mövcud vəziyyət və inkişaf perspektivləri, kənd təsərrüfatında istehsalın artırılması, məhsuldarlığın yüksəldilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, aqrar ticarətin və ixracın genişləndirilməsi, regionlarda məşğulluğun qorunması və digər carı məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələ üzrə kənd təsərrüfatı naziri Məcnun Məmmədovun geniş məruzəsi dinlənilib. Təqdim olunan məsələlərə dair İqtisadi Şuranın üzvləri və iclasa dəvət olunanlar çıxış ediblər.

İclasın yekununda aqrar sahənin inkişafı ilə bağlı qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

*XQ*

# Mehriban Əliyeva Antalya Diplomatiya Forumunda

## Azərbaycanın Birinci xanımı "Fələstində sülh naminə birləşərək: Təhsil sisteminin məhv edilməsi ilə mübarizə və gələcəyin qorunması" adlı paneldə iştirak edib











**Aprelin 18-də Türkiyənin Antalya şəhərində keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində "Fələstində sülh naminə birləşərək: Təhsil sisteminin məhv edilməsi ilə mübarizə və gələcəyin qorunması" adlı panel iclas təşkil olunub.**

Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva tədbirdə iştirak ediblər.

Əvvəlcə qonaqlar Afrika Mədəniyyət Evinin stendi ilə tanış olublar. Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğanın təşəbbüsü ilə 2016-cı ildə qurulan Afrika Mədəniyyət Evinin fəaliyyətinin məqsədi afrikalı qadınların əl əməyini təbliğ etmək, onların fəaliyyətini iqtisadi dəyərə çevirmək və mədəni həmrəyliyi gücləndirməkdir.

Türkiyənin birinci xanımı Əminə Ərdoğanın himayəsi altında keçirilən tədbir Fələstinə həsr olunan videoçarxın nümayişi ilə başlayıb.

Tədbirdə çıxış edənlər müharibənin təsirlərinə məruz qalan uşaqlar üçün təhlükəsiz təhsil mühitinin bərpası, dəstək mexanizmlərinin gücləndirilməsi və təhsildə davamlılığın təmin edilməsinin regionun gələcəyi üçün strateji əhəmiyyət daşıdığını bildiriblər.

Türkiyənin birinci xanımı Əminə Ərdoğan çıxış edərək, tədbirdə veriləcək mesajların dünyanın müxtəlif bölgələrində baş verən müharibələrin qurbanı olan uşaqlar üçün yeni bir həyatın ümid işığı olacağına əminliyini vurğulayıb. O, uşaqların və gənclərin bir millətin ümidi və sabahı olduğunu deyərək, zorakılığı təşviq edən ən xırda amillə belə qətiyyətlə mübarizə aparmağın mühüm roluna toxunub.

Sonra xatirə şəkli çəkdirilib.

Daha sonra tədbir iştirakçıları Fələstində münaqişə nəticəsində təhsil sisteminin məhv edilməsinə həsr olunan sərgiyə baxıblar.

***XQ***

# Paşinyanın xalqla açıq söhbəti

## *Baş nazir Qarabağ səhifəsinin və "qayıdış məsələsi"nin bağlandığını rəsmən elan etdi*

**Ermənistanda iyunun 7-də keçiriləcək parlament seçkilərinin rəsmi təbliğat-təşviqat kampaniyası hələ başlamayıb. Buna baxmayaraq, fevralın sonu, martın əvvəlindən etibarən siyasi qüvvələr qeyri-rəsmi şəkildə prosesə start veriblər. Baş nazir Nikol Paşinyan, eləcə də onun əsas rəqibləri – keçmiş prezident Robert Koçaryan, biznesmen Qaqik Sarukyan paytaxtda və bölgələrdə ölkə vətəndaşları ilə aktiv şəkildə görüşlər keçirirlər. Ermənistanla yanaşı, Rusiya və Kipr Respublikası vətəndaşlığına malik milyarder Samvel Karapetyan isə tərəfdarları ilə birbaşa görüşlər keçirmir. Bu prosesi onun "Güclü Ermənistan" partiyasının seçki siyahısına rəhbərlik edən qardaşı oğlu Narek həyata keçirir.**

Ermənistan Mərkəzi Seçki Komissiyası (MSK) aprelin 13-dən başlayaraq siyasi partiya və seçki bloklarından sənədlərin qəbuluna başlayıb. Qeydiyyat aprelin 23-ü saat 18:00-a qədər davam edəcək. Daha əvvəl ölkə parlamenti partiyaların parlamentə düşə bilmələri üçün həddi 5 faizdən 4 faizə endirmişdi. Bloklar üçün həddi 8 faizə (üç partiyanın birliyi üçün) və 10 faizə (dörd və ya daha çox partiyanın birliyi üçün) qaldırmışdı.

Seçki prosesinə rəsmən start verilmədiyi halda siyasi qüvvələrin təşviqata başlamaları Ermənistan mətbuatının təəcübünə səbəb olub. "Joxovurd" qəzeti bununla bağlı "Seçki kampaniyası başlayıb, lakin Mərkəzi Seçki Komissiyası onu nəzarətdə saxlaya bilmir" başlıqlı məqalə dərc edib. Mərkəzi Seçki Komissiyası isə məqalədə irəli sürülən iddiaları əsassız və qanunvericiliyin tələblərini bilməməsinin nəticəsi kimi qiymətləndirib. Qurumun yaydığı açıqlamada bildirilib ki, siyasi qüvvələrin seçkiqabağı dövr xaricində təşviqat fəaliyyətinə məhdudiyyət tətbiq edilmir. Qeyd olunub ki, siyasi qüvvələr və siyasətçilər rəsmi seçkiqabağı kampaniya başlamazdan əvvəl təşviqat aparmaqda sərbəstdirlər. Komissiya əlavə edib ki, siyasi qüvvələr vətəndaşlarla sərbəst görüşə, ölkənin müxtəlif yaşayış məntəqələrinə səfərlər edə və qanunla qadağan olunmayan digər fəaliyyətləri həyata keçirə bilərlər.

O da bildirilib ki, seçkiqabağı təşviqat mayın 8-dən iyunun 5-dək aparılacaq. Səsvermədən bir gün əvvəl və səsvermə günü təşviqat qadağandır. Qeyd edək ki, MSK sədri Vaaqn Ovakimyan daha əvvəl bildirmişdi ki, rəsmi seçkiqabağı kampaniya başlamazdan əvvəl siyasi qüvvələr təşviqat baxımından məhdudlaşdırılmır.

*

Aprelin 20-də seçkiqabağı prosesdə daha bir vacib hadisə baş verib. Baş nazir N.Paşinyan "Facebook"da canlı yayım açaraq 1 saat 45 dəqiqəlik videomüraciət ərzində hakim "Mülki müqavilə" partiyasının seçki proqramını açıqlayıb. Proqramın Ermənistanın xarici təhlükəsizliyi ilə bağlı müddəaları bizimlə birbaşa əlaqəli olduğu üçün sənəddə bu istiqamətdə əksini tapan məqamları oxucuların diqqətinə çatdırmağı vacib saydıq. "Armenpress"in məlumatına görə, N.Paşinyan bildirib ki, xarici təhlükəsizlik bölməsi proqramın ən vacib hissələrindən biridir. Onun sözlərinə görə, əgər xarici təhlükəsizliyin əsas təminatçısı kimi yalnız ordu göstərilirsə, bu, əslində təhlükəsizliyin mövcud olmaması deməkdir: "Biz ordudan daha



üstün olan əlavə təhlükəsizlik amillərini önə çəkməliyik ki, real təhlükəsizliyimizin mövcud olmasından danışa bilək. İndi sual budur: Ermənistanın xarici təhlükəsizliyini ordudan daha üstün hansı amillər təmin etməlidir?"

Paşinyan qeyd edib ki, belə amillərdən birincisi beynəlxalq legitimlikdir və bu, Ermənistanın xarici təhlükəsizliyinin əsas alətidir. Onun sözlərinə görə, beynəlxalq ictimaiyyət Ermənistanın ərazi bütövlüyünü keçmiş Ermənistan SSR sərhədləri çərçivəsində tanıyır: "Bu prinsip həm də bərqərar olmuş sülhün əsasını təşkil edir. Ermənistan və Azərbaycan 1991-ci il Alma–Ata Bəyannaməsi əsasında bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanıyıblar". Baş nazir vurğulayıb ki, beynəlxalq hüquqa uyğun, mübahisəsiz, yeni legitim ərazilərə malik olmaq təhlükəsizliyin əsas sütunlarından biridir. Paşinyan bir neçə gün əvvəl parlamentdə keçirilmiş müzakirələrə toxunaraq müxalifət nümayəndələrindən birinin sülhün yalnız müharibənin səbəbləri aradan qaldırıldıqda mümkün olduğunu bildirdiyini xatırladıb. Onun sözlərinə görə, bu, tamamilə düzgün yanaşmadır və məhz buna görə hökumət Qarabağ hərəkatına son qoyulmasının vacibliyini bəyan edib. Paşinyan qeyd edib ki, müharibə və münaqişənin əsas səbəbi məhz Qarabağla bağlı yanlış yanaşmalar olub: "Lakin biz bir-birimizin ərazi bütövlüyünü beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində qəbul etdikdə, müharibənin səbəbi aradan qalxır, onun əsas səbəbi yox olur və məhz bu əsasda sülhün qurulması mümkün olur". O əlavə edib ki, Ermənistanda müharibə tərəfdarı olan üçbaşlı siyasi qüvvə (Samvel Karapetyanın "Güclü Ermənistan" partiyası, Robert Koçaryanın "Ermənistan" bloku və Qaqik Sarukyanın "Çiçəklənən Ermənistan" partiyası–S.H.) formalaşır. Baş nazir həmin qüvvələrin Qarabağ hərəkatını tədricən aktivləşdirməyə çalışdığını bildirib. Paşinyanın fikrincə, bu, yeni gərginliyə və müharibəyə səbəb ola bilər: "Əslində, 1991-ci ildən 2024-cü ilə qədər heç vaxt sülh olmayıb. Həmişə müharibə olub və bunun sübutu sərhəddə hər il itkilərin olmasıdır. Sülh sərhəddə itki və ya yaralıların olmamasıdır. Amma müxtəlif intensivlikli müharibələrimiz olub. Sərhəddə insanlar ölürsə, bu, müharibədir, amma müharibənin intensivliyi tamamilə fərqli bir məsələdir. Müharibə Qarabağ münaqişəsi, Qarabağ hərəkatı üzərində idi. Qarabağ hərəkatı sülh və təhlükəsizliklə uyğun deyildi. Və biz bunu nəzərə aldıq, dedik: hansı seçimimiz var? Və biz sülhü və təhlükəsizliyi seçdik. Və bu gün təhlükəsizliyimiz var, sülhümüz var. Bu günlərdə oxudum ki, üçbaşlı müharibə partiyasının nümayəndələri xəritələr, buraxılışlar dərc edirlər... Yeri gəlmişkən, deyim ki, Qarabağ münaqişəsi də çox günahsız humanitar məsələlərlə başlayıb. İndi onlar Qarabağa qayıtmaq hüququndan danışırlar. Azərbaycan bu məsələdə sizə tanış olan mövzulardan istifadə edərək buna müqavimət göstərəcək... Və oradan hər şey qızmağa, qaynamağa, qızışmağa və nəticədə münaqişəyə çevrilməyə başlayacaq".

N.Paşinyan ilk dəfə 2024-cü ilin noyabr ayında elan etdiyi Azərbaycana təklif olunan strateji sazişin mahiyyətini də açıqlayıb. Sazişin mahiyyəti ondan ibarətdir ki, Alma–Ata Bəyannaməsinə əsaslanaraq ərazi bütövlüyünün qarşılıqlı tanınmasından sonra tərəflər sərhədləri delimitasiya-demarkasiya edir və "bir-birini rahat buraxırlar". Bu isə sülh deməkdir. Bu kontekstdə o, ermənilərin Qarabağa qayıtması məsələsini əks-təsir hesab etdiyini bir daha təkrarlayıb, çünki Bakı "məlum məsələ"ni (Qərbi azərbaycanlıların öz yurd-yuvalarına qaytması–S.H.) qaldıraraq cavab verə bilər.

Bəli, Paşinyanın səsləndirdiyi yanaşma, əslində, Ermənistanın son illər keçdiyi ağrılı təcrübənin məntiqi nəticəsi kimi görünür. O, açıq etiraf edir ki, təkcə orduya arxalanan təhlükəsizlik modeli ölkəni qorumağa yetməyib və nəticədə uzun illər davam edən qarşıdurma, itkilər və qeyri-müəyyənlik yaranıb. Bu baxımdan onun "təhlükəsizlik ordudan yox, daha geniş anlayışdan başlayır" fikri reallığa daha yaxın yanaşmadır. Xüsusilə beynəlxalq legitimliyi ön plana çıxarması diqqət çəkir. Çünki məhz hüquqi tanınma və sərhədlərin qarşılıqlı qəbul olunması regionda sabitliyin əsas şərtidir. Ermənistan cəmiyyətinə də ilk dəfə bu qədər açıq formada deyilir ki, illərlə qurulan yanlış təsəvvürlər ölkəni təhlükəsiz etməyib, əksinə, yeni risklər yaradıb.

Ümumilikdə, bu çıxış seçki proqramından daha çox, cəmiyyətlə bir növ açıq söhbət təsiri bağışlayır. O, həm keçmiş səhvləri dolayı yolla qəbul edir, həm də gələcək üçün fərqli yol təklif edir. Bu yanaşma seçicilər üçün inandırıcı görünə bilər. Çünki insanlar uzunmüddətli gərginlikdən yorulub və daha proqnozlaşdırıla bilən, sakit gələcək istəyir. Bu baxımdan Paşinyanın mesajları seçki kampaniyasında ona ciddi üstünlük qazandıra bilər.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan UNESCAP-a növbəti sədr seçildi




**Aprelin 20-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Tailand Krallığının paytaxtı Banqkok şəhərinə işgüzar səfəri çərçivəsində BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının 82-ci sessiyasına (UNESCAP) sədr seçilib. Ölkəmizin növbəti 1 il ərzində bu quruma sədrlik etməsi nəzərdə tutulub.**

"Heç kəsi geridə qoymamaq: Asiya və Sakit okean regionunda bütün yaşlar üçün cəmiyyətin irəlilədilməsi" mövzusuna həsr olunmuş sessiyanın açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin sessiya iştirakçılarına ünvanlanmış müraciəti nazir Ceyhun Bayramov tərəfindən səsləndirilib *(Müraciətin mətni qəzetin bugünkü nömrəsində dərc olunub).*

Prezidentin müraciətində qlobal miqyasda artan geosiyasi gərginliklərin beynəlxalq sülh və təhlükəsizlik üçün yaratdığı çağırışlar qeyd olunub, dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinin əhəmiyyəti bir daha vurğulanıb.

Müraciətdə Azərbaycanın suverenliyini tam bərpa etməsi, Ermənistanla normallaşma prosesində əldə olunan irəliləyişlər, Böyük Qayıdış proqramı, mina təhlükəsinin yaratdığı təhdidlər, dayanıqlı inkişaf göstəriciləri, Orta Dəhlizin artan rolu və ölkənin enerji təhlükəsizliyi ilə regional bağlantıya töhfəsi önə çəkilib.

Çıxışda bərpaolunan enerji mənbələrinin həm iqlim, həm də iqtisadi dayanıqlılıq baxımından əhəmiyyəti vurğulanıb. Bakıda keçirilmiş COP29 çərçivəsində əldə edilmiş tarixi razılaşmalar, o cümlədən ildə ən azı 300 milyard ABŞ dolları həcmində iqlim maliyyəsinin səfərbər olunması öhdəliyi xatırlanıb. Bu öhdəliklərin praktiki layihələrə çevrilməsinin vacibliyi qeyd olunub. Nəqliyyat, ticarət və logistika əlaqələri inklüziv inkişafın mühüm vasitəsi kimi qiymətləndirilib. Azərbaycanın Avropa və Asiyanın kəsişməsində yerləşən strateji mövqeyi vurğulanaraq Orta Dəhlizin regional əməkdaşlıq və dayanıqlılıqda roluna diqqət çəkilib.

Sessiya çərçivəsində ümumi müzakirələr zamanı, həmçinin xarici işlər nazirinin müavini Yalçın Rəfiyev çıxış edib. Çıxış zamanı, regionda inklüziv və dayanıqlı inkişafın təşviqi, sosial bərabərliyin gücləndirilməsi və bütün təbəqələrin inkişaf prosesinə cəlb olunmasının əhəmiyyəti vurğulanıb.

# XİN rəhbərinin Tailand görüşləri

**Aprelin 20-də xarici işlər naziri Ceyhun Bayramov Banqkok şəhərində keçirilən BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının (UNESCAP) 82-ci sessiyası çərçivəsində BMT-nin Baş katibinin müavini və UNESCAP-ın icraçı katibi Armida Salsiah Alişahbana ilə görüşüb.**



Görüşdə Azərbaycanın regional və beynəlxalq platformalarda artan rolu xüsusi vurğulanıb. Ölkəmizin 2023-cü ildə BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) 25 illiyinə həsr olunmuş Zirvə Görüşünə sədrliyi, həmçinin 2024-cü ildə COP29-a uğurlu ev sahibliyi qeyd olunub.

Tərəflər arasında Azərbaycan Xarici İşlər Nazirliyinin nəzdində Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) ilə UNESCAP arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

*

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Tailand Krallığının xarici işlər naziri Sihasak Puanqketkeo ilə də görüşüb.**



Görüş zamanı Azərbaycan ilə Tailand arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub, əməkdaşlığın genişləndirilməsi üçün mövcud potensial yüksək qiymətləndirilib.

*

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Şri-Lanka Demokratik Sosialist Respublikasının kənd təsərrüfatı inkişafı, sosial təminat və icmanın gücləndirilməsi naziri Upali Pannilac ilə də görüşüb.**

Nazirlər qarşılıqlı hörmət və ortaq dəyərlərə əsaslanan artan münasibətləri yüksək qiymətləndirib və müxtəlif sahələrdə əməkdaşlığı daha da genişləndirmək imkanlarını müzakirə ediblər. İqtisadi əlaqələrin gücləndirilməsinə və ticarət dövriyyəsinin artırılmasına xüsusi diqqət yetirilib.

Şri-Lanka tərəfi son təbii fəlakətlər zamanı Azərbaycanın göstərdiyi humanitar yardıma görə dərin minnətdarlığını ifadə edib.

***XQ***

# TRIPP və erməni cəmiyyəti üçün həyati məsuliyyət

## *Yaxud Naxçıvana maneəsiz yolun Azərbaycan üçün haqq işi mahiyyəti*

**Ermənistanda iyunun 7-də keçiriləcək parlament seçkiləri kontekstində ortaya bir çox məsələlər atılır. Belə məsələlərdən biri də ötən il avqustun 8-də Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtonda imzaladıqları Birgə Bəyannamədir.**




Söhbət başlıca olaraq sözügedən sənədin Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu, yaxud "Tramp marşrutu" və ya qısaca TRIPP seqmentindən gedir. Erməni müxaliflər hazırda TRIPP-ın reallaşmasının mümkünsüzlüyü üzərində təbliğat qurur, əsas kimi İran və ABŞ arasında məlum müharibə səbəbindən yaranmış gərginliyə söykənirlər. Onlar bildirirlər ki, Tehran ərəb ölkələrində olduğu kimi, Cənubi Qafqazda da Birləşmiş Ştatlara məxsus infrastrukturu hədəfə ala bilər. Yəni bu kimi deyimlər erməni iqtidarının səriştəsizliyini sübuta yetirmək üçün, bir növ, alətə çevrilir. Əlbəttə, TRIPP-in iqtisadi mahiyyəti unudulur. Həmçinin layihənin region ölkələrinə barəsində dəfələrlə söz açılan dividendləri yaddan çıxarılır. Yaddan çıxarılır ki, TRIPP Cənubi Qafqaz xalqlarının dinc və əmin-amanlıq, rifah və asayiş şəraitində yaşamalarının təminatıdır.

Mənzərə aydındır: Ermənistanda anti-TRIPP təbliğatı aparanlar Cənubi Qafazda əmin-amanlığın formalaşmasında maraqlı deyillər və onlar imperialist qüvvələrin regiondan yapışmaq ssenarilərinin icrasına can atırlar. Söhbət həmin qüvvələrin xalqlar arasında nifaq və düşmənçilik yaratmaqla, bölgədəki mövcudluğu davam etdirmək planlarından gedir. Ona görə də anti-TRIPP təbliğatı fonunda Ermənistan müxalifətinin ölkəni və erməni xalqını, onun gələcəyini düşünməyəcək qədər miskin və rəzil görkəmindən təəssüflənirik. Yəni ən azından təəssüflənirik. Amma məsələ bunda deyil. Çünki təəssüf hissi müəyyən ərk və gözləntidən qaynaqlanır. Hay müxalif kəsimindən konstruktiv heç nə gözləməsək də, onun nümayəndələrindən tələbimiz var. Tələbimiz reallığı anlamaları və TRIPP layihəsinin timsalında Zəngəzur dəhlizinin Azərbaycanın, belə demək mümkünsə, halal haqqı olmasını dərk etmələridir.

Baş nazir Nikol Paşinyan administrasiyası TRIPP-i necə təqdim etməsindən asılı olmayaraq, durumun fərqindədir. Erməni iqtidarı "Tramp marşrutu"nun, mahiyyət etibarilə, Naxçıvana maneəsiz yol demək olduğunu anlayır. O yol ki, onunla əlaqədar müddəa 44 günlük müharibənin yekunlarını təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda da əksini tapmışdı. Rəsmi İrəvan yolun açılması ilə bağlı öhdəlik götürmüşdü. O da məlumdur ki, Ermənistan və xaricdəki havadarları 2020-2025-ci illərdə var gücləri bu öhdəliyin gündəmdən çıxmasına çalışdılar. Amma məqsədlərinə çata bilmədilər.

Nəhayət, Vaşinqtonda Azərbaycanın haqqı bir daha rəsmi şəkildə tanındı. Yəni üzərindən beş il keçdikdən sonra Naxçıvana maneəsiz yol məsələsi bir daha sənədləşdi. İstər üçtərəfli Bəyanatda, istərsə də Birgə Bəyannamədə Ermənistan dövlətinin ali təmsilçisinin imzası var. İmza isə ciddi məsələdir. İndiki halda həm də dövlətçilik məsələsidir. Ermənistanda parlament seçkilərində kimin qalib gəlməsindən asılı olmayaraq, gerçək mahiyyət məhz bundadır.

Naxçıvana maneəsiz yol Azərbaycan üçün həyati əhəmiyyətlidir, böyük strateji anlam daşıyır. Bu yol, eyni zamanda, xalqımız üçün illərlə çəkdiyi əzab-əziyyətlərin, məhrumiyyətlərin, yaşadığı faciələrin müqabilində mükafatdır. Naxçıvana maneəsiz yol həm də ilahi ədalətin təcəllisidir. O ədalətin ki, qarşısını bütövlükdə Türk dünyasını parçalamaq yönümlü məkrli plan kəsmişdi. O plan ki, əzəli türk-müsəlman, Azərbaycan torpaqlarının erməni varlığına peşkəş edilməsi hesabına reallaşmışdı.

Müasir, güclü və qüdrətli Azərbaycan dövləti öz əzmi və iradəsi ilə məhz haqsızlığı aradan qaldırmaq yolundadır. Bu yolun adının Tramp və ya bir başqa cür olmasının önəmi ilahi ədalətin təcəllisi məntiqindən heç cür üstün ola bilməz. Ermənistanda bu dediklərimizin dərki nəinki vacibdir, həmçinin, həyatı əhəmiyyətlidir. Hadisə və proseslərin səmimi şəkildə dərk edilməsi erməni cəmiyyəti və toplumu, bütövlükdə dünya erməniliyi üçün onlara ziyan və zərərdən başqa heç nə verməyən düşmənçilik və nifaq səhifəsinin tamamilə bağlanması deməkdir.

Ermənistanın və siyasi mövqeyindən asılı olmayaraq, erməni varlığı üçün hazırkı reallığın dərki ümumən Cənubi Qafqaz regionunun inkişafı naminə son dərəcə zəruridir. Təsəvvür edin, bu varlıq məskunlaşdığı vaxtdan bəri yaşadığı coğrafiyaya heç bir xeyir verməyib, əksinə onu qanla suvarıb. İndi faydalı olmağın zamanıdır. Hay cəmiyyəti məhz bu barədə düşünməlidir. Faydanın yolu TRIPP-dən, yəni Zəngəzur dəhlizi və Naxçıvana yoldan keçir.

Digər tərəfdən, erməni cəmiyyəti Naxçıvana maneəsiz yolun vacibliyini iqtidar-müxalifət yanaşması kontekstində dəyərləndirməli deyil. Hakimiyyətlər bu gün var, sabah yoxdur. Məsələ isə strategiyadır, Ermənistan adlı dövlətin mövcudluq və gələcək yaşam kartıdır. Nəzərə alaq ki, Naxçıvana yolun maneəsizliyi özündə bir çox mətləbləri – düşmənçilikdən, ixtilafdan qan-qadadan uzaq durmağı daşıyır. O mətləbləri ki, onlara yenidən tapınmaq Ermənistan üçün 2020-ci ildə yaşadığından da artıq fəlakətdir.

Ayrıca onu da deyək ki, Naxçıvana maneəsiz yol qonşularla normal keçinmək, onlara qarşı heç bir ərazi iddiasında olmamaqdır. Axı bu yolun zamanında kəsilməsi məhz torpaq hərisliyindən, özünün olmayana sahiblənmək ambisiyasından qaynaqlanmışdı. Hazırda Azərbaycan öz əzəli torpaqlarında formalaşmış Ermənistan adlı dövlətin ərazi bütövlüyünü və suverenliyini tanıyırsa, bu, erməni cəmiyyəti tərəfindən lütf kimi qiymətləndirilməlidir. Əvvəldə də bildirdi ki, zaman həm də o lütfün mənfəətlərini görmək zamanıdır.

Bəli, indi sülh zamanıdır. Azərbaycan 44 günlük müharibədən sonra üzərində inamlı Zəfər çaldığı Ermənistana barış əlini uzatdı. Sonra bir çox xoşagəlməzliklər yaşandı. O cümlədən İrəvanın Bakının səmimi niyyətinə adekvat yanaşmadığını, Qarabağdakı separatçı rejimi saxlamaq naminə dəridən-qabıqdan çıxdığını gördük. Bütün bunların fonunda Vaşinqtonda ötən il avqustun 8-də imzalanmış Birgə Bəyannamənin özünün də Ermənistan üçün lütf olduğu vurğulanmalıdır.

Birgə Bəyannamə Ermənistan üçün ona görə lütfdür ki, ölkəmiz öz haqqına, bir növ, beynəlxalq libas geyindirilməsi, Naxçıvana maneəsiz yolun TRIPP adlandırılması və beləliklə, erməni cəmiyyətini narahat edən Azərbaycanın diktəsi klişesinin aradan qalxması ilə razılaşdı. Ən əsası isə Birgə Bəyannamə Naxçıvana yolu Ermənistan ərazisi kimi təsdiqlədi. Ağlı başında olan erməni məhz bu cəhəti düşünməli və nəticə çıxarmalıdır.

Sonda bütün dediklərimizi ümumiləşdirərək bildirək ki, Ermənistanda bu il iyunun 7-də keçiriləcək parlament seçkiləri ermənilər üçün həm də ağıllarını başlarına yığmaq fürsəti və şansıdır. TRIPP-ın reallaşmasının mümkünsüzlüyü üzərində təbliğat qurmaq, İran-ABŞ ədavətinə, habelə digər güclərin hansısa qarşıdurmasına fokuslanmaq, eləcə də bu sayaq təbliğat parametrlərinə inanmaq mənasızdır.

Erməni cəmiyyəti regionun gələcəyi, Ermənistan adlı dövlətin mövcudluğu naminə məsuliyyətli davranmalı, necə deyərlər, əlini daşın altına qoymalıdır. Hələlik bunun tək yolu Paşinyan iqtidarını dəstəkləmək, onun qələbəsi naminə çalışmaq, revanşist və şovinistlərin, keçmişin qul təfəkkürlü cəlladlarının ucuz populizmini kənara qoymaqdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Beynəlxalq nizama vasitəçilik dəstəyi

## Türkiyə qlobal təhlükəsizliyin mötəbər təminatçısı rolunu möhkəmləndirir

**İstanbulda keçirilən Parlamentlərarası İttifaqın 152-ci Assambleyası artıq başa çatıb. Tədbir çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qlobal təhlükəsizlik, Yaxın Şərqdə, eyni zamanda, Suriya coğrafiyasında davam edən böhranların siyasi həlli, eləcə də Cənubi Qafqazda və bütövlükdə dünyada sülh konsepsiyaları ətrafında ciddi mülahizələr irəli sürdü. Çıxışın başlıca hədəfi müasir dünya nizamının tamamilə yenidən formalaşdırılması zərurətinin çatdırılması, dövlətlərin qarşılıqlı hörmətə, beynəlxalq normalara əsaslanan münasibətlər sisteminə qayıtması ehtiyacının ifadə edilməsi idi. Rəcəb Tayyib Ərdoğanın strateji baxışları bütün qlobal rəhbərlik üçün olduqca aydın xəbərdarlıq siqnalı xarakteri daşıyaraq, diplomatiyanın gücünün nümayişi idi.**

Prezident Rəcəb Tayyib Ərdoğan müraciətində bildirdi ki, Türkiyənin regional münaqişələrin tənzimlənməsində tətbiq etdiyi vasitəçilik mexanizmləri, həmçinin diplomatik paritet prinsipləri bütün dünya üçün nümunə təşkil etməlidir. Yaxın Şərq regionunda hazırda müşahidə olunan sistemli xaos, müstəqil dövlətlərin suverenliyinə yönəlmiş qəsdlər, beynəlxalq hüququn ən primitiv normalarının belə kobudcasına tapdalanması mütləq şəkildə əsaslı diplomatik reaksiyalar tələb edir. Türkiyə lideri qeyd etdi ki, əbədi sülh prosesi tam real praktik addımlarla mütəmadi dəstəklənməlidir. Bölgədə baş verən dağıntıların fonunda tarixi ədalətin bərpası üçün qeyd edilən coğrafiyada silahlı fəaliyyətlər dərhal dayandırılmalıdır.

Qlobal təhlükəsizlik arxitekturası məsələlərinə dərindən toxunan Türkiyə rəhbəri hegemon güclərin amansız geosiyasi təsir dairələrini genişləndirmək məqsədilə yaratdıqları eskalasiya ocaqlarının ümumbəşəri sabitliyə təhdid formalaşdırdığını açıq mətnlə diqqətə çatdırdı. Qlobal miqyasda siyasi coğrafiyada ardıcıl cərəyan edən silahlı qarşıdurmalar ancaq çoxtərəfli beynəlxalq diplomatiya, ortaq bərabərhüquqlu təhlükəsizlik paradiqması vasitəsilə yekun həllini tapa bilər. Mövcud proseslər çərçivəsində rəsmi Ankara müstəqil xarici siyasət kursu yürüdərək, Qərb və Şərq arasında qırılmaz strateji körpü rolunu sürətlə möhkəmləndirir, eyni vaxtda qlobal səviyyəli mürəkkəb geosiyasi düyünlərin açılmasında yüksək fəallıqla iştirak edir.

Assambleyada aparılan müzakirələrin digər mühüm nöqtəsi Cənubi Qafqazda daimi sülh arxitekturasının yaradılması mövzusu idi. Türkiyə dövlətinin başçısı bəyan etdi ki, Cənubi Qafqaz regionunda dayanıqlı sülhün və etibarlı, daimi sabitliyin bərqərar olması geniş anlamda dünya təhlükəsizlik sisteminin xüsusi elementidir.



Uyğun məqamda vacib detal kimi vurğulamaq lazımdır ki, məhz həmin regionda illərlə tapdalanan tarixi ədalətin və hüquqi dövlət suverenliyinin mütləq şəkildə təmin olunmasında Azərbaycanın böyük hərbi-siyasi iradəsi həlledici rol oynayıb. Rəsmi Bakı zəfər yürüşü ilə ərazi bütövlüyünü tam şəkildə bərpa etdikdən dərhal sonra bütün regionda baş qaldıran mənfi revanşizm meyillərinin qarşısını inamla alaraq, qonşu qüvvələrlə konstruktiv sülh müqaviləsi üzərində işləyən vacib danışıqlar prosesinə təqdirəlayiq töhfə verdi. Azərbaycanın uğurla tətbiq etdiyi uzaqgörən postmünaqişə strategiyası sübut edir ki, əldə olunan hərbi nailiyyətlər mütləq surətdə məhz diplomatik masada ustalıqla möhkəmləndirilməli, uzunmüddətli dinamik inkişafa istiqamətlənmiş əlaqələr hərtərəfli qurulmalıdır.

Qeyd edilən beynəlxalq tədbirin dərhal ardınca dünya mətbuatının diqqət mərkəzinə çevrilən mühüm xəbər, məhz Türkiyə dövlətinin malik olduğu unikal və əvəzedilməz diplomatik mövqeyini təsdiqləyən şəkildə gündəmə gəldi. Rəsmi Kiyev Ankaraya Ukrayna və Rusiya arasında vasitəçi olmağı israrla və açıq formada təklif edib. Ukrayna Xarici İşlər Nazirliyi qısa zaman kəsiyində rəsmi olaraq Türkiyənin iştirakı, eyni zamanda, yüksək himayəsi altında Kiyev–Moskva görüşünü təşkil etmək məsələsinə mətbuat önündə aydınlıq gətirib. Kəskin toqquşmaların ən gərgin dövründə, vəziyyətin daha da pisləşdiyi məqamlarda belə suveren dövlətlər yeganə çıxış yolunu məhz ədalətli diplomatik balans vasitəsilə axtarırlar. Ukrayna hökuməti Türkiyənin tərəfsiz, obyektiv platforma təmin edə biləcəyinə inamını rəsmi xarici siyasət sənədlərində cəsarətlə nümayiş etdirdi.

Təşkil edilən brifinqdə Ukraynanın xarici işlər naziri fəal strateji siyasi diskussiyaların ardınca çox vacib fikirlər səsləndirdi. Nazir ictimaiyyət qarşısında rəsmən dedi ki, Ukrayna Türkiyəyə Zelenski ilə Putin arasında görüş təşkil etmək təklifi ilə müraciət edib. Çıxışın mətni rəsmən belədir: "Biz rəsmi Ankaradan prezidentlər Zelenski və Putin arasında Rəcəb Tayyib Ərdoğan və Donald Trampın mümkün iştirakı ilə görüş təşkil etməyi nəzərdən keçirməsini xahiş etdik". Düzgün siyasi leksikonla yanaşdıqda, rəsmi Kiyev proseslərə birbaşa təsir imkanına malik olan güc mərkəzlərindən konkret təhlükəsizlik təminatı tələb edir.

Tarix sübut edir ki, böyük fəlakətli toqquşmalar tərəflərin yorulmasından əlavə, qüdrətli nizamlayıcıların səmərəli diktəsi altında sülh sənədlərinə imza atılması ilə başa çatır. Keçmiş dönəmlərdə Qərbin təhlükəsizlik mərkəzləri olan bəlli şəhərlər hazırda həmin xilasedici missiyanı qürurla Ankaraya təhvil veriblər. Çünki müasir sivilizasiyanın, texnoloji dövrün sərt çağırışları aylar çəkən nəticəsiz, cansıxıcı danışıqlar xronikasını yox, qətiyyətli, sırf nəticəyönümlü cəld diplomatik qərarları zəruri hesab edir. Ukraynanın xarici siyasət idarəsinin irəli sürdüyü format rasional hesablama, məntiqi qüsursuz proqnozlar üzərində qurulub. Türkiyənin obyektiv vasitəçilik xətti isə heç kəsdə hər hansı asimmetrik tərəfdaşlıq şübhəsi yaratmır.

İstanbul şəhərində təşkil edilən mötəbər assambleya qlobal təhlükəsizlik nizamının yenidən qurulması zərurətini real faktlarla sübuta yetirdi. Təqdim edilən siyasi məruzələr, eyni zamanda, irəli sürülən çoxtərəfli format təklifləri beynəlxalq hüquq institutlarının mövcud tənzimləmə mexanizmlərinin effektivliyini kifayət qədər itirdiyini aşkar şəkildə göstərir. Ukrayna hökuməti tərəfindən Türkiyə dövlətinə rəsmən ünvanlanan dördtərəfli sammit təşəbbüsü mövcud hərbi-siyasi münaqişələrin dayandırılması üçün daha çevik, həmçinin təsirli diplomatiya modelinə kəskin ehtiyac yarandığını təsdiqləyir.

Qlobal təhlükəsizlik sistemində formalaşan indiki boşluqlar ancaq həlledici iştirakçı qüvvələrin rasional gedişləri, eləcə də ortaq güzəşt qərarları çərçivəsində aradan qaldırıla bilər. Baş verən hadisələr beynəlxalq münasibətlər sisteminin yaxın gələcəkdə daha ədalətli və gücləndirilmiş hüquqi nəzarətə əsaslanan yeni mərhələyə keçəcəyini göstərir. Bəşəriyyətin gələcək təhlükəsizliyi əsas geostrateji hesablamalar və qabaqlayıcı, böhranların qarşısını alan diplomatik yanaşmaların tətbiqi ilə uzunmüddətli ola bilər.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Türkiyə və regional sülhün Zəngəzur dəhlizi məntiqi

*Hakan Fidanın fərqli yanaşması və Ankaranın normallaşma prinsipiallığı*

**“Zəngəzur dəhlizi regional əlaqələrin gücləndirilməsi baxımından Türkiyə üçün çox önəmlidir”. Bu fikri qardaş ölkənin xarici işlər naziri Hakan Fidan Antalya Diplomatik Forumundakı çıxışında səsləndirib. H.Fidan məsələyə Azərbaycan–Ermənistan münasibətlərindən söz açarkən toxunub.**



XİN rəhbərinin bu yanaşması Türkiyənin Zəngəzur dəhlizini dolayısı ilə həm də Ankara–İrəvan normallaşması baxımından vacib amil kimi irəli sürməsidir. Əlbəttə, Fidan bu baxımdan yeni şərt irəli sürmür. Bəs onun məqsədi nədir, bu barədə sonda söz açacağıq. Hələlik isə...

Ondan başlayaq ki, Ermənistan rəsmiləri və hakim komandaya yaxın şəxslər son günlər Türkiyə ilə münasibətlər barədə kifayət qədər çox danışır, müxtəlif mətləbləri vurğulayırlar. Məsələn, ölkənin xarici işlər nazirinin müavini Vahan Kostanyan bir neçə gün əvvəlki açıqlamasında ölkəsinin Türkiyə ilə sərhədlərin açılmasına və ikitərəfli münasibətlərin inkişafına hazır olduğunu bəyan edib: – “Biz həm siyasi, həm də texniki baxımdan hazırıq, bütün zəruri infrastruktur yaradılıb, qərar Türkiyənindir”, - deyən Kostanyan Türkiyə–Ermənistan normallaşmasında nəzərəçarpacaq irəliləyişin olduğunu vurğulayıb və bildirib ki, proses yalnız xarici siyasət qurumları səviyyəsindəki təmaslarla məhdudlaşmır. Onun sözlərinə görə, dialoq həm liderlər səviyyəsində, həm də müxtəlif nazirliklər arasında inkişaf edir ki, bu da qarşılıqlı əlaqələrin daha geniş formata keçdiyini göstərir. Kostanyan mövzu ətrafında söz açarkən, bir məqamı da dilə gətirib: “Azərbaycan ilə münasibətlər tənzimləndikdən sonra İrəvan regionda iqtisadi əməkdaşlığın və ticarətin inkişafına xüsusi diqqət yetirir”.

H.Fidan isə sözügedən forumdakı çıxışında, həmçinin regionda münaqişələrin tənzimlənməsinin vacibliyinə diqqət çəkib və Ermənistanla Azərbaycan arasında münasibətlərin nizamlanmasını “diplomatik model” adlandırıb. Onun sözlərinə görə, Türkiyə Cənubi Qafqazda barış mühitinin qərarlaşması üçün ciddi səylər göstərir. Ən başlıcası, qardaş ölkənin XİN rəhbəri Vaşinqtonda əldə olunmuş razılaşmadan, yəni ötən il avqustun 8-də Bakı və İrəvan arasında Birgə Bəyannamənin imzalamasından, habelə sülh müqaviləsinin paraflanmasından sonra məntiqi nəticəyə çatmaq üçün cəmi bir-iki addımın qaldığını vurğulayıb.

“Biz görürük ki, hər iki tərəf səmimidir. Azərbaycan tərəfindən imzalanacaq sülh müqaviləsi region xalqları üçün mühüm sabitliyə yol açacaq”, - deyən Fidan onu da bildirib ki, yekun barış sazişinin ərsəyə gəlməsi və Ermənistan–Türkiyə, eləcə də Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması ilə iqtisadi və enerji təhlükəsizliyi sahəsində çox ciddi nəticələr gözlənilir: “Bu məsələ ilə bağlı Avropa İttifaqı ilə sıx təmasdayıq. Sülh sazişi imzalanan kimi regionda böyük və müsbət inkişaf baş verəcək”.

Bu arada Ermənistanın Baş naziri Nikol Paşinyan da ölkəsinin Türkiyə ilə münasibətlərindən söz açıb. O bildirib ki, Türkiyə aviaşirkətlərinin Gümrü hava limanına uçuşlara başlamasını gözləyir. Baş nazirin diqqət yetirdiyi vacib məqamlardan biri də budur: “Ermənistan, Türkiyə və Azərbaycan rəsmiləri arasında işçi əlaqələr tədricən sülh müqaviləsinin imzalanmasına doğru gündəlik diplomatik praktika formatına keçir”.

Qeyd edək ki, Paşinyan açıqlamasında erməni ictimaiyyətini ölkəsinin Ankara və Bakı ilə təmaslarını təbii iş prosesi kimi qəbul etməyə çağırıb. Bilavasitə Ermənistan–Türkiyə sərhədinin açılmasından və Azərbaycanla sülh sazişinin imzalanması perspektivlərindən danışan baş nazir vurğulayıb ki, məsələ yalnız qarşılıqlı təmasların həyata keçirilmə müddətlərindən asılıdır və rəsmi İrəvan prosesin sürətləndirilməsi üçün maksimum səylər göstərir.

Haşiyə çıxaq ki, Ermənistan–Türkiyə münasibətlərinin normallaşdırılması prosesi 2021-ci ilin sonunda iki ölkənin xüsusi nümayəndələrinin – Ermənistan Parlamentinin vitse-spikeri Ruben Rubinyanın və təcrübəli diplomat Serdar Kılıçın təyin olunması ilə başlayıb. Bir sıra ikitərəfli danışıqlar nəticəsində 2022-ci ilin əvvəlində İrəvan ilə İstanbul arasında birbaşa kommersiya sərnişin reysləri bərpa olunub, 2023-cü ilin yanvarında isə Türkiyə Ermənistanla birbaşa yük-hava daşımalarına qoyulan qadağanı rəsmi olaraq aradan qaldırıb. Bundan əlavə, humanitar presedent də yaranıb: 2023-cü ilin fevralında Türkiyədə baş vermiş dağıdıcı zəlzələdən sonra 1993-cü ildən bağlı olan quru sərhədi erməni humanitar yardım karvanlarının keçidi üçün açılıb.

Onu da bildirək ki, əldə olunan uğurlara baxmayaraq, bir sıra mühüm razılaşmalar hələ də praktiki icrasını gözləyir. Onlardan ən vacibi 2022-ci ilin yayında əldə edilmiş — üçüncü ölkə vətəndaşları və diplomatik pasport sahibləri üçün quru sərhədin açılması ilə bağlıdır. Digər tərəfdən, Ermənistan tərəfi Marqara keçid məntəqəsinin modernləşdirilməsi və texniki təchizatını tam başa çatdırıb. Türkiyə tərəfi öz hissəsində infrastruktur işlərinə başlayıb. Həmçinin Ani körpüsünun birgə bərpası layihəsi texniki və sənədləşmə mərhələsindədir.

Bəli, Ermənistanın hakimiyyət təmsilçilərinin açıqlamaları da Türkiyə–Ermənistan normallaşmasının Azərbaycan–Ermənistan münasibətlərindən asılılıq fazasını göstərir. Hərçənd, rəsmi İrəvanın zaman-zaman bu iki məsələni bir-birindən ayrı tutmağa çalışdığını görmüşük. H.Fidan isə öz növbəsində Zəngəzur dəhlizi məntiqini qabartmaqla, habelə Türkiyə–Ermənistan yaxınlaşmasının ümumən sülh və sabitlik kontekstində qiymətləndirilən proses olduğunu deməklə bağlılığı bir daha təsdiqləyib.

Bu yerdə bir vacib məqamı da vurğulayaq. Diqqət yetirmisinizsə, H.Fidan regional məsələlər barədə fikir yürüdərkən, artıq neçənci dəfədir məhz Zəngəzur dəhlizi məntiqini qabardır. Yəni o, “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu” və ya qısaca TRIPP deyil, bilavasitə dəhliz ifadəsini işlədir. Deməli, Ankara əsas məğzi başlıca mahiyyət kimi gördüyünü təsdiqləyir. Hesab edirik ki, belə yanaşma özündə regional gündəmin fazasını kənar təsirlərdən qorumaq immunitetini daşıyır və Ermənistana mesaj yüklüdür. Mesaj konkret olaraq budur: Zəngəzur dəhlizinin TRIPP adlandırılması və mövcud müstəvidə ABŞ-ın beynəlxalq vasitəçilik qiyafəsi, heç bir halda, fərqli siyasi interpretasiyalara yol aça bilməz.

Başqa sözlə desək, reallıq bir təbiətə malikdir və ondan irəli gələnlərin gerçəkləşməsi mütləq və prinsipialdır. O cümlədən Zəngəzur dəhlizi də necə adlandırılmasından asılı olmayaraq, sülhün başlıca simgəsi olaraq gerçəyə çevrilməlidir. O sülhün ki, indiki halda ondan Türkiyə–Ermənistan normallaşmasının asılılığını vurğuladıq.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Qansız-xatasız zəfər”dən 2 il ötür

*(əvvəli 1-ci səhifədə)*



Prosesin hərbi-strateji əhəmiyyəti ilə yanaşı, onun mənəvi tərəfi də dərindir. Xüsusən Bağanis Ayrım kəndinin başına gələn müsibətlərə baxdıqda bunu daha aydın görmək olar. 1990-cı il martın 23-dən 24-nə keçən gecə işğal edilən bu kənd Birinci Qarabağ müharibəsinin ilk qurbanı, yandırılan ilk kənd idi. Orada mülki əhaliyə qarşı törədilən vəhşiliklər Azərbaycan xalqının yaddaşında dərin iz buraxmışdı. Aşağı Əskiparanın isə qədim Albaniya dövrünə aid abidələri, Xeyrimli və Qızılhacılının mühüm yüksəkliklərdə yerləşən mövqeləri 30 ildən artıq idi ki, Ermənistanın hərbi forpostu kimi istifadə olunurdu. Lakin Prezident İlham Əliyevin 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına verdiyi müsahibədə qeyri-anklav kəndlərin qeyd-şərtsiz qaytarılması ilə bağlı qoyduğu kəskin tələb Bakının bu məsələdə kompromisə getməyəcəyini göstərdi və cəmi 3 ay sonra Ermənistan hakimiyyəti beynəlxalq birliyin gözü qarşısında bu tələbi yerinə yetirdi.

Bu gün həmin kəndlərdə həyat təhlükəsizlik tədbirləri və infrastrukturun bərpası üzərində qurulub. Ərazi mülki yaşayış üçün hələlik qapalıdır, çünki əsas fəaliyyət minaların təmizlənməsi və dağılmış kommunikasiya xətlərinin bərpasına yönəlib. Dövlət Sərhəd Xidmətinin bölmələri müəyyən olunmuş xətt boyunca dislokasiya olunaraq mühafizə zolağını formalaşdırıblar. Aprelin 16-da Ermənistan silahlı qüvvələri Qazax rayonunun Bağanıs Ayrım kəndi ilə Ermənistanın Bağanis və Voskepar kəndləri istiqamətində yerləşən 5 döyüş postunu Azərbaycan tərəfinə təhvil verib. Paralel olaraq, mühəndis qrupları kəndlərarası yolların çəkilməsi və elektrik enerjisinin verilməsi üçün texniki qiymətləndirmə işləri aparırlar. Qısası, kəndlərdə gündəlik fəaliyyət sakinlərin qayıdışına qədər zəruri olan ilkin şəraitin yaradılması və ərazinin tam təhlükəsiz hala gətirilməsindən ibarətdir.

* * *

Hazırda gündəmdə olan və hələ də həllini gözləyən əsas məsələ qalan 4 kəndin — Qazaxın Yuxarı Əskipara, Bərxudarlı, Sofulu və Naxçıvanın Kərki kəndlərinin statusudur. Kərki kəndinin strateji çəkisi hər kəsə bəllidir. Ermənistanın şimalını cənubu ilə birləşdirən və İrana çıxışı təmin edən əsas magistral yolun bir hissəsi məhz bu kəndin ərazisindən keçir. Eyni vəziyyət Yuxarı Əskipara üçün də keçərlidir ki, burada da Ermənistanın Gürcüstanla əlaqəsini təmin edən mühüm kommunikasiya xətləri mövcuddur. Bu eksklavların qaytarılması texniki baxımdan daha mürəkkəbdir. Çünki bu plan ya tərəflər arasında ərazi mübadiləsini, ya da xüsusi nəqliyyat dəhlizlərinin yaradılmasını tələb edir.

Qazaxın hələ də qaytarılmayan üç kəndindən ikisi – Sofulu və Bərxudarlı nəqliyyat baxımından strateji mövqedə yerləşməklə yanaşı, real daşıma potensialına sahibdir və bu potensialın reallaşması Azərbaycan–Ermənistan xəttində son dövrlər müşahidə olunan məhdud ticarət axınlarının daha sürətli və ucuz formada təşkilinə şərait yarada bilər. İlkin texniki qiymətləndirmələr göstərir ki, Qazaxdan bu kəndlərə qədər olan 14–18 kilometrlik məsafədə avtomobil və dəmir yolu infrastrukturunun bərpası həyata keçirilərsə, illik yüz minlərlə ton yük dövriyyəsini qəbul etmək mümkündür. Bu, xüsusilə marşrutun qısalması fonunda əhəmiyyətlidir. Çünki məsafənin azalması nəticəsində yükdaşımada yanacaq və vaxt xərclərinin orta hesabla 10–20 faiz azalması, multimodal model tətbiq ediləcəyi təqdirdə isə ümumi logistika xərclərinin 20–40 faizə qədər ucuzlaşması potensialı yaranır.

Mövcud reallıqlar prizmasından baxdıqda görürük ki, rəsmi Bakı bu düyünü açmaq üçün tələsmədən, addım-addım irəliləyir. Qeyri-anklav 4 kəndin qaytarılması bir növ presedent rolunu oynadı və sübut etdi ki, rəsmi Bakı ərazi bütövlüyünü təmin etmək üçün bütün rıçaqlara sahibdir. Hazırda sərhəd komissiyaları səviyyəsində müzakirələr davam edir və Azərbaycanın mövqeyi birmənalıdır: bütün eksklav torpaqlar gec-tez suveren nəzarətimizə keçməlidir. Bu ərazilərdə minaların təmizlənməsi, yeni yolların layihələndirilməsi və "Böyük Qayıdış" proqramı çərçivəsində infrastrukturun qurulması artıq perspektiv planlardan real fəaliyyətə keçib.

Nəticə olaraq, Qazaxın 4 kəndinin geri qaytarılması sərhəd prosesində həm siyasi, həm də praktik baxımdan dönüş nöqtəsi oldu və bu addım göstərdi ki, uzun illər dondurulmuş məsələlər artıq mərhələli şəkildə real icra müstəvisinə keçir. Hazırda həmin ərazilərdə əsas diqqət təhlükəsizlik infrastrukturunun qurulmasına, mina riskinin aradan qaldırılmasına və həyatın tədricən bərpasına yönəlib. Eyni zamanda, qalan anklav kəndlər üzrə müzakirələr gündəmdə qalmaqla prosesin davamlı xarakter daşıdığını göstərir. Ümumi mənzərə ondan ibarətdir ki, sərhəd xətti artıq yalnız xəritə üzərində deyil, faktiki idarəetmə və nəzarət mexanizmləri ilə formalaşır və bu proses addım-addım yekunlaşma mərhələsinə doğru irəliləyir.

***T.ARAZOĞLU***
***XQ***

**Dünyamız hazırda xaos, qütbləşmə və qeyri-müəyyənlik mərhələsindədir. Müxtəlif coğrafiyalarda alovlanan yeni gərginlik ocaqları qlobal sülh arxitekturasının nə dərəcədə həssas olduğunu göstərir. Bu proseslər onilliklər ərzində formalaşmış nizamın və əldə edilmiş nailiyyətlərin nə qədər kövrək olduğunu və asanlıqla qırılma nöqtəsinə gələ biləcəyini nümayiş etdirir. Belə bir fonda Cənubi Qafqaz müsbət transformasiya tempinə görə dünyada unikal mövqeyə malikdir. Bölgədə qarşılıqlı əlaqələr dərinləşir və demək olar ki, bütün sahələrdə inkişaf dinamikası özünü aydın şəkildə büruzə verir.**

# Azərbaycan Cənubi Qafqazda sabitliyin lokomotividir

*Ölkəmizin regionda gündəm yaratma missiyası*

Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) 82-ci sessiya iştirakçılarına ünvanladığı müraciətində yer alan tezislər bu aspektdə həm beynəlxalq təhlükəsizlik mühitinin dəqiq diaqnostikası, həm də regionda formalaşan postmünaqişə reallıqlarının beynəlxalq ictimaiyyətə təqdimatı baxımından konseptual əhəmiyyət kəsb edir. Bu gün ölkəmizin COP29, WUF13 və UNESCAP kimi mötəbər tədbirlərə ev sahibliyi etməsi və qlobal çağırışları gündəmə gətirməsi Azərbaycanın beynəlxalq arenada artıq “gündəm istehlakçısı” mövqeyindən çıxaraq, birbaşa “gündəm formalaşdırıcısı” statusuna yüksəldiyini sübut edir. Dövlət başçısının uzaqgörən xarici siyasət kursu Cənubi Qafqazın regional nüfuzunu daha da möhkəmləndirir. Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Prezident İlham Əliyev haqqında ötən il səsləndirdiyi fikir bu reallığın əyani təsdiqidir: “Siz regionda fərqli bir Lidersiniz və bizim üçün də nümunəsiniz”. Buradan daha aydın olur ki, Cənubi Qafqazda balanslı siyasəti qoruyub saxlayan rəsmi Bakı regionun digər ölkələri üçün də uğurlu sabitlik və tərəfdaşlıq presedenti yaradır.



* * *

Azərbaycan Prezidentinin sessiya iştirakçılarına müraciətində yer alan fundamental tezislərdən birincisi qlobal təhlükəsizliyin kövrəkliyi fonunda beynəlxalq hüququn aliliyinin təmin edilməsi imperatividir. Hazırda dünya miqyasında cərəyan edən təhlükəli proseslər sübut edir ki, beynəlxalq hüquq normalarının ikili standartlardan uzaq, universal və bərabər tətbiqi bəşəri sabitliyin yeganə qarantıdır. Təəssüflər olsun ki, dünyanın ən ali institutu hesab olunan Birləşmiş Millətlər Təşkilatı (BMT) bu gün bir çox hallarda böhranların qarşısını sadəcə “qınamaqla”, əldə olunmuş nailiyyətləri isə yalnız “təbrik etməklə” kifayətlənir. Təşkilat hələ də ötən əsrin reallıqlarına əsaslanan qaydalarla “gün keçirir” və dünyanı sanki 5 daimi üzvün maraqları ətrafında cəmləşmiş dövlətlərdən ibarət hesab edir. Bu yanaşma XXI əsrdə münaqişə ocaqlarının söndürülməsinə xidmət etmək əvəzinə, məhz həmin ölkələrin “veto” siyasəti və maraqların toqquşması səbəbindən böhranların həllini daha da çətinləşdirir.

Bu xüsusda, ölkə başçısının müraciətdə qeyd etdiyi kimi, Azərbaycanın dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə sarsılmaz sadiqliyi dövlətin varlıq fəlsəfəsinə çevrilib. Azərbaycan özünün ərazi bütövlüyünü və suverenliyini hərbi-siyasi yolla tam bərpa etməklə beynəlxalq hüququn icrasını təkbaşına təmin etmiş dövlət olaraq ali tribunalarda bu prinsiplərin qorunmasının vacibliyini ardıcıl olaraq diqqətə çatdırır. Genişlənən münaqişələr fonunda dövlətlərin daxili işlərinə qarışmamaq və sərhədlərin toxunulmazlığı prinsiplərinə qeyd-şərtsiz hörmət beynəlxalq nizamın iflasdan xilası üçün alternativsiz yoldur.

* * *

Yazının əvvəlinə qayıdaraq bir daha qeyd edək ki, hazırda qlobal təbəddülatlarla müqayisədə Cənubi Qafqaz dərin transformasiya dövrünü yaşayır. Otuz illik işğalın və münaqişənin başa çatması ilə regionda dağıdıcı qarşıdurma erası bitib, onun yerini konstruktiv və inkişafyönümlü yeni arxitektura tutub. Ölkəmiz hərbi müstəvidə mütləq qalib tərəf olmasına baxmayaraq, tərəddüd etmədən Ermənistanla sülh gündəliyinin təşəbbüskarı kimi çıxış edərək regionun gələcəyini dinc-yanaşı yaşamaqda gördüyünü nümayiş etdirir. Bu gün irəli sürülən sülh təşəbbüsləri abstrakt xarakter daşımır və artıq real nəticələr verir. Biz bu prosesin praktiki bəhrələrini tədricən bir çox sahədə görməyə başlayırıq.

Şübhəsiz ki, sülh gündəliyinin dayanıqlılığını təmin edən əsas sütunlar qarşılıqlı etimad mühitinin yaradılması və praqmatik iqtisadi addımlardır. Dövlət başçısının müraciətində vurğulanan Azərbaycan və Ermənistan arasında ticarət münasibətlərinin perspektivləri, habelə rəsmi İrəvan üçün tranzit çıxışı imkanlarının yaradılması regionun iqtisadi potensialının tam bərpasına xidmət edir. Şərq–Qərb və Şimal–Cənub dəhlizlərinin kəsişməsində yerləşən Cənubi Qafqazda kommunikasiyaların bərpası onilliklər boyu təcriddə qalmış Ermənistan üçün iqtisadi dirçəliş baxımından həlledici fürsətdir. Bu xüsusda, Azərbaycan və Ermənistan arasında birbaşa idxal-ixrac əməliyyatlarının bərpası postmünaqişə dövründə iqtisadi sülhün təməl daşlarından biri hesab olunur. Statistik göstəricilər artıq bu istiqamətdə real hərəkətliliyin başladığını təsdiqləyir. Cari ilin yanvar-mart ayları ərzində Azərbaycandan Ermənistana 5,758 milyon ABŞ dolları dəyərində məhsul ixrac edilib. Yaxın gələcəkdə Ermənistandan da Azərbaycana müəyyən məhsulların ixracının həyata keçirilməsi planlaşdırılır və bu istiqamətdə artıq ilk addımlar atılır. Digər tərəfdən regional kommunikasiyaların, xüsusilə də TRIPP kimi strateji layihənin gələcəkdə reallaşması hər iki ölkənin iqtisadiyyatı üçün daha səmərəli və ucuz logistik pəncərələrin açılmasına şərait yaradacaq. Bu infrastruktur layihəsi ticarət əlaqələrini həm lokal, həm də qlobal logistik zəncirə inteqrasiya edərək Cənubi Qafqazın tranzit əhəmiyyətini keyfiyyətcə yeni mərhələyə yüksəldəcək.

Təbii ki, mövcud sülh gündəliyinin ən həssas və vacib tərəflərindən biri ictimai rəyin sülhə hazırlanmasıdır. Vətəndaş cəmiyyəti nümayəndələrinin dialoqu və qarşılıqlı etimadın formalaşdırılması siyasi razılaşmaların cəmiyyətlər tərəfindən həzm edilməsi və dəstəklənməsi üçün həlledici şərtdir. Rəsmi diplomatik danışıqlarla paralel aparılan vətəndaş cəmiyyəti təmasları sülhün geriyədönməz xarakter almasını sığortalayan mexanizmdir.

Nəticə etibarilə, Prezident İlham Əliyevin BMT-nin UNESCAP sessiyasına ünvanladığı müraciət Azərbaycanın müasir beynəlxalq sistemdəki rolunu dəqiq müəyyən etməyə imkan verir. Ölkəmiz Cənubi Qafqazın aparıcı gücü kimi regional sabitliyin lokomotivi funksiyasını yerinə yetirir və qlobal miqyasda qütbləşmənin dərinləşdiyi bir dövrdə əməkdaşlıq, beynəlxalq hüquqa hörmət və inteqrasiya modelini irəli sürür.

***Tacir SADIQOV***
***XQ***

# Siyasət və süni intellekt



## I MƏQALƏ

### "Kosmotexnisizm"

Fəlsəfədə belə bir qəribə anlayış daxil ediblər. "Kosmotexnisizm" bütövlükdə dünyaya yeni texnologiyaların mahiyyətinə vardığı qlobal dünyanı ifadə etmək üçündür. Yəni hesab edirlər ki, artıq prinsipcə bəşər övladı özünü, yaşadığı cəmiyyəti, ölkəni və Kosmosu özünün yaratdığı texniki xarakterli "varlıqlar" vasitəsilə "görə bilər". Əbəttə, xeyli yayğın və mücərrəd yanaşmadır (müəllifi Cənubi Koreya filosofu Yak Hueydir). Ancaq burada hər bir ölkə üçün düşündürücü olan bir məqam vardır.

İndi insanların böyük əksəriyyətinin adi məişət və iş həyatında kompüterlər, informasiya texnologiyaları (müxtəlif növ və ünsiyyət hüdudu olan telefonlar, smartfonlar və s.) və süni intellektin fərqli növləri (robotlar, kobotlar, kiborqlar, ChatGPT-lar, kreatorlar və s.) getdikcə daha fundamental anlamlarda yer tutmağa başlamışlar. Hətta gənclər arasında elə kəsimlər var ki, vurğulanan süni qurğular olmadan yaşamağı "geridə qalmışlıq" və "nadanlıq" kimi qəbul edirlər.

Təbii ki, bu proses insanın öz varlığı, yaşadığı cəmiyyətin kimliyi və bütövlükdə dünyanı qavramasında ciddi dəyişikliklər edir. Sanki insan özü hiss etmədən ekzistensiyasını yeni texniki qurğuların prizmasında və əhatəsində dərk edə bilir. O, ayrıca varlıq kimi düşünmək şansını getdikcə itirmiş kimi görünür.

Belə gedişat, şübhə yoxdur ki, insanın yaradıcılıq xüsusiyyətlərinə, onun aldığı nəticələrin xarakterinə və funksiyasına, dünya haqqındakı fikirlərinə böyük təsir edir. Hiss etmədən insan dünyaya bu "süni yeniliklər prizmasında" baxmağa məcbur qalır. Onun başqa yolu yoxdur – dünya texnika və texnologiyanın "gözü" ilə "dünyalaşır". Buna görə də "kosmotexnisizm" heç də mənasız və məzmunsuz bir anlayış deyildir. O başqa məsələdir ki, həmin gedişat qlobal dünya və Kosmosu gələcəkdə necə görə biləcəyimizə aparıb çıxaracaq.

İnsan bu barədə də ciddi düşünür və artıq bir çox ümumi anlayışlar da daxil etmişdir. Məsələn, "Böyük Antropoloji keçid", "sinqulyarlıq nöqtəsi", "təbii və süni intellektin simbioz dünyası", "robotların hökmranlığı dövrü" və s.

Bütün bunların fonunda hazırda gündəlik fərdi və sosial həyatda, daxili siyasətdə və xarici siyasətdə, beynəlxalq münasibətlərdə əhəmiyyətli yer tutan süni intellektin mümkün təsirlərinin nəticələri üzərində düşünmək zərurəti qarşıya çıxır. Belə demək mümkündür ki, bu artıq hansısa seçim deyildir, bir reallıqdır.

### Təbii, yaxud süni reallıq?

Məsələnin maraqlı tərəfi də bu məqamla bağlıdır – necə reallıqdır? Onu nə tam təbii, nə də tam süni reallıq adlandırmaq olmur. Hər iki aspekt vardır. Üstəlik, təbiiliklə sünilik bir-biri ilə sıx qarşılıqlı əlaqədədirlər. Məsələn, fundamental elmi tədqiqatlarda süni intellekt olmadan keçinmək hardasa imkansız hala gəlmişdir. Hərbi texnikanın substantiv və funksional inkişafını yeni informasiya-kommunikasiya texnologiyaları və süni intellektsiz təsəvvür etmək mümkün deyildir. Strateqlər indi hərbi əməliyyatlarda süni intellekt təhlükəsini, onların insandan asılı olmayan idarəetmə imkanlarını dərindən anlamağa çalışırlar. Məşhur Henri Kissincer də həyatının son illərində belə qənaətə gəlmişdi: süni intellekt bütövlükdə bəşəriyyət və Kosmos üçün ciddi risklər yaratmağa başlamışdır. Dronların kollektiv fəaliyyəti və bir sıra hallarda avtonom əmrlərə tabe olması nəzarətdən çıxa bilən hadisə kimi qiymətləndirilməkdədir. Burada tibbin də nailiyyətlərini nəzərə almaq lazımdır.

### Ölümsüzlük mümkündürmü?

Belə ki, indi nanomiqyasda elə tibbi əməliyyatlar edir, yeni kəşflərə imza atırlar ki, insanın özü-özünün genetik quruluşunu dəyişə bilmək imkanı meydana gəlmişdir. Kimya üzrə 2020-ci il Nobel mükafatı laureatları Cenifer Daudna və Emmanuel Şarpantye CRISPR/Cas9 genomunu redaktə etməyi (buna "molekulyar qayçı" texnologiyası da deyirlər) bacarmaqla tibb və biologiyada yeni mərhələnin başlanğıcını qoymuşlar. Onların kəşfi canlı varlığı gen miqyasında keyfiyyətcə dəyişməyə imkan verir. Məsələn, canlıların rəngləri dəyişir, bütövlükdə yeni görünüş ala bilir və ya insan QİÇS-ə yoluxmur. Lakin bu nailiyyətdən neqativ istifadə üçün də istifadə edə bilərlər. Buna görə də CRISPR/Cas9-dan istifadə qanunla məhdudlaşdırılmışdır. Hətta bir çinli alim ana bətnində olan qız uşağında QİÇS-ə heç zaman yoluxmayacağını göstərən gen dəyişikliyi etdiyinə görə həm külli miqdarda cərimələmiş, həm də həbsə atılmışdır. Nədən ehtiyat edirlər?

Məsələ xeyli dərəcədə məhz siyasətlə bağlıdır. Heç kəs zəmanət verə bilməz ki, elmin süni intellekt və nanomiqyasdakı nailiyyətlərindən hansısa hökumət və ya sistemxaric dairələr xüsusi məqsədlə istifadə etməyəcək. Deyək ki, "ölümsüz kiborqlar" yaradıb, onu hədəf seçilən ölkəyə yeritməklə ciddi sosial, mədəni, ekzistensial, mənəvi-əxlaqi, idarəetmə və digər problemlər yaratmaq fikrinə düşənlərin meydana gəlməsi istisna deyildir. İndi bir sıra siyasi və elmi dairələrdə pandemiyaların xüsusi gen əməliyyatı olduğu haqqında mövqelər KİV-də yayılır.

O cümlədən indi hətta böyük dövlətlərin liderləri belə çox uzun ömürdən və hətta ölümsüzlükdən bəhs edirlər. Təsəvvür edək ki, həmin iddiada olanlardan hansısa ölümsüz olmasa da, daha çox uzun illər yaşamaq şansı əldə etdi. O halda dünyanın aqibəti necə ola bilər? Özünü "ölümsüz" sayan lider dünyanı necə "ölümsüz" etmək xəttini seçəcək? Bu kontekstdə C.Daudna və həmkarının Nobel mükafatı xeyirdir, yoxsa şər?

Əlbəttə, bir elmi yenilik kimi xeyirdir, buna şübhə yoxdur və hansısa liderin "ölümsüzlük" eşqinə düşməsi də alimliyin məsələsi deyildir. Ancaq reallıq var: Eynşteyn dünyada yoxdur, lakin onun məsum elmi kəşfi dünyanı atom bombası ilə hədələməyə cəsarət edənlərə yardımçı olmaqdadır. Məhz bu, siyasətdir! Özlüyündə elm, alim və elmi kəşf antifəzilət deyildir, lakin hər bir konkret dönəmdə bir sıra dairələr bu məsumluğu özlərinin mənfur siyasi məqsədlərinə kölə edirlər! Hələlik bu mərəzdən bəşəriyyət xilas olmamışdır.

Deməli, hələ siyasətlə süni intellektin münasibətlərinin dərinlikləri tam açılmamışdır. Məsələnin Kainat miqyasında müasir anlamı da maraqlıdır.

### Kainat necə yaranmışdır?

Kainatın yaranması mexanizmləri ilə əlaqəli çox düşündürücü və ən yeni elmi nəticələr müxtəlif jurnallarda dərc edilir. Həmin kəşflər göstərir ki, insanın yaradıcı imkanları çox geniş üfüqlərə və dərinliklərə təsir etmək səviyyəsinə çatmışdır. İnsan özünün yaratdığı süni intellekt vasitəsi ilə yaşamın bütün kriteriyalarını dəyişə bilər. Nümunə kimi, keçən il ABŞ alimlərinin ulduzların yaranması ilə bağlı aldıqları son nəticələri dərc etməsini göstərə bilərik. Həmin elmi nəticələrə görə, kosmosda ulduzlar və onların sistemlərinin yaranma mexanizmi ilə canlıların çoxalması oxşardır. Bütövlükdə, kosmosda ulduzlar buta formasında fraktal olaraq (yəni prosesin tərkib hissələri bir-birinə oxşar olur və hər bir hissə tamı fasilələrlə təkrar edir) meydana gəlirlər. Bu, mürəkkəb prosesdir və üzərində geniş dayanmaq bizim üçün çətindir. Onu vurğulayaq ki, alternativ izah istisna deyildir.

Aktual məsələlərdən biri "ən yeni elmi kəşflərdən xüsusi məqsədlərlə yararlanmağa çalışanların uğur qazanması hansı nəticələr verə bilər?" sualına cavab axtarışları ilə bağlıdır. Deyək ki, indi başqa planetlərdə həyat axtarışları intensivləşir. Onun hansı nəticə verməsindən asılı olaraq, ümumiyyətlə, insanın həyat haqqında təsəvvürləri tamamilə dəyişə bilər. Bu prosesin bəşəriyyətə təsiri məsələsinin nəticələri haqqında fikir bildirmək çətindir.

Bütövlükdə, bu cür faktların işığında siyasət və süni intellektin qarşılıqlı təsirləri çox ciddi problem kimi görünür. Yeni texnologiyalar sahəsində çox inkişaf etmiş ölkələrin liderlərinin ala biləcəkləri qərarlar bütövlükdə bəşəriyyətin taleyini müəyyən edə bilərmi? Və bunu öncədən heç kimsə bilməyə bilər! Bu neqativ gedişata hazırıqmı?

Onu vurğulayaq ki, süni intellektlə siyasət arasında iki aspektdə münasibətlər aktualdır. Birincisi, hər bir dövlətin süni intellekt siyasətidir. İkincisi, süni intellektin sosial, ictimai, mədəni, texnoloji və yaradıcı fakt kimi, ümumiyyətlə, ölkənin siyasi kursu fonunda özəlliklərinin dərkidir.

### Dövlətin süni intellekt siyasəti

Adətən siyasətlə süni intelektin münasibətləri dedikdə dövlətin süni intellekt siyasətinin daxili mühitə və beynəlxalq miqyasda ölkənin təsirinin xarakterinə aid məsələləri nəzərdə tuturlar. Daxili mühitə təsir kontekstində, bir qayda olaraq, iqtisadi artımın təmin edilməsi üçün texnologiyaların inkişafının sürətlənməsi, vətəndaşların həyat keyfiyyətlərinin yüksəlməsi və milli təhlükəsizliyin möhkəmlənməsi nəzərdə tutulur. Bunun üçün süni intellektin inkişafının milli strategiyası da hazırlanır. Azərbaycanda həmin sənəd 2025-2028-ci illəri əhatə edir.

Vurğulanan kontekstdə dövlətin siyasəti ilə süni intellektin inkişafının əsas xüsusiyyətləri aşağıdakı müddəalarla bağlı götürülür.

Birincisi, strateji planlaşdırmadır.

İkincisi, tənzimləmə və etikadır (qanunvericilik bazasının yaradılması və süni intellekt etikası).

Üçüncüsü, idarəetməyə tətbiqdir (avtomatlaşdırma, proqnozlaşdırma və s.).

Dördüncüsü, infrastruktur və verilənlərdir (Big Data).

Beşincisi, prioritet istiqamətlərdir (səhiyyə, maliyyə, təhsil və s.).

Altıncısı, beynəlxalq əməkdaşlıqdır (qlobal təşəbbüslərdə iştirak, geosiyasətdə yüksək rəqabətliyi nəzərə almaq və s.).

Altı şərtin kompleks təsiri müxtəlif siyasi məqamları önə çəkir. O cümlədən, süni intellekt sferasında liderlik məsələsi xüsusi aktuallıq alır. Burada bir əlaməti mütəxəssislər həmişə vurğulayırlar.

### ABŞ və "Asiya pələngləri"

Süni intellekt sferasında liderliyi adətən ABŞ və Qərb texnologiyaları ilə əlaqələndirirlər. Son illər isə Asiya ölkələrinin bu prosesdə daha aktiv iştirakı müşahidə edilir.

"Global AI Index"i üzrə 2024-cü il nəticələrində 2 Asiya ölkəsi – Çin və Sinqapur yer almışlar. Cənubi Koreya 6-cı yerdə göstərilmişdir, Hindistan isə ilk 10-luğa daxildir. Belə alınır ki, "Asiya pələngləri" süni intellektin inkişafında qlobal miqyasda getdikcə daha güclü təsir imkanları əldə edirlər. Bu da bütövlükdə həm Asiyada inkişafın tempini artırır, həm də həmin region dövlətlərinin qlobal geosiyasətdə nüfuzu yüksəlir.

Ancaq Asiya ölkələrinin süni intellektin inkişafında fərqli tempə malik olmaları tərəfi də unudulmamalıdır. Müqayisə üçün Sinqapurda iş yerlərinin 40 faizinin süni intellekt texnologiyaları ilə uyğunluq təşkil etdiyi halda, Laosda bu göstərici cəmi 3 faizdir. Bu da özlüyündə Asiya dövlətlərinin siyasəti ilə süni intellekt sferasında rəqabətlilik üstünlükləri arasında nisbəti müəyyən etməkdə çətinlik yaradır.

Burada başlıca məqam ondan ibarətdir ki, ümumi halda dövlətin siyasəti ilə süni intellektin inkişafının beynəlxalq miqyasda rəqabətliliyi arasında əlaqə kifayət qədər ciddi məsələdir.

Ayrıca, bu problemin Azərbaycan üçün vacibliyi yüksək dərəcədədir. Çünki Azərbaycan Cənubi Qafqazda bütün sferalarda çox aktiv addımlar atır. Buna görə də Azərbaycanda süni intellektlə dövlət siyasəti arasında nisbət milli ilə yanaşı, regional əhəmiyyət kəsb edir. O cümlədən, dövlət siyasəti – süni intellekt münasibətləri kontekstində əhəmiyyəti olan "əsaslandırılmamış informasiya" və ya "etibarsız, təsdiqlənməmiş informasiya ("misinformation") və "dezinformasiya"nın ("disinformation") mənə fərqlərinin elmi izahı daha da aktual görünür. Bu məqam üzərində geniş dayanmaq lazım gəlir.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Azərbaycanın xarici siyasətində Gürcüstanla münasibətlər, sadəcə, mehriban qonşuluq əlaqələri deyil, həm də regional təhlükəsizliyin təminində və qlobal iqtisadi layihələrin icrasında həlledici rol oynayan strateji müttəfiqlikdir. Bu tərəfdaşlıq illər keçdikcə daha da dərinləşərək, paytaxtlar səviyyəsindən regional müstəviyə uğurla inteqrasiya olunub.**

Bu günlərdə Azərbaycanın Batumidəki Baş konsulu Fuad Əzizovun Acarıstan Muxtar Respublikası Ali Şurasının yeni seçilmiş sədri Tsotne Ananidze ilə keçirdiyi görüş sözügedən dinamikanın növbəti bariz təzahürüdür. Görüşdə həm parlamentlərarası, həm də bölgələr arasındakı iqtisadi-humanitar əlaqələrin dərinləşdirilməsinin prioritet istiqamət kimi müəyyən edilməsi ölkəmizin diplomatik nümayəndəliyinin ərazidəki aktiv siyasi rolunu təsdiqləyir.

İki ölkənin regionları arasında əməkdaşlığın inkişafında strateji qovşaq rolunu oynayan bu diplomatik mərkəz Azərbaycanın Cənubi Qafqaz və Qara dəniz regionunda artan nüfuzunun rəmzi kimi çıxış edir. Diplomatik missiyamız ölkəmizin maraqlarını Gürcüstanın qərb rayonlarında – Acarıstan, Quriya və İmeretidə yüksək səviyyədə təmsil etməklə tərəflər arasındakı dialoqun çevikliyini təmin edir. Xüsusilə regional müstəvidə separatizm təhdidlərinə qarşı vahid mövqedən çıxış etmək və ərazi bütövlüyü prinsiplərini qarşılıqlı dəstəkləmək baxımından bu siyasi koordinasiyanın rolu əvəzsizdir. Bu fəaliyyət, eyni zamanda, Azərbaycanın qonşu dövlətin daxili sabitliyinə və davamlı inkişafına verdiyi strateji önəmin göstəricisidir.

# Bakı – Tbilisi: paytaxtlardan regiona uzanan nizam

## *Acarıstan – Naxçıvan xətti əməkdaşlığın submilli modelidir*



Cənubi Qafqazın müasir siyasi mənzərəsində diqqətçəkən əsas tendensiyalardan biri də məhz Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında formalaşan "submilli diplomatiya" modelidir. Ekspert dairələrində böyük maraqla qarşılanan bu əməkdaşlıq formatı submilli subyektlərin beynəlxalq münasibətlər sistemində daha fəal rol oynaya biləcəyini və strateji tərəfdaşlığı regional səviyyədə dərinləşdirdiyini nümayiş etdirir. Bu model təkcə siyasi bəyanatlarla deyil, həm də konkret layihələrlə dəstəklənir.

Bu ümumi fon daxilində Naxçıvan və Acarıstan arasında əlaqələr daha konkret və praktik məzmun kəsb edir. İlbəil genişlənən münasibətlər ticari-iqtisadi, səhiyyə və təhsil sahələrində ciddi potensial ortaya qoyur. Batumi Dövlət Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında qurulan əməkdaşlıq, elmi-tədqiqat işləri və tələbə mübadiləsi proqramları təhsil sahəsində davamlı əlaqələrin formalaşmasına zəmin yaradır. Bununla yanaşı, səhiyyə sahəsində həyata keçirilən təşəbbüslər, o cümlədən Acarıstandan olan uşaqların Naxçıvanın unikal təbii müalicə mərkəzlərində (Duzdağ Fizioterapiya Mərkəzi) şəfa tapması humanitar əməkdaşlığın konkret təzahürüdür. Nəqliyyat sahəsində isə Naxçıvan və Batumi arasında nəqliyyat əlaqəsi regionlararası inteqrasiyanı gücləndirir, sosial və mədəni əlaqələrin intensivləşməsinə, qarşılıqlı turist axınının artmasına səbəb olur.

Mədəni-humanitar sahədə də regional əməkdaşlıq yüksələn xətt üzrə inkişaf edir. Diplomatik nümayəndəliyimiz Azərbaycanın "yumşaq güc" strategiyasının əsas icraçısı kimi çıxış edərək, mədəniyyətlərarası dialoqun güclənməsinə töhfə verir. Acarıstanda yaşayan soydaşlarımızın milli kimliyinin qorunması, Azərbaycan dilinin tədrisi və onların yerli cəmiyyətə inteqrasiyası istiqamətində atılan addımlar Bakının regiondakı mənəvi nüfuzunu artırır. Hər il yüz minlərlə azərbaycanlı turistin bu bölgəyə səfər etməsi diplomatik iş yükünü artırmaqla yanaşı, xalqlararası ünsiyyəti dövlət siyasətinin bir hissəsinə çevirir. Batumi Dövlət Universiteti ilə qurulan sıx əlaqələr və mütəmadi keçirilən mədəniyyət günləri Azərbaycanı regionda təkcə enerji ixracatçısı deyil, həm də zəngin sivilizasiya mərkəzi kimi tanıdır.

*

Münasibətlərin praktik əsaslarını göstərən mühüm hadisələrdən biri də Acarıstan istiqamətində həyata keçirilən yüksək səviyyəli işgüzar səfərlərdir. Bu səfərlər zamanı regionun transmilli layihələrdəki rolu, Avropa–Asiya nəqliyyat dəhlizində mühüm qovşaq kimi çıxış etməsi və sənaye, turizm, xidmət sektorunda inkişaf potensialı geniş şəkildə təqdim olunub. Xüsusilə Batumi şəhərinin liman infrastrukturu, dəmir yolu bağlantıları və enerji marşrutları baxımından strateji mövqeyi vurğulanıb. Bu diplomatik missiyalar Azərbaycanın qlobal enerji və nəqliyyat strategiyasının birbaşa icrasına xidmət edir. Deyə bilərik ki, regiondakı Batumi və Poti limanları Azərbaycanın neft, qaz və qeyri-neft məhsullarının Avropaya çatdırılmasında əsas qapı rolunu oynayır. Bu çərçivədə SOCAR-ın irimiqyaslı investisiyalarına, o cümlədən Kulevi terminalının fəaliyyətinə göstərilən diplomatik dəstək mühüm əhəmiyyət kəsb edir. Kulevi Neft Terminalı və Batumi Limanı vasitəsilə həyata keçirilən tranzit əməliyyatları Azərbaycanın enerji müstəqilliyini regional iqtisadi hegemonluğa çevirir.

SOCAR-ın Acarıstan regionundakı aktivliyi, qazlaşdırma layihələri və sosial təşəbbüsləri Azərbaycanın Gürcüstan iqtisadiyyatındakı həlledici payını və humanitar məsuliyyətini göstərir. Proseslərin diplomatik himayəsini təmin etmək iqtisadi maraqların siyasi risklərdən qorunmasında həlledici filtr funksiyasını yerinə yetirir və Orta Dəhlizin təhlükəsizliyini zəmanət altına alır.

**Gürcüstanlı siyasi ekspert Vüqar İsayev** bildirdi ki, konsulluq Azərbaycanın Gürcüstanın qərb regionları ilə, xüsusilə Acarıstanla iqtisadi və humanitar əlaqələrinin koordinasiya mərkəzidir. Bu, "paytaxt diplomatiyası"ndan "regional diplomatiya"ya keçidin praktiki nümunəsidir. Onun fikrincə, Naxçıvan Muxtar Respublikası ilə Acarıstan Muxtar Respublikası arasında əməkdaşlıq



bu modelin mühüm submilli komponentidir və "paradiplomatiya" anlayışına uyğundur. Onun sözlərinə görə, bu əlaqələr regionların təkcə daxili inkişaf aktoru deyil, həm də beynəlxalq münasibətlərdə fəal iştirakçıya çevrildiyini göstərir: "Batumi Port Azərbaycanın Orta Dəhliz strategiyası üçün vacib logistika qapısıdır və Naxçıvan–Batumi istiqamətində formalaşan nəqliyyat əlaqələri regionlararası inteqrasiyanı gücləndirir".

V.İsayev vurğuladı ki, Azərbaycan–Gürcüstan əməkdaşlığı artıq regional təhlükəsizlik və enerji layihələri üzərində qurulmuş sabit sistemə çevrilib: "Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum və Bakı–Tbilisi–Qars layihələri bu strateji xəttin əsas dayaqlarıdır. Humanitar və təhsil sahəsindəki əlaqələr, o cümlədən universitetlərarası əməkdaşlıq və sosial təşəbbüslər bu münasibətlərin yumşaq güc elementini təşkil edir və uzunmüddətli etimad mühitini gücləndirir".

Ümumiyyətlə, geosiyasi nöqteyi-nəzərdən bu əlaqələr Azərbaycan–Gürcüstan–Türkiyə üçtərəfli əməkdaşlıq formatının praktiki tətbiq sahəsidir. Batumidəki diplomatik nümayəndəliyimiz Azərbaycanın Qara dənizdəki geosiyasi varlığını hiss etdirməklə yanaşı, yerli hakimiyyət orqanları ilə birbaşa əlaqələr vasitəsilə operativ informasiya mübadiləsi imkanı yaradır. Bu əlaqələr regionların beynəlxalq münasibətlər sistemində fəallaşmasının göstəricisidir. Naxçıvan–Acarıstan əlaqələri isə Azərbaycan–Gürcüstan strateji tərəfdaşlığının regional səviyyədə ən uğurlu təzahürüdür. Bu model ölkəmizin regiondakı uzunmüddətli strateji üstünlüyünü və iki xalq arasındakı sarsılmaz dostluğu təmin edən fundamental sütundur.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Qlobal iqtisadi enişin ölkəmizə təsirləri

**Beynəlxalq Valyuta Fondunun dərc etdiyi “World Economic Outlook” hesabatı dünyada iqtisadi mühitin yenidən gərginləşdiyini göstərir. Qlobal iqtisadi artım proqnozunun 0,3 faiz aşağıya doğru revisiya edilməsi, eləcə də neft ixrac edən ölkələr üzrə iqtisadi artım proqnozunun 2,6 faiz azaldılması dünya iqtisadiyyatında qeyri-müəyyənliklərin və risk amillərinin artdığını bir daha təsdiqləyir.**

Əsas ssenari üzrə qlobal artım 2026-cı il üçün 3,1 faiz səviyyəsində proqnozlaşdırılır, 2027-ci ildə isə 3,2 faizə yüksəlməsi gözlənilir. Fond eyni zamanda vurğulayır ki, Yaxın Şərqdəki münaqişə enerji və əmtəə qiymətlərini, inflyasiya gözləntilərini və maliyyə şərtlərini sərtləşdirərək qlobal iqtisadiyyatın dayanıqlılığını sınağa çəkir.

Belə bir şəraitdə Azərbaycanın 2026-cı ilin ilk rübündə ÜDM-də 0,3 faiz azalma qeydə alınması, əslində, iqtisadi sistemin zəifləməsindən çox, xarici ağrılı təsirlərin daxili nəticəyə ötürülməsi kimi oxunmalıdır. Dövlət Statistika Komitəsinin açıqladığı rəsmi göstəricilərə əsasən, yanvar-mart aylarında ölkədə 29,703,2 milyon manatlıq ÜDM formalaşıb, sənaye istehsalı 0,2 faiz artıb, pərakəndə ticarət dövriyyəsi 3,7 faiz yüksəlib. Eyni dövrdə neft-qaz sektorunda əlavə dəyərin azalması, qeyri-neft sahələrində isə nisbi artımın davam etməsi iqtisadiyyatın daha çox bir neçə istiqamətə söykənməyə başladığını göstərir.

Daha mühüm məqam ondan ibarətdir ki, qeyri-neft ixracı artım xəttini qoruyur. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin “İxrac icmalı”nın aprel sayına görə 2026-cı ilin yanvar-mart aylarında qeyri-neft sektoru üzrə ixrac 11,7 faiz artaraq 862 milyon dollara çatıb, ərzaq məhsulları üzrə ixrac 25,1 faiz artaraq 281 milyon dollar olub. Yanvar-fevral göstəricilərində də oxşar dinamika müşahidə edilir: qeyri-neft ixracı 19,7 faiz artıb, aqrar ixrac 34,6 faiz, aqrar-sənaye ixracı 22 faiz yüksəlib. Bu rəqəmlər Azərbaycanın ixrac strukturunda bazarların, logistikanın və istehsal zəncirinin tədricən şaxələnməsini də ifadə edir.

*Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri**

Fondun “World Economic Outlook” hesabatında proqnozların aşağı salınması təsadüfi xarakter daşımır. Belə ki, hazırda qlobal enerji bazarlarında ciddi volatillik müşahidə olunur. Digər tərəfdən, qlobal təchizat və logistika zəncirlərində zəifləmə tendensiyası hiss edilir ki, bu da ümumi tələbin azalmasına təsir göstərir. Eyni zamanda, dünya üzrə maliyyə şərtlərinin sərtləşməsi prosesi sürətlənir. Bu amillər, xüsusilə neft ixrac edən ölkələr üçün həm qısamüddətli risklər yaradır, həm də uzunmüddətli struktur çağırışları aktuallaşdırır.

Azərbaycanın mövcud vəziyyəti də bu kontekstdə aydın görünür və artıq statistik göstəricilərdə öz əksini tapır. Neft hasilatının azalması ixrac gəlirlərinə təsir edir və bu, ölkə iqtisadiyyatının hələ də enerji sektorundan müəyyən dərəcədə asılı olduğunu göstərir. Bu baxımdan, yeni inkişaf strategiyası hazırlanarkən risklərin azaldılması məsələsi xüsusi diqqət mərkəzində saxlanılmalıdır.

Hesab edirəm ki, belə bir strategiyada üç əsas istiqamət düzgün müəyyənləşdirilməlidir. İlk növbədə, iqtisadiyyatın şaxələndirilməsi prioritet olmalıdır. Qeyri-neft sektorunun payı real iqtisadi göstəricilərlə artırılmalı, aqrar sahənin inkişafı sürətləndirilməli, emal sənayesi ilə inteqrasiya gücləndirilməlidir. Eyni zamanda, ixracyönümlü məhsul çeşidi genişləndirilməlidir.

İkinci mühüm istiqamət fiskal dayanıqlılığın gücləndirilməsidir. Bu, neft gəlirlərindən asılılığın azaldılması yolu ilə həyata keçirilə bilər. Neft Fondundan transfertlərin optimallaşdırılması, büdcə xərclərinin şəffaflığının artırılması, antisiklik fiskal mexanizmlərin tətbiqi və dövlət borcunun effektiv idarə olunması bu sahədə əsas alətlər kimi çıxış edir.

Üçüncü istiqamət isə insan kapitalının inkişafıdır. Təhsil sistemi əmək bazarının tələblərinə uyğunlaşdırılmalı, innovasiya və yeni texnologiyaların tətbiqi genişləndirilməli, ixtisaslı kadrların hazırlanmasına xüsusi önəm verilməlidir. Rəqəmsal iqtisadiyyatın inkişafı da bu kontekstdə prioritet istiqamətlərdən biri kimi çıxış etməlidir.

Bununla yanaşı, hər bir dövlət proqramının icrasında müəyyən çətinliklərin mövcudluğu da nəzərə alınmalıdır. İcra mexanizmlərinin yetərincə effektiv olmaması, institusional koordinasiyanın zəifliyi və ölçülə bilən nəticələrin çatışmazlığı əsas problemlər sırasındadır. Bu səbəbdən, yeni strategiyada konkret, ölçülə bilən hədəflər müəyyən edilməli, sektorlar üzrə aydın göstəricilər formalaşdırılmalı və güclü monitorinq sistemi qurulmalıdır.

Nəticə etibarilə, strategiyanın hazırlanması zamanı risklərin düzgün qiymətləndirilməsi, qlobal şokların – xüsusilə neft qiymətlərinin dəyişməsi, hasilatın azalması və geosiyasi gərginliklərin təsirlərinin öncədən nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə aparılan dərin təhlillər və sistemli yanaşma ölkənin iqtisadi dayanıqlılığını təmin edən əsas amillərdən biri olacaq.




İqtisadi sabitliyin təkcə istehsalda deyil, institusional mühitdə də qurulduğu görünür. Yeri gəlmişkən, aprelin 10-da keçirilən İqtisadi Şuranın iclasında sahibkarlığın qarşısında duran maneələr, xüsusən tikinti və kommunal infrastruktura qoşulma, eləcə də sənaye sahəsindəki problemlər müzakirə olundu. Bu, dövlətin biznes mühitini yaxşılaşdırmaq üçün reaksiyadan daha çox, qabaqlayıcı idarəetmə xətti seçdiyini göstərir.

Paralel olaraq, Dünya Bankının “Business Ready 2025” hesabatı 101 iqtisadiyyatı əhatə edir. Azərbaycan isə həmin çərçivədə ilk dəfə qiymətləndirilib və Mərkəzi Bankın məlumatına görə, maliyyə xidmətləri komponentində 87,2 bal toplayaraq fərqlənib. Bu, biznes mühitinin rəqabət qabiliyyətini artırmaq üçün islahatların artıq beynəlxalq ölçüdə görünməyə başladığını göstərən əhəmiyyətli siqnaldır.

Azərbaycan iqtisadiyyatı qlobal təzyiqlərdən tam sığortalanmayıb, lakin daxili tələbin, qeyri-neft ixracının, institusional islahatların və investisiya mühitinin hesabına öz dayanıqlılığını qorumağa çalışır. Dünya Bankı 2026-cı il üçün Azərbaycanın iqtisadi artımını 2,0 faiz, IMF isə 2,2 faiz səviyyəsində proqnozlaşdırır. Hər iki göstərici yaxın perspektivdə ehtiyatlı optimizmin əsasını yaradır.

Bu mənzərədə əsas məsələ sürətin özü qədər, bu sürətin keyfiyyətidir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin məcmusu ölkədə sahibkarlığın inkişafını sürətləndirir, biznes mühitinin daha da əlverişli hala gəlməsinə təkan verir və dövlətlə özəl sektor arasında əməkdaşlığın dərinləşməsi üçün geniş imkanlar açır. Paralel olaraq, “Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası” üzərində iş aparılır və həmin sənəddə müəyyən ediləcək prioritetlər iqtisadi yüksəlişin daha keyfiyyətli və dayanıqlı mərhələyə keçidinə zəmin yaradacaq.

***Nurla ABDALOV***
***XQ***

# Atom enerjisinə tələbat zərurətə çevrilir

**Azərbaycanın enerji strategiyasında yeni mərhələ formalaşır. Pərviz Şahbazov Türkiyədə keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində bildirib ki, ölkə enerji balansına nüvə enerjisini də daxil etməyi planlaşdırır. Nazirin sözlərinə görə, Azərbaycan artıq yalnız karbohidrogenlərə əsaslanan modeldən uzaqlaşaraq daha şaxələndirilmiş enerji siyasətinə keçir.**

Bu yanaşmada bərpa olunan enerji mənbələri ilə yanaşı, atom enerjisi də mühüm yer tutur. Elektrik enerjisinə tələbatın sürətlə artması fonunda nüvə enerjisi gələcək balansın vacib komponentlərindən biri kimi nəzərdən keçirilir.

Pərviz Şahbazov əlavə edib ki, yaxın illərdə ölkədə bərpaolunan enerji gücünün 8 QVt-a çatdırılması planlaşdırılır. Bunun təxminən 2 QVt-ı 2027-ci ilə qədər daxili enerji sisteminə inteqrasiya olunacaq, qalan hissəsi isə sonrakı mərhələdə inkişaf etdirilərək ixraca yönəldiləcək. Nazir onu da bildirib ki, gələcək enerji modeli təbii qaz, bərpaolunan mənbələr və nüvə enerjisinin birgə istifadəsinə əsaslanacaq. Onun fikrincə, bu yanaşma həm enerji təhlükəsizliyini təmin edəcək, həm də qlobal enerji keçidinin tələblərinə uyğun olacaq.

Qeyd edək ki, Azərbaycan son illərdə bərpaolunan enerji sahəsində qabaqcıl ölkələr sırasına yüksəlməyi məqsəd olaraq qarşıya qoyub. Ölkənin 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair 5 milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilib. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürüb.

Yeri gəlmişkən, respublikada nüvə energetikasından elektrik enerjisinin alınması ideyası hələ müstəqillik illərindən əvvəl ortaya çıxıb. 1980-ci ildə isə Bakıdan 90 kilometr cənub-şərqdə yerləşən Nəvai yaxınlığında layihə gücü, təxminən 1000 MVt olan AES tikintisinin təməlinin qoyulması həyata keçirilib. Ancaq bu layihənin həyata keçirilməsi Çernobıl faciəsindən sonra isə təxirə salınıb. Azərbaycanın böyük neft və qaz ehtiyatlarına malik olması isə ötən illər ərzində bu məsələnin aktual olmamasına yol açmışdı.

Lakin son illərdə müasir çağırışlar energetika sahəsində də özünü büruzə verib. Artıq bir neçə ildir ki, Azərbaycan öz enerji təminatının dayanıqlılığını möhkəmləndirmək məqsədilə ölkə ərazisində Atom Elektrik Stansiyasının inşası üçün Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA) və digər təşkilatlarla müzakirələr aparır.

Karbohidrogen ehtiyatlarının tükənmə riski artıq həm enerji ixrac edən, həm də idxal edən ölkələrin əsas narahatlıqlarından birinə çevrilib. Bu səbəbdən beynəlxalq səviyyədə alternativ enerji mənbələrinin inkişafına maraq sürətlə artır. İqlim dəyişiklikləri, su ehtiyatlarının azalması və ekoloji amillər xüsusilə su elektrik stansiyalarının imkanlarını məhdudlaşdırır. Bu şəraitdə Azərbaycan da gələcək enerji balansını təmin etmək üçün daha çevik və uzunmüddətli strategiya formalaşdırmağa çalışır.



*Ekspert rəyi*

**Pərviz HEYDƏROV,**
**iqtisadçı-ekspert**



Ölkəmiz neft-qaz, yəni müxtəlif karbohidrogen resurslarına sahib olsa da, buna alternativ, yəni bərpaolunan enerji mənbələrinə də tam olaraq yiyələnmək iddiasındadır. Bu yöndə çox böyük işlər həyata keçirilir. Həmçinin, son illərdə nüvə enerjisindən də istifadə öz aktuallığını qazanıb. Odur ki, nüvə enerjisinə, xüsusilə kiçik modul reaktorlar (SMR) kimi innovativ nüvə texnologiyalarına maraq göstərməyimiz təbiidir və bu artıq, neçə illərdir məlumdur. Çünki bunda təmiz enerji keçid məsələsi ilə zidd təşkil edən heç nə yoxdur.

Bu reaktorlar ənənəvi atom elektrik stansiyaları ilə müqayisədə daha çevik, təhlükəsiz və iqtisadi baxımdan sərfəli hesab olunur. Ümumiyyətlə, nüvə enerjisi çox sərfəlidir. Ölkəmiz Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (AEBA) üzvüdür və agentliyin “Atoms4Netzero” təşəbbüsü çərçivəsində təmiz enerjiyə keçid potensialını 2024-2029-cu illəri əhatə edən “Ölkə üzrə Çərçivə Proqramı” əsasında əməkdaşlıq nəticəsində birgə təhlil edir. Düzdür, bu gün ölkədə heç bir nüvə reaktoru fəaliyyət göstərmir, bu istiqamətdə ancaq elmi araşdırmalar həyata keçirilir. Lakin hesab edirəm həmin gün uzaqda deyil. Çünki ölkəmizin özünün enerji təhlükəsizliyini gündən-günə gücləndirməklə yanaşı bu sahədə kənara verdiyi töhfələr də artır.

Bu isə o deməkdir ki, ölkəmizin özünün də tələbatının durmadan artmaqda olması səbəbindən, həmçinin enerji təhlükəsizliyi sahəsində başqaları üçün də oynadığımız rolun əhəmiyyəti genişlənməkdə olduğundan nüvə enerjisindən istifadə tezliklə zərurətə çevriləcəkdir.

Ekspertlər belə hesab edir ki, perspektiv həll yollarından biri atom enerjisidir. Bu istiqamətdə ölkədə ilkin addımlar artıq atılıb. 2014-cü il 8 may tarixində “Milli Nüvə Tədqiqatları Mərkəzi” QSC yaradılıb. Azərbaycan 2002-ci ildə Atom Enerjisi üzrə Beynəlxalq Agentliyə üzv olub. 2007-ci ildə isə ölkədə tədqiqat nüvə reaktorunun tikintisi ilə bağlı müraciəti qəbul edilib. Bu addımlar nüvə texnologiyalarına keçidin institusional əsasını formalaşdırıb.

Müstəqillik dövründə ölkə əsasən təbii qaz ehtiyatlarına söykənərək istilik elektrik stansiyalarının inkişafına üstünlük verib. Paralel olaraq hidroenergetika, eləcə də son illərdə günəş və külək enerjisi layihələri genişləndirilib. Bununla belə, hesablamalara görə, alternativ mənbələr uzunmüddətli perspektivdə ümumi enerji istehsalının təxminən 20 faizindən çoxunu təmin etməkdə çətinlik çəkə bilər.

Bu baxımdan, karbohidrogen resurslarının məhdudluğu nəzərə alınaraq, gələcəkdə nüvə enerjisinin alternativ əsas mənbələrdən biri kimi önə çıxacağı ehtimal olunur. Artıq bu istiqamətdə texnoloji baza və insan resurslarının formalaşdırılması üçün hazırlıq işləri aparılır.

Eyni zamanda, Azərbaycanda Atom Elektrik Stansiyasının inşası ilə bağlı müxtəlif müzakirələr gedir. Layihənin həyata keçirilməsində “Rosatom” kimi beynəlxalq tərəfdaşların iştirakı ehtimalı da qeyd olunur. Belə bir layihə reallaşarsa, ölkənin enerji təhlükəsizliyi və beynəlxalq əməkdaşlıq imkanları əhəmiyyətli dərəcədə genişlənə bilər.

Mütəxəssislərin fikrincə, nüvə enerjisi etibarlı, sabit və uzunmüddətli perspektivdə iqtisadi baxımdan səmərəli enerji mənbələrindən biri hesab olunur. Bu stansiyalar fasiləsiz rejimdə fəaliyyət göstərir və külək, günəş kimi alternativ mənbələrdən fərqli olaraq meteoroloji şəraitdən asılı deyil. Bu xüsusiyyət onları enerji təchizatında dayanıqlı baza mənbəyinə çevirir. Bundan başqa, nüvə elektrik enerjisinin istehsalında yanacaq xərclərinin aşağı olması ümumi maya dəyərinə müsbət təsir göstərir.

Ekoloji aspektdən yanaşdıqda isə nüvə elektrik stansiyalarının istismar zamanı $CO_2$ (karbon dioksid) emissiyası çox aşağıdır. Bu səbəbdən onlar qlobal istiləşmə ilə mübarizədə alternativ və nisbətən “təmiz” enerji mənbəyi kimi qiymətləndirilir.

Digər mühüm məqam isə ərazi istifadəsi ilə bağlıdır. Nüvə stansiyaları digər elektrik istehsal obyektləri ilə müqayisədə daha az sahə tələb edir. Aparılan araşdırmalar göstərir ki, bu obyektlərin ətraf mühitə radiasiya təsiri minimal səviyyədədir və bu da yaxın ərazilərdə kənd təsərrüfatı və turizm fəaliyyətlərinin davam etdirilməsinə imkan yaradır.

Beləliklə, nüvə enerjisi müasir dövrdə həm iqtisadi, həm də ekoloji baxımdan alternativ enerji mənbələri arasında mühüm yer tutmağa davam edir.

***Musa BAĞIRLI***
***XQ***

## Azərbaycanda hava daşımalarının həcmi artıb

**Bu ilin yanvar–mart aylarında Azərbaycanda hava nəqliyyatı vasitələri ilə 602,5 milyon ABŞ dolları dəyərində 68,9 min ton yük daşınıb. Dövlət Gömrük Komitəsinin hesabatında bildirilir ki, bu göstərici 2025-ci ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 1,522 milyard ABŞ dolları və ya 3,5 dəfə az, həcm ifadəsində isə 65,7 min ton və ya 21,6 dəfə çoxdur.**



Hesabat dövründə Azərbaycandan hava nəqliyyatı ilə 183,7 milyon ABŞ dolları dəyərində təqribən 66 min ton yük ixrac olunub ki, bu, əvvəlki ilin eyni dövründəki göstərici ilə müqayisədə dəyər ifadəsində 97,8 milyon ABŞ dolları və ya 2,1 dəfə çox, həcm ifadəsində isə 65,7 min ton və ya 315,6 dəfə çoxdur.

Bu ilin yanvar-mart aylarında Azərbaycana hava nəqliyyatı ilə 418,8 milyon ABŞ dolları dəyərində 2,918 min ton yük idxal olunub ki, bu göstərici 2025-ci ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 1,620 milyard ABŞ dolları və ya 4,9 dəfə, həcm ifadəsində isə 65 ton və ya 2,2 faiz azdır.

Qeyd edək ki, 2026-cı ilin yanvar-mart aylarında Azərbaycanda yük nəqliyyat vasitələri ilə ümumilikdə 9,407 milyard ABŞ dolları dəyərində 13,014 milyon ton yük daşınıb. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə dəyər baxımından 2,642 milyard ABŞ dolları və ya 21,9 faiz, həcm baxımından isə 1,328 milyon ton və ya 9,3 faiz azdır.

Hesabat dövründə yüklərin daşınma vasitələri üzrə Azərbaycandan ümumilikdə 5,402 milyard ABŞ dolları dəyərində 10,796 milyon ton yük ixrac edilib ki, bu da illik müqayisədə dəyər baxımından 983,7 milyon ABŞ dolları və ya 15,4 faiz, həcm ifadəsində isə 737,2 milyon ton və ya 6,4 faiz azalma deməkdir.

Eyni zamanda, bu ilin yanvar-mart aylarında yüklərin daşınma vasitələri üzrə Azərbaycana ümumilikdə 4,005 milyard ABŞ dolları dəyərində 2,218 milyon ton yük idxal edilib. Bu isə 2025-ci ilin eyni dövründəki göstəriciyə nisbətən dəyər ifadəsində 1,658 milyard ABŞ dolları və ya 29,3 faiz, həcm baxımından isə 590,4 min ton və ya 21 faiz azdır.

## 16 startapçıya da şəhadətnamə verilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən bildirilib ki, “Startap” şəhadətnaməsi almış növbəti 16 sahibkarın 10-u Bakı şəhərində, 6-sı isə regionlarda fəaliyyət göstərir.**




2026-cı ilin yanvar-mart aylarında 29 mikro və kiçik sahibkar “Startap” şəhadətnaməsi almaq üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) müraciət edib. Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli Qərarı ilə təsdiq edilmiş “Startapın müəyyən olunması meyarları”na əsasən Ekspertlər Şurası tərəfindən 16 mikro və kiçik sahibkara “Startap” şəhadətnaməsinin verilməsi barədə qərar qəbul olunub.

Şəhadətnamə almış sahibkarların 10-u hüquqi, 6-sı fiziki şəxsdir. “Startap” şəhadətnaməsi almış biznes subyektləri istehsal və xidmət sektorlarında fəaliyyət göstərir, onlar e-ticarət və rəqəmsal marketinq, səhiyyə texnologiyaları, onlayn oyun istehsalı, səyahət və turizm xidmətləri, rəqəmsal ödəniş sistemləri və s. sahələrdə innovativ həlləri həyata keçirirlər.

Qeyd edək ki, “Startap” şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edir. “Startap” şəhadətnaməsinin verilməsi, yaxud imtina edilməsi haqqında qərar KOBİA tərəfindən Ekspertlər Şurasının rəyi əsasında verilir.

## “Azerconnect Group” “NVIDIA” ilə tərəfdaşlıq qurur

**“Azerconnect Group”un baş direktoru Emil Məsimov və texnologiya nəhəngi “NVIDIA”nın baş vitse-prezidenti Cef Fişer ABŞ-da tərəfdaşlıq müqaviləsi imzalayıblar.**

Əməkdaşlığın ilkin mərhələsində “Azerconnect Group” “GeForce NOW” xidmətini təqdim edəcək.

ABŞ səfəri zamanı “Azerconnect Group” rəhbərliyi “NVIDIA”nın telekommunikasiya sahəsində biznesin inkişafı üzrə qlobal vitse-prezidenti Kris Penrouzun rəhbərlik etdiyi komanda ilə görüşlər keçirib. Əməkdaşlığın növbəti mərhələsi üçün süni intellekt əsaslı şəbəkələr, 6G infrastrukturu və süni intellekt data mərkəzinin yaradılması prioritet istiqamətlər olaraq müəyyən edilib.

Emil Məsimov bildirib: “NVIDIA” ilə rəsmi tərəfdaşlıq qlobal texnologiya liderləri ilə əməkdaşlığımızın yeni strateji mərhələsinin başlanğıcıdır. “Azerconnect Group” olaraq rəqəmsal xidmətlər portfelinin daha da genişləndirilməsi istiqamətində fəaliyyətimizi davam etdirəcəyik”. “NVIDIA” ilə tərəfdaşlıq “Azerconnect Group”un texnoloji imkanlarını daha da genişləndirərək süni intellekt əsaslı innovativ həllərin tətbiqini sürətləndirəcək.

## Suriyaya qaz ixracı ölkəmizə 54 milyon dollar gəlir qazandırıb

**Bu ilin yanvar-fevral aylarında Azərbaycandan Suriya Ərəb Respublikasına 53,926 milyon ABŞ dolları dəyərində 160,472 milyon kubmetr (qaz halında) təbii qaz ixrac edilib.**

Qeyd edək ki, 2025-ci il iyulun 12-də Suriyanın keçid dövrü Prezidenti Əhməd Əl Şaraanın Azərbaycana işgüzar səfəri çərçivəsində SOCAR ilə Suriya Ərəb Respublikası Hökuməti arasında Anlaşma Memorandumu imzalanıb. Sənədi SOCAR-ın Müşahidə Şurasının sədri Mikayıl Cabbarov və Suriyanın energetika naziri Məhəmməd Əl Bəşir imzalayıblar.

İmzalanmış sənədə əsasən, təbii qazın nəqli üçün bütün texniki hazırlıqlar tamamlanıb. 2025-ci il avqustun 2-dən etibarən isə Azərbaycan qazının Türkiyə üzərindən Suriyaya ixracına start verilib. Layihənin ilk mərhələsində Suriyaya ildə 1,2 milyard kubmetr təbii qazın ixracı planlaşdırılır.

Qaz Türkiyənin Kilis şəhəri vasitəsilə Hələb və Homsdakı elektrik stansiyalarına çatdırılacaq və elektrik enerjisi istehsalında istifadə olunacaq. Bu proses nəticəsində 1200-1300 meqavatlıq elektrik istehsalı gücünə nail olunması nəzərdə tutulur.

***XQ***

*Biz deməsək...*

# “Gözəgörünməz baltalar”ın “yaşıl soyqırımı”

## *Paytaxtın “ağ ciyərlər”ində qara ləkələr*

**Son illər Bakı şəhərinin simasının dəyişilməsi, burada müasir şəhərsalma prinsipləri əsasında tamamilə yeni yaşayış mühitinin formalaşdırılması və genişmiqyaslı yaşıllaşdırma layihələrinin həyata keçirilməsi ölkə siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Xüsusilə Prezident İlham Əliyevin təşəbbüs və göstərişləri nəticəsində paytaxtda yeni parklar salınıb, mövcud yaşıllıq zolaqları bərpa edilib, ictimai məkanlar sakinlərin istifadəsinə qaytarılıb.**

Bütün bunlara baxmayaraq, ayrı-ayrı şəxslər tərəfindən qanunsuz ağac kəsilməsi, yaşıllıq sahələrinin dağıdılaraq yerində iaşə obyektlərinin, kommersiya tikililərinin və ya qeyri-qanuni parklanma zonalarının yaradılması kimi faktlar ictimai narazılığa səbəb olub. Bu hallar şəhər estetikası ilə bərabər, ekoloji təhlükəsizliyə də ciddi zərbə vurulması ilə nəticələnib.

Ötən həftə ərzində də paytaxt və regionlarda yaşıllıqlara qarşı vandalizm əməlləri davam etdirilib. Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin son məlumatlarına görə, bu müddətdə Bakıdan Oğuza qədər uzanan ərazilərdə ağaclar kütləvi şəkildə qanunsuz kəsilib, nəticədə təbiətə yüz minlərlə manatlıq ziyan vurulub. Xidmətin əməkdaşlarının keçirdiyi nəzarət tədbirləri zamanı Bakı və Sumqayıt şəhərlərində, eləcə də Abşeron, Qax və Oğuz rayonlarında ciddi qanun pozuntuları aşkarlanıb.



Araşdırmalar zamanı Bakının Nizami, Səbail və Yasamal rayonlarında, Sumqayıt şəhərində, Abşeronun Masazır kəndində, eləcə də Qaxın Qazmalar və Tasmalı, Oğuzun isə Filfilli və Yaqublu yaşayış sahələri ətrafında ağacların qanunsuz kəsildiyi müəyyən edilib. Xidmətdən bildirilib ki, hər bir fakt üzrə dəyən ziyanın məbləği cinayət tərkibi yaratdığından toplanmış materiallar hüquqi qiymət verilməsi üçün artıq hüquq-mühafizə orqanlarına göndərilib. Qurumun açıqlamasında təkcə son bir həftədə yaşıllıqlara vurulan ziyanın məbləğinin isə 133 min 140 manat olduğu bildirilib.

Yeri gəlmişkən, bu mövzuda yayılan başqa bir məlumatda paytaxtın Səbail rayonu, Badamdar qəsəbəsi, Buta küçəsi ünvanında, təxminən, üç-dörd ay əvvəl yüksək gərginlik altındakı xeyli sayda ağac kəsilərək yerində müxtəlif təyinatlı obyektlər tikildiyi vurğulanıb. Badamdar qəsəbə icra nümayəndəsinin, eləcə də Səbail Rayon İcra Hakimiyyətinin açıqlamasında isə həmin torpağa vaxtilə mülkiyyət sənədi verildiyi üçün hər hansı qanunsuz tikinti aparılmasına dair iddiaların əsassızlığı qeyd edilib. Lakin Dövlət Ekoloji Təhlükəsizlik Xidmətindən bildirilib ki, həmin ünvanda araşdırma zamanı qeyri-yaşayış obyektinin inşası zamanı 15 ağac və 3 kol bitkisi kəsilərək təbiətə 22 min 740 manat ziyan vurulub və bu hal cinayət tərkibi yaratdığı üçün məsələyə hüquqi qiymət verilməsi məqsədilə toplanan materiallar Baş Prokurorluğa göndərilib.

### Şəhərləşmə və ekoloji tarazlıq

**Ekoloq Qafar Hüseynovun** sözlərinə görə, son illər Bakı şəhəri yalnız memarlıq baxımından deyil, həm də urbanistik yanaşma və şəhər mühitinin keyfiyyəti baxımından yeni inkişaf mərhələsinə qədəm qoyub. Müasir şəhərsalma prinsiplərinə əsaslanan layihələr, yeni parkların salınması, ictimai məkanların genişləndirilməsi və yaşıllaşdırma layihələrinin intensivləşdirilməsi paytaxtın simasını əhəmiyyətli dərəcədə dəyişib. Bu proseslər dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi formalaşıb və sistemli xarakter alıb. Xüsusilə Prezident İlham Əliyev tərəfindən irəli sürülən təşəbbüslər nəticəsində şəhərdə ekoloji mühitin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb.

Lakin bu gün müsbət dinamika ilə yanaşı, ciddi narahatlıq doğuran tendensiyalar da müşahidə olunur. Qanunsuz ağac kəsilməsi, yaşıllıq sahələrinin məhv edilərək kommersiya obyektlərinə çevrilməsi və ictimai istifadəyə məxsus ərazilərin özəlləşdirilməsi kimi əməllər törədilməklə şəhər ekosisteminə zərbə vurulur. Bu, estetik problem olmaqla bərabər, həm də ekoloji təhlükəsizlik, ictimai sağlamlıq və sosial ədalət məsələsi kimi diqqət çəkir.

Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin yuxarıda diqqətə çatdırdığımız son monitorinqləri də göstərir ki, yaşıllıqların məhv edilməsi ayrı-ayrı təsadüfi hallar deyil, daha geniş miqyaslı və sistemli problemlərin məntiqi nəticəsidir. Təkcə bir həftə ərzində paytaxtdan regionlara qədər müxtəlif ərazilərdə qanunsuz ağac kəsilməsi faktları qeydə alınması və təbiətə 100 min manatdan artıq ziyan dəyməsi də bunun bariz ifadəsidir. Bu faktların coğrafiyasının paytaxtın müxtəlif rayonlarını, o cümlədən Abşeron yarımadasını və regionları əhatə etməsi isə əsaslı narahatlıq doğurur.

Xüsusilə Bakının Nizami, Səbail və Yasamal rayonlarında qeydə alınan ciddi qanun pozuntuları şəhərin mərkəzi və strateji ərazilərində belə nəzarət mexanizmlərinin yetərli olmamasından xəbər verir. Badamdar qəsəbəsində baş verən hadisə isə bu problemin daha mürəkkəb tərəfini önə çəkir: bir tərəfdən torpaq mülkiyyəti sənədləri, digər tərəfdən isə ekoloji qanunvericiliyin tələbləri arasında ziddiyyət yaranır. Nəticədə isə 15 ağacın və bir neçə kol bitkisinin məhv edilməsi ilə ciddi ekoloji zərər baş verir.

**Ekoloq-araşdırmaçı İslam Əfəndiyev** elmi araşdırmalara əsaslanaraq bildirir ki, yaşıllıq sahələrinin dəyəri təkcə landşaft estetikası ilə məhdudlaşmır. Bir hektar yaşıllıq sahəsi ildə 4,6–6,5 ton karbon qazını udur və 3,5–5 ton oksigen istehsal edir. Orta ölçülü bir ağac gündəlik olaraq bir neçə insanın nəfəs alması üçün zəruri oksigeni gerçəkləşdirir. Bu isə hər bir ağacın şəhər ekosistemi üçün nə qədər dəyərli olduğunu göstərir. Ağaclar, eyni zamanda, havanı nəmləndirir, yay aylarında temperaturu aşağı salır və səs-küyü azaldır. Bu baxımdan hər bir ağac şəhər üçün “mikro-ekoloji stansiya” rolunu oynayır. Başqa sözlə, bu amil – yaşıllıq zolaqlarının artırılması yeni yaşayış massivlərinin salınmasında və inkişafında ən vacib addımlardan biri kimi dəyərləndirilir.

Lakin mövcud təcrübə göstərir ki, bir sıra hallarda iqtisadi maraqlar ekoloji dəyərləri üstələyir. İnzibati cərimələrin nisbətən aşağı olması bəzi sahibkarların bu cərimələri “iş xərci” kimi əvvəlcədən nəzərə almasına gətirib çıxarır. Bu isə hüquq pozuntusunu iqtisadi baxımdan “sərfəli təhlükəyə”ə çevirir. Nəticədə qanunvericiliyin preventiv (önləyici və qabaqlayıcı tədbirlər) funksiyası zəifləyir.

Abşeron yarımadasının yarı-quraq iqlim şəraiti yaşıllıqların qorunmasını daha da zəruri edir. İ.Əfəndiyevin fikrincə, bu ərazidə ağacların böyüdülməsi uzunmüddətli və resurs tələb edən prosesdir. Buna görə də artıq formalaşmış yaşıllıq fondunun məhv edilməsi yalnız cari deyil, həm də gələcək ekoloji balans üçün ciddi təhlükə yaradır. Digər tərəfdən, Bakıda nəqliyyat vasitələrinin sayının sürətlə artması atmosferin çirklənmə səviyyəsini sürətlə yüksəldir. Belə şəraitdə yaşıllıq sahələri şəhərin “təbii filtr sistemi” kimi çıxış edir. Lakin bu ərazilərin parklanma zonalarına və ya tikinti sahələrinə çevrilməsi ekoloji yükü daha da artırır.

### Ekoloji cinayətə son!

Qeyd edildiyi kimi, paytaxtda avtomobillərin sayının getdikcə artması əlavə ekoloji təzyiq yaradır. Minlərlə nəqliyyat vasitəsinin yaratdığı karbon-oksid emissiyası onsuz da ağır olan şəhər mühitinə mənfi təsir edir. Monitorinqlər göstərir ki, intensiv nəqliyyat axını nəzərə çarpan ərazilərdə havada zərərli qazların miqdarı parkların içərisinə nisbətən dəfələrlə yüksək olur. Yaşıllıq sahələrinin parklanma yerlərinə çevrilməsi ilə bu problem daha da dərinləşir. Bu, bir tərəfdən qeyri-qanuni gəlir mənbəyinə çevrilir, digər tərəfdən isə şəhərin ekoloji balansını pozur.

Problemin kökündə hüquqi boşluqlarla bərabər, həm də ekoloji şüurun yetərincə formalaşmaması dayanır. Çünki təbiətə münasibət yalnız qanunla deyil, həm də əxlaqi norma ilə tənzimlənməlidir. Ona görə də ekoloji təhsil də məktəb dövründən başlayaraq davamlı şəkildə inkişaf etdirilməli, media vasitəsilə maarifləndirmə işi gücləndirilməlidir. Cəmiyyət ağacı sadəcə landşaft elementi kimi deyil, eyni zamanda, canlı ekosistemin ayrılmaz hissəsi kimi qəbul etməlidir.

Azərbaycan qanunvericiliyinə əsasən, ağacların qanunsuz kəsilməsinə görə cərimələr nəzərdə tutulur. Lakin praktiki nəticələr göstərir ki, bu mexanizmlər problemi tam həll etmir. Ekspertlərin fikrincə, irihəcmli zərər hallarında məsələ yalnız inzibati deyil, cinayət məsuliyyəti müstəvisində qiymətləndirilməlidir.

Dövlət başçısının bu istiqamətdə sərgilədiyi qəti mövqe diqqətəlayiqdir. Prezident İlham Əliyev açıq şəkildə bəyan edib ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin icazəsi olmadan heç bir ağac kəsilə bilməz və bu qaydanı pozanlar ciddi məsuliyyətə cəlb olunmalıdır. Bu yanaşma göstərir ki, problem dövlət səviyyəsində strateji əhəmiyyət daşıyır.

**Ekoloq Arif Əliyev** bildirir ki, cəmiyyətin müəyyən hissəsi üçün ağac yalnız dekorativ element kimi qəbul olunur. Halbuki o, bütöv ekosistemin ayrılmaz hissəsidir. Bu baxımdan ekoloji təhsilin gücləndirilməsi, medianın maarifləndirici rolunun artırılması və ictimai nəzarət mexanizmlərinin genişləndirilməsi vacibdir. İnkişaf etmiş ölkələrin təcrübəsi də göstərir ki, ictimai iştirak olmadan ekoloji problemlərin həlli mümkün deyil.

Ekoloqun fikrincə, mövcud vəziyyət kompleks və çoxşaxəli yanaşma tələb edir. Bu məsələdə bir neçə əsas istiqamət – cinayət məsuliyyətinin sərtləşdirilməsi və tətbiqinin genişləndirilməsi, yaşıllıq kompensasiyası mexanizminin yaradılması, rəqəmsal monitorinq və süni intellekt əsaslı nəzarət sistemlərinin tətbiq olunması, şəffaf torpaq reyestrinin formalaşdırılması, ekoloji ekspertizanın gücləndirilməsi, nəhayət, alternativ nəqliyyat vasitələrinin təşviqi kimi məsələlər mühüm önəm daşıyır. Bu sahədə, xüsusilə, Skandinaviya ölkələrinin təcrübəsi göstərir ki, açıq məlumat bazaları və ictimai nəzarət qanunsuz müdaxilələrin qarşısını səmərəli şəkildə alır.

Bu gün Bakı artıq beynəlxalq səviyyədə tanınan şəhərlərdən biridir. Paytaxtın inkişafı iqtisadi və memarlıq göstəriciləri ilə bərabər, həm də ekoloji dayanıqlılığı ilə ölçülməlidir. Yaşıllıqların qorunması bu baxımdan milli təhlükəsizlik məsələsinə çevrilməlidir. Qanunsuz ağac kəsilməsi ilə mübarizə yalnız cərimə tətbiqi ilə məhdudlaşmamalı, kompleks hüquqi və ictimai mexanizmlərlə dəstəklənməlidir. Əks halda, qısa müddətli kommersiya maraqları uzunmüddətli ekoloji sabitliyi təhlükə altına ala bilər.

Beləliklə, şəhərimizin gözəlliyi, cəlbediciliyi təkcə yeni tikililərlə deyil, həm də qorunan təbiəti ilə ölçülür. Bu tarazlığı saxlamaq dövlətlə yanaşı, hər bir vətəndaşın üzərinə düşən məsuliyyətdir. Yaşıllıqlara qarşı yönələn hər bir qanunsuz müdaxilə isə təkcə bugünün deyil, gələcək nəsillərin hüquqlarına qarşı yönələn bir addım kimi qiymətləndirilməlidir.

***Vaqif BAYRAMOV***
***XQ***

---

*Ekspert rəyi*

**Bəxtiyar HÜSEYNOV,**
**ekoloq**



Bakıda son illər yaşıllıqların qorunması ilə bağlı narahatlıq doğuran hallardan biri müxtəlif şəxslər tərəfindən ağacların qanunsuz şəkildə məhv edilməsi və həmin ərazilərdə iaşə obyektlərinin, ticarət köşklərinin, xidmət məntəqələrinin tikilməsi, eləcə də parklanma yerlərinin salınaraq qeyri-qanuni gəlir əldə edilməsidir. Bu cür hallar şəhərin ekoloji tarazlığına zərbə vurmaqla yanaşı, ictimai məkanların məhdudlaşdırılmasına və urbanistik mühitin pozulmasına səbəb olur.

Ağacların qanunsuz kəsilməsi təkcə təbiətə qarşı vandalizm deyil, eyni zamanda, şəhər sakinlərinin sağlamlığına və həyat keyfiyyətinə birbaşa təhdiddir. Çünki ağaclar havanı təmizləyir, tozu azaldır, temperaturu tənzimləyir və şəhər mühitində oksigen balansını qoruyur. Xüsusilə Bakı kimi sıx tikililərin üstünlük təşkil etdiyi, avtomobil sıxlığının yüksək olduğu bir şəhərdə yaşıllıqların azalması havanın çirklənməsini daha da artırır və isti aylarda şəhərin “istilik adası” effektini gücləndirir.

Məsələnin digər təhlükəli tərəfi ondan ibarətdir ki, bəzi hallarda ağacların məhv edilməsi məqsədli şəkildə həyata keçirilir, yəni əvvəlcə ağaclar zədələnir, qurudulur, sonra isə “qurumuş ağac” adı ilə ərazi təmizlənərək obyekt tikintisinə əlverişli şərait yaradılır. Nəticədə şəhərin ümumi yaşıllıq fondu zəifləyir, ictimai istifadəyə aid olan sahələr şəxsi qazanc mənbəyinə çevrilir.

Bu cür qanunsuz tikililər və parklanma yerləri təkcə ekoloji deyil, həm də hüquqi və sosial problem yaradır. Çünki vətəndaşların istirahət hüququ pozulur, piyada səkiləri daralır, avtomobil sıxlığı artır, şəhər infrastrukturu plansız şəkildə yüklənir. Üstəlik, qeyri-qanuni gəlir əldə edən şəxslər, faktiki olaraq, dövlətə məxsus və ya ictimai əhəmiyyətli torpaq sahələrindən istifadə edərək qanunvericiliyə laqeyd, biganə münasibət bəsləyirlər.

Bu problemin qarşısını almaq üçün nəzarət mexanizmləri gücləndirilməli, qanunsuz tikililərə qarşı sərt tədbirlər görülməli, ağacların kəsilməsinə görə cərimələr və hüquqi məsuliyyət daha ciddi şəkildə tətbiq olunmalıdır. Eyni zamanda, ictimai nəzarət artırılmalı, sakinlərin müraciətləri operativ araşdırılmalı, şəhərsalma qaydalarının pozulması hallarına göz yumulması praktikasına son qoyulmalıdır.

Ekoloji hüquqpozmalar ayrıca iqtisadi cinayət kateqoriyası kimi təsnif olunmalıdır. Xüsusilə qanunsuz ağac kəsiminə görə yalnız cərimə yox, azadlıqdan məhrumetmə sanksiyası tətbiq olunmalıdır, qanunsuz tikinti məqsədilə kəsilən ağaclara görə obyektin istismarına qadağa mexanizmi yaradılmalıdır, ekoloji zərərin məbləği bazar qiyməti ilə deyil, ekosistem xidmətlərinin dəyəri ilə hesablanmalıdır.

Kəsilən hər ağacın əvəzlənməsi mexanizmi indiki kimi formal xarakter daşımamalıdır. Bu məqsədlə mərkəzləşdirilmiş ekoloji kompensasiya fondu yaradılmalı, fond vəsaitlərinin istifadəsi ictimai auditdən keçirilməli, əvəzləyici əkilmə işləri üçün minimum 3-5 illik monitorinq öhdəliyi tətbiq edilməlidir. Bütün bunlarla bərabər, ekoloji məhkəmələrin yaradılması, tikinti icazələrinin məcburi ekoloji auditdən keçirilməsi, bələdiyyələrin məsuliyyətinin artırılması, şəhərsalma planlarında minimum yaşıllıq normativlərinin sərtləşdirilməsi və ekoloji cinayətlərin ictimaiyyətə açıqlanması mexanizmi qurulmalıdır.

Beləliklə, Bakının yaşıllıqları təkcə dekorativ element deyil, şəhərin nəfəsidir. Bu nəfəsin boğulması isə gələcək nəsillərə daha çirkli hava, daha isti iqlim və daha ağır yaşam şəraiti miras qoymaq deməkdir. Yaşıllıqların qorunması həm dövlət qurumlarının, həm də cəmiyyətin ümumi məsuliyyətidir.

---

# Səhiyyə islahatlarında yeni hədəf: əlçatanlıqdan keyfiyyətə

**“Son illərdə ölkəmizin səhiyyə sistemində həyata keçirilən islahatlar yeni mərhələyə qədəm qoyub. Bu mərhələnin əsas xüsusiyyəti yalnız infrastrukturun yenilənməsi və xidmətlərin genişləndirilməsi deyil, eyni zamanda, sistemin effektiv idarə olunması, xidmət keyfiyyətinin artırılması və vətəndaş məmnunluğunun təmin edilməsidir”.**

**Bu fikirləri “XQ”yə Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov səhiyyə sahəsində aparılan son islahatlarla bağlı bildirdi. Əlavə olaraq yalnız paytaxtda deyil, bölgələrdə də vətəndaşların müayinə və müalicələrə əlçatanlığının daha asan olduğunu dedi:**

– Regionlarda müasir xəstəxanaların tikilməsi, mövcud tibb müəssisələrinin yenidən qurulması və texniki təminatın gücləndirilməsi nəticəsində səhiyyə xidmətlərinin coğrafiyası əhəmiyyətli dərəcədə genişlənib. Əgər əvvəlki dövrlərdə vətəndaşların böyük bir hissəsi daha keyfiyyətli xidmət üçün paytaxta üz tuturdusa, bu gün artıq bir çox əsas tibbi xidmətlər regionlarda da əlçatan olub.

Lakin obyektiv yanaşma tələb edir ki, bu sahədə görülən işlərlə yanaşı, mövcud çağırışlar da qeyd olunsun. Regionlarla paytaxt arasında xidmət keyfiyyəti və xüsusilə yüksək ixtisaslaşmış tibbi müdaxilələr sahəsində müəyyən fərqlər hələ də qalmaqdadır. Bu fərqlər əsasən kadr potensialının qeyri-bərabər bölgüsü, klinik qərarvermə təcrübəsinin fərqli səviyyədə olması və bəzi ixtisaslaşmış xidmətlərin mərkəzləşmiş formada təşkil olunması ilə bağlıdır.



İcbari tibbi sığortanın tətbiqi isə səhiyyə sistemində köklü dəyişikliklərə səbəb olub. Ən mühüm nəticə ondan ibarətdir ki, vətəndaşların tibbi xidmətlərə çıxışı əhəmiyyətli dərəcədə artıb. Artıq insanlar əvvəlki qədər maliyyə baryerləri ilə üzləşmədən tibb müəssisələrinə müraciət edə bilirlər. Bu, sosial ədalət və bərabər imkanlar baxımından mühüm nailiyyətdir.

Bununla belə, müraciətlərin artması sistemə əlavə yük yaradıb və bu da keyfiyyət məsələsini daha da aktuallaşdırıb. İcbari Tibbi Sığorta modeli, ilk növbədə, maliyyələşmə mexanizmi kimi formalaşdığı üçün xidmətin keyfiyyətinin yüksəldilməsi paralel olaraq idarəetmə, kadr hazırlığı və klinik protokolların tətbiqi ilə sıx bağlıdır. Bu istiqamətdə görüləcək işlər növbəti mərhələnin əsas prioritetlərindən biri kimi çıxış edir.

**Komitə sədrinin müavini İcbari Tibbi Sığorta sistemindəki yenilikləri uzunmüddətli və düşünülmüş siyasətin nəticəsi kimi dəyərləndirdi:**

– Hazırda həyata keçirilən struktur dəyişikliklər, xüsusilə icbari tibbi sığorta sisteminin idarəetmə modelində yeniliklər və səhiyyə xidmətlərinin təşkilində institusional yanaşmanın təkmilləşdirilməsi problemlərin daha sistemli şəkildə həllinə yönəlib. Məqsəd maliyyə resursları ilə tibbi xidmətin təşkili arasında daha sıx və effektiv əlaqənin qurulmasıdır.

Bütün bu proseslər göstərir ki, Azərbaycan səhiyyəsi yeni keyfiyyət mərhələsinə keçid edir. Bu mərhələdə əsas hədəf yalnız xidmətin əlçatan olması deyil, eyni zamanda onun keyfiyyətli, təhlükəsiz və nəticəyönümlü olmasıdır.

Bu genişmiqyaslı və ardıcıl islahatların əsasında isə ölkə rəhbərliyinin, xüsusilə cənab Prezident İlham Əliyevin səhiyyə sahəsinə göstərdiyi xüsusi diqqət və strateji yanaşma dayanır. Son illərdə həyata keçirilən kompleks tədbirlər – həm infrastrukturun qurulması, həm də idarəetmə mexanizmlərinin yenilənməsi uzunmüddətli və düşünülmüş siyasətin nəticəsidir.

***Z.HÜSEYNOVA***
***XQ***

# Zəngilan əriyi dünya bazarında

**Ağalı kəndinə çatan kimi adamın diqqətini ilk cəlb edən səliqə-sahmanla yanaşı, həm də torpağın ılıq nəfəsidir. İllərlə həsrət qaldığı sahiblərinə qovuşan bu yerlər indi hər qarışında həyatın yenidən canlandığını nümayiş etdirir. "Ağıllı kənd" adını daşıyan bu məkan təkcə texnologiyanın deyil, həm də zəhmətin, ümidin və qayıdışın rəmzinə çevrilib.**



Ətrafa tamaşa edirəm. Ərik, şaftalı, armud ağacları, sanki, bu torpağın sevincini özündə saxlayaraq budaqlarını meyvə ilə doldurub. Kəndin yaxınlığında yerləşən "Şirin aqro" şirkətinin təsərrüfatında işin qızğın çağıdır. Sahələrdə ağaclara qulluq edilir, alaq otları təmizlənir.

**– Şirkətin layihə rəhbəri Ravik Müslümov bol məhsullu ərik ağaclarına göstərərək deyir:**

– Torpaq zəhməti sevir. Builki meyvələrə baxın, bunlar, sadəcə, məhsul deyil, zəhmətin, alın tərinin bəhrəsidir. Şirkətimizin 100 hektarlıq sahəni əhatə edən bağlarında həyat qaynar bir ritmlə davam edir. 60 hektarda şaftalı, 40 hektarda isə ərik ağacları səliqə ilə düzülüb. Bu bağlarda yetişən ərik meyvəsi, əsasən, may ayının ortalarından etibarən yığılaraq bazarlara yola salınır. Zəngilan ərikləri təravətli ətri, dadı ilə yerli və xarici bazarlarda rəqabətliliyini ildən-ilə yüksəldir. Yeri gəlmişkən, bu meyvələrin dünya bazarında rəqabət üstünlüklərindən biri də erkən yetişməsidir. Məhsulumuz digər ölkələrlə müqayisədə satışa daha tez çıxarılır və bu da ixrac imkanlarını genişləndirir.

Günəşin istisini, torpağın nəfəsini və suyun saflığını özündə birləşdirən Zəngilan əriyi təkcə dadı ilə deyil, görünüşü ilə də seçilir. Elə buna görədir ki, hazırda "Şirin aqro"da yetişdirilən məhsulun təkcə ölkə daxilində deyil, xaricdə də alıcıları çoxdur.

**– Bağda çalışan işçilərlə söhbətimiz də elə onların yetişdirdiyi meyvələr kimi şirin alınır. Ağalı kənd sakini İlqar Dünyamalıyev gülümsəyərək deyir:**

– Doğma yurda qayıdanda yolboyu ən çox düşündüyümüz məsələ işlə bağlı idi. Amma ilk günlərdəncə işlə təmin olunduq. Doğma dədə-baba torpağımızda çalışmaq olduqca qürurdur.

Digər bağbanlar – Səfər Səlimov, Nəsir Zeynalov, Aydın Quliyev və Səlim Hüseynli həm yeni evlərindən, həm də iş şəraitindən razılıqla danışırlar. Onların səsində təkcə məmnunluq yox, həm də gələcəyə inam duyulur. Müasir suvarma sistemləri, keyfiyyətli tinglər, aqronom məsləhətləri torpağa verilən dəyərin göstəricisi kimi fərəh doğurur.

Zəngilan bağlarında təkcə meyvə yetişmir. Burada, eyni zamanda, respublikanın iqtisadi inkişafına xüsusi töhfəsi ilə seçilən və 30 illik işğaldan azad olunmuş bir bölgənin dirçəlişi, insanların öz yurduna bağlılığı və dövlət dəstəyinin real nəticələri boy atır.

Həkəri və Bərgüşad çaylarının yaxınlığı isə bu torpağın damarlarında axan həyat kimidir. Suvarma üçün geniş imkanlar yaradan bu çaylar bağlara can verir, ağacları yaşadır, məhsulu bol edir. Ağacların damcı sistemi ilə suvarılması və yeni texnikalarla dərmanlanması bağbanların işlərini son dərəcə asanlaşdırır.

…Günəş yüksəldikcə bağlarda iş daha da canlanır. İnsanlar yorulsa da, üzlərindəki təbəssüm itmir. Çünki onlar, sadəcə, işləmir, həm də zəhmətdən zövq alırlar, torpağı dirçəldirlər, bol və dadlı məhsul yetişdirməkdən qürur duyurlar.

Meyvə bağlarını gəzərkən və ətrafı seyr edərkən bir həqiqət aydın olur: bu torpaq təkcə məhsul vermir, o həm də ümid yetişdirir. Bu ümid inama dönüb, qızılı rəngə çalan ériklər kimi artıq sərhədləri aşaraq dünyaya yayılır.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

# Sumqayıt yağışlara təslim olmadı

**Son illər ərzində Sumqayıt şəhəri sürətli inkişaf yolu keçərək müasir və abad yaşayış məkanına çevrilib. Ötən günlərdə burada intensiv yağışların yaratdığı fəsadlar operativ aradan qaldırılıb, su basmış ərazilər təmizlənib, kanalizasiya xətləri açılıb və digər zəruri işlər icra olunub, zərər çəkmiş yollar təmir edilib.**



Müsbət haldır ki, fövqəladə hallarda şəhər icra hakimiyyəti və yerli xidmət qurumları, o cümlədən bələdiyyələr, inzibati ərazi dairəsi üzrə nümayəndəliklər və digər təsərrüfat strukturları koordinasiyalı şəkildə gücləndirilmiş iş rejimində fəaliyyət göstərirlər.

Kommunal Təsərrüfat İstehsalat Birliyinin Yaşıllaşdırma İdarəsi tərəfindən şəhərin Zülfü Hacıyev küçəsində genişmiqyaslı abadlıq işləri həyata keçirilib. Sözügedən ərazidə 1000 kvadratmetr sahəni əhatə edən qazon örtüyü döşənib. Yaxın vaxtlarda şəhərin əsas magistral yollarından hesab olunan Koroğlu prospekti və Bakı küçəsində də qazon örtüyünün salınması planlaşdırılır. Onu da qeyd edək ki, son vaxtlar Sumqayıtın müxtəlif ərazilərində ümumilikdə 14 min ədəd qızılgül kolu əkilib. Bu isə şəhərin dekorativ görünüşünü xeyli zənginləşdirib.

Şəhərin bağbanları, eyni zamanda, mövcud ərazilərin qulluq və mühafizəsini də diqqətdə saxlayırlar. Park və xiyabanlarda mütəmadi olaraq ot biçini işləri aparılır, yaşıllıq sahələri səliqəyə salınır və onların qorunması təmin edilir.

Sumqayıt Şəhər Təmizlik Departamentinin əməkdaşları günə erkən saatlardan başlayaraq şəhərin küçə və prospektlərində genişmiqyaslı təmizlik işləri həyata keçirirlər. Onlar yolların süpürülməsi, məişət tullantılarının vaxtında yığılaraq daşınması, konteynerlərin təmiz saxlanılması və ümumi abadlıq işlərinin görülməsi istiqamətində fasiləsiz fəaliyyət göstərirlər.

Şəhərin əsas yollarında və intensiv istifadə olunan ərazilərdə xüsusi texnika və canlı qüvvə cəlb olunmaqla ətraf mühitin təmizliyi daim nəzarətdə saxlanılır. Görülən işlərin səmərəliliyini artırmaq məqsədilə bütün proseslər əvvəlcədən müəyyən edilmiş plan üzrə təşkil olunur.

Bu gün Sumqayıtda müşahidə olunan səliqə-sahman, küçə və prospektlərin təmizliyi, parkların baxımlı vəziyyəti məhz müvafiq xidmət sahələri kollektivlərinin gündəlik əməyinin nəticəsidir.

***Ə.ƏLİYEV***
***XQ***

*Ciddi siqnal*

# Şəmkir–Gədəbəy yolu keçilməz olub...

**Çoxdan idi Gədəbəyə yolum düşmürdü. Amma bu dəfə gedəndə çox təəssüfləndim. Bir zamanlar sürətlə keçilən və rahat bir marşrut olan Şəmkir–Gədəbəy yolu bərbad günə düşüb.**



Yol yenicə istifadəyə veriləndə hamı sevinirdi ki, nəhayət, bu səfalı dağ rayonuna rahat gedib-gəlmək mümkün olacaq. Amma indi artıq həmin yolu keçmək əsl sınağa çevrilib. Əvvəllər 40-45 dəqiqəyə rahatlıqla gedilən bu yol indi saat yarıma qət olunur.

...Sürəti saatda 20-30 kilometr ilə məhdudlaşdırmaq məcburiyyətində qalırdım, çünki hər addımda qarşımda dağılmış asfalt "yollar" və böyük çuxurlar çıxırdı. İdarə etdiyin maşına az ziyan dəysin deyə, bu yolda hərəkət etmək əsl cəldlik və peşəkarlıq tələb edir. Yolun vəziyyəti o qədər acınacaqlıdır ki, bir maşının belə buradan salamat çıxması möcüzədir. Burada təmir edilməmiş hər bir hissə qəzaya səbəb ola biləcək böyük riskləri özü ilə daşıyır.

Əgər bu vəziyyət tezliklə dəyişməzsə, Gədəbəyin turizm sektoru da ciddi zərər görəcək. Qarşıdan yay mövsümü gəlir və bu, bölgə üçün ən vacib dövrlərdən biridir. Lakin belə bir yol turistlərin sayını yarıbayarı azalda bilər. Əksər səyahətçilər Gədəbəyin çətin yolu keçməkdənsə, digər bölgələrə yollanacaq.

Rayon icra hakimiyyətində bildirdilər ki, əlaqədar qurumlar tezliklə cari təmir işlərinə başlamağa söz veriblər. Düzü, təəccübləndim. Əgər söhbət mən gəldiyim magistral yoldan gedirsə, orada cari təmir işləri aparmaq mənasızdır və necə deyərlər, "şapalaqla üz qızartmaq"dır. Bəzən də yol təsərrüfatı işçiləri məsuliyyətdən qaçaraq deyirlər ki, bilirsiniz, dağ rayonudur, qar, yağış suları asfaltın altına dolur və yolu bu vəziyyətə salır. Tamamilə əsassız fikirlərdir, bəhanələrdir. Məgər yer üzündə dağlıq ərazilər bircə bizim ölkədə var? İsveçrənin yolları ilə gedərkən sanki nağıllar aləminə düşürsən. Bizdə niyə olmasın?

Nə isə, Şəmkir–Gədəbəy yolunun bərpası üçün nəqliyyat və turizm sektoruna cavabdeh olan təşkilatlar dərhal tədbir görməlidir. Hər ötən gün, Gədəbəyin inkişafına daha çox mane olur və əgər vaxtında addım atılmasa, bu vəziyyət bölgə üçün böyük itkilərə səbəb olacaq. Bir daha deyirəm ki, bu yolun bərpası vacibdir, yoxsa Gədəbəyin potensialı böyük zərər görəcək.

***Hamlet QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

*Bölgələrin ədəbi həyatı*

**Əgər müstəqillik dönəminə qədər bölgələrdə Azərbaycan Yazıçılar Birliyinin (AYB) cəmi 3 regional filialı fəaliyyət göstərirdisə, bu gün qurumun 15-dən çox yerli bölməsi var. Düz 10 il əvvəl – 2016-cı ilin yayında Şabran rayonunda da AYB-nin yerli bölməsi yaradılıb.**

# Qədim Şabranın çağdaş söz ocağı

...1578-ci ildə Osmanlı İmperiyası tərkibində Cənubi Qafqazda Dərbənd əyalətinin Şabran sancağı olub. Mərkəzi Şabran (qədim şəhər) idi. Sovet dövründə isə burada Dəvəçi adlı rayon 1930-cu ildə təşkil edilmişdi. Nəhayət, 2010-cu ildə qədim məkanın tarixi adı özünə qaytarılıb. Şabranın şair qızı Aybəniz Əliyar bu barədə öyünclə yazıb:

***Zamanın qulu – tarix,***
***İndi qul zaman oldu.***
***Qayıtdı ulu tarix,***
***Dəvəçi Şabran oldu!***



Klassik poeziyamızın bir çox maraqlı səhifələri məhz Şabranla bağlıdır. Fələki Şirvani Şirvanşahın əmri ilə Şabranda həbsə məhkum edilib və öz "Həbsiyyə"sini burada yaradıb. Ondan sonra ən böyük klassiklərindən olan Xaqani də Şirvanşah Axsitanın qəzəbinə tuş gələrək Şamaxıdan Şabrana sürgün edilib, 7 ay zindanda qalıb. Burada yazdığı şeirləri, ustadına hörmət və ehtiram əlaməti olaraq, o da "Həbsiyyə" adlandırıb. Aradan neçə əsr keçəndən sonra, 2012-ci ildə Xaqani yenidən Şabrana "qayıdıb" – bu dəfə möhtəşəm bir abidə kimi...

Onu da deyək ki, əslində, Şabran adında da, Dəvəçi adında da, bu yurdun Qalaaltı, Çıraqqala kimi toponimlərində də aşkar bir poetik çalar var və burada tarixdən, təbiətdən ilham alaraq bədii əsərlər yazmaq ənənəsi qədimlərdən gəlir. Buna görə də AYB bölməsinin yaradılması təbii qarşılanıb. O vaxt rayona rəhbərlik edən tanınmış yazıçı Novruz Novruzov (Nəcəfoğlu) bu təşəbbüslə çıxış edib və tanınmış yazıçı-publisist Aydın Tağıyev bölmənin rəhbəri təyin olunub.

Rayonda, eyni zamanda, Xaqani Poeziya Evi və Şabran Ədəbi Məclisi fəaliyyət göstərir. İllərdir ki, burada Xaqani Poeziya Günləri təntənə ilə qeyd edilir və bayram respublika əhəmiyyəti daşıyır. Şabran bölməsi daha 2 rayonu – Siyəzən və Xızını da özündə birləşdirir.

Bölmənin möhtəşəm tədbirləri sırasında Şabranda AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə birgə Əfzələddin Xaqaniyə həsr olunmuş elmi konfrans yada düşür. Həmin məclisdə hətta uzaq Çindən gəlmiş professor Huanq Zhongxianq da həvəslə iştirak edib.

Bu ilin martında Siyəzən şəhərində dahi dramaturq Cəfər Cabbarlının abidəsinin yeni məkanda – şəhərin mərkəzində təqdimatı da hər kəsə unudumaz təəssürat bağışlayıb. Böyük ədibin irsinə ehtiram nümunəsi olan bu təqdimat əsl mədəniyyət bayramı idi. Tədbirə AMEA-nın prezidenti İsa Həbibbəyli və tanınmış alimlər, Milli Məclisin deputatları, Cəfər Cabbarlının ev-muzeyinin direktoru Qəmər Seyfəddinqızı, AYB-nin katibi Elçin Hüseynbəyli, ədibin nəvəsi Vüqar Qaradağlı da qatılmışdılar.

Ötən həftə isə Xaqani adına Şabran Poeziya Evində ədəbi məclis üzvlərinin iştirakı mərhum şair Qəribxan Qocaoğlunun "Bir ömrün səsi" adlı şeirlər kitabının təqdimatı keçirilib.

**AYB Şabran bölmənin rəhbəri Aydın Tağıyevin dedikləri:**

– Son illər rayonda yazıçıların "İmza günləri", paytaxtdan gələn qələm adamlarının iştirakı ilə görkəmli yazıçılarımızın yubileyləri, yerli müəlliflərin yaradıcılıq gecələri, kitab təqdimatları, anım günləri keçirilməsi ənənə halını alıb. Məclis üzvlərinin əsərlərindən ibarət illik "Şabran nəğmələri", "Çıraqqala işığında" topluları, "Çıraqqala" rüblük ədəbi-bədii, publisistik toplusu işıq üzü görüb.

Şabran əbədi mühitinin canlandırılmasında yazıçı-publisist Novruz Nəcəfoğlunun xidmətləri böyük olub. Bir çox maraqlı roman, povest, hekayələr, publisistik kitabların müəllifi olan Novruz müəllimin respublika nəşriyyatlarında çapdan çıxan əsərləri ilə yanaşı, qardaş Türkiyədə də kitabları oxuculara təqdim edilib, əsərləri ingilis, rus dillərinə tərcümə olunub. Bir nasir kimi o, beynəlxalq mükafata layiq görülüb.

AYB-nin Şabran bölməsinin Sumqayıt, Quba, Şirvan bölmələri ilə sıx taradıcılıq əlaqələri var. Burada Aybəniz Əliyar, Nəcməddin Mürvətov, Qurban Məmmədov, Ənvər Zeynaloğlu, Bayram Novruz, Təvəkkül Kərim, Çingiz Xalidoğlu kimi qələm sahibləri var. Uzun illər rayondakı ədəbi birliyə rəhbərlik etmiş dəyərli şair Qafar Süleyman və Sabir Zöhramlı ötən il haqq dünyasına qovuşublar. Şabran yazarları göstərilən diqqət və qayğıya öz yaradıcılıq nümunələri ilə cavab verməyə çalışırlar. Məzahir Zeynalın yaradıcılığından bir bənd nümunə:

***Sabah sevgimizin doğum günüdür,***
***Qoynunu bizimçün açacaq səhər.***
***Sübh çağı göylərdən səda gəlməmiş***
***Baxışlar sevgidən tutacaq bəhər.***

Son illərdə Aydın Tağıyevin "Məktub", "İspan çəkməsi" və "Məhkəmə günü", Aybəniz Əliyarın "Darıxmaq", "Vətən andı" və "Ruhumun aynası", Nəcməddin Mürvətovun "Dünyamızın zərrəsiyəm" və "Şairdə sirr olmur..." kitabları, "Otuz il, qırx dörd gün" pyesi oxuculara ərməğan edilib.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Regionlarda məmur təlimləri



**Dövlət İmtahan Mərkəzi ölkənin regionlarında inzibati ərazi bölgüsünə əsasən, dövlət qulluqçuları üçün təlimlər keçirməyə başlayıb.**

Təlimlər Prezident İlham Əliyevin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın 1-3-cü bəndlərində nəzərdə tutulan tədbirlər üzrə müəyyən edilib.

Aprelin 14-dən başlayan təlimlər Zaqatala, Balakən, Qax rayonlarında və Şəki şəhərində təşkil olunub. Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən "Ünsiyyət bacarıqlarının inkişafı", "Dövlət qulluğunda vakant inzibati vəzifələrin idarə edilməsi", "Cəmiyyətə xidmət psixologiyası: dövlət qulluqçusunun daxili motivasiyası" mövzularında dövlət qulluqçuları üçün təlimlər keçirilib. Təlimlər zamanı mövzularla bağlı iştirakçılara məlumatlar verilib, müzakirələr aparılıb və onların sualları cavablandırılıb.

Qeyd edək ki, təlimlər ilin sonunadək digər şəhər və rayonlarda davam edəcək.

***XQ***

# Qədim Kəngər-Hörmüz boğazı, siyasi təlatümlər mərkəzi...




**Qədim Kəngər boğazı hazırda Hörmüz boğazı adlanan, dünyanın siyasi və iqtisadi xəritəsində kiçik görünən, amma təsiri çox böyük olan bir nöqtədir.**

Tarix boyu Hörmüz yalnız coğrafi məkan olmayıb, həm də güc və nəzarət uğrunda mübarizənin simvoluna çevrilib. Qədim dövrlərdən başlayaraq müxtəlif imperiyalar bu boğaza sahib çıxmaq istəyib, çünki onu nəzarətdə saxlamaq ticarət yollarına hakim olmaq demək idi. Müasir dövrdə isə bu ərazi beynəlxalq siyasətin ən həssas nöqtələrindən biridir: burada baş verən hər hansı gərginlik qlobal enerji bazarlarını silkələyə, hətta böyük siyasi qarşıdurmalara yol aça bilər.

Hörmüz boğazı Fars körfəzi ilə Oman körfəzi arasında yerləşən dar, lakin həyati əhəmiyyət daşıyan bir keçiddir. Bu boğaz sanki dünya iqtisadiyyatının nəbzi kimi döyünür, çünki planetdə istehsal olunan neftin bir hissəsi məhz buradan keçərək qlobal bazarlara çatdırılır.

Bu gün Hörmüz boğazı təkcə xəritədə bir xətt deyil, həm də dövlətlərin maraqlarının toqquşduğu, strateji hesablaşmaların aparıldığı və dünyanın diqqətini daim yönəldiyi bir boğazdır. Qədim Kəngər-Hörmüz boğazının üzərində su sakit görünsə də, alt qatında böyük geosiyasi dalğalar təlatümdədir.

Körfəzin sahilində İrandan əlavə, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Qətər, Bəhreyn, Küveyt, İraq dövlətləri yerləşir. Dəclə və Fərat çaylarının qovuşması nəticəsində yaranan Şəttül-Ərəb çayı İran körfəzinə tökülür.

İran-İraq müharibəsi zamanında da Kəngər boğazı zərbə altına alınıb. İran iddia edirdi ki, körfəz tam olaraq onun nəzarətində olmalıdır. Hələ 1983-1988-ci illərdə İraq İranın gəmilərinə zərbə endirirdi. 1988-ci ildə Kəngər körfəzində ABŞ-la İran arasında baş verən qarşıdurmada ABŞ İran gəmilərinə zərbə vurdu, İran isə öz növbəsində, ABŞ-ın katerlərini batırdı. Həmin il hətta ABŞ İranın bir sərnişin təyarəsini səhvən vurur və İranın 290 adamı həlak olur.

### Hörmüz boğazı kimindir?

Kəngər körfəzinin hansısa bir dövlətə aid olması əslində mübahisəli məsələdir. Kəngər körfəzindən Mesopatamiya zamanından bu yana min illərdir ki, ticarət yolu kimi istifadə olunub. 19-20-ci əsrlərdə, xüsusilə 20-ci əsrin əvvəllərində ərazilərdə neft yataqları tapıldıqdan sonra Kəngər körfəzinin aktuallığı daha da artıb. Əslində qədimdə bu ərazidə Hörmüz adında bir dövlət də olub, körfəzin indiki adı da oradan götürülüb.

1515-ci ildə portuqaliyalılar o əraziləri işğal edib orada bir qala tikiblər və 100 ildən artıq 1622-ci ilədək o ticarət yoluna nəzarət ediblər. 1622-ci ildə Səfəvilər dövlətinin hökmdarı 1 Şah Abbas və britaniyalılar portuqaliyalıları oradan qovublar. Ondan sonra iki əsr ərzində, 1971-ci ilədək bu məkana britaniyalılar nəzarət edib.

Körfəzin ümumi sahəsi 239 000 km², uzunluğu 926, eni 180–320, boğazın dar hissəsi 33-34 kilometr, orta dərinliyi 50 metrə yaxın, maksimal dərinliyi 102 metrdir.

1908-ci ildə Qacar dövlətinin ərazisində neft yatağı aşkar olunduqdan sonra Kəngər körfəzi strateji bir məkana çevrilib. 1950-ci ildən – İranda neft istehsalı artdıqdan sonra Kəngər körfəzinin aktuallığı daha da artıb. Beləcə, uzun illər Hörmüz boğazından dünya bazarına çıxarılan neft indiki İran ərazisində yaşayan xalqların, o cümlədən Azərbaycan türklərinin sosial və maddi vəziyyətinin yüksəldilməsinə xidmət edib.

Müharibədən əvvəl Hörmüz boğazından gündə dünya bazarına təxminən 20 milyon barrel neft və neft məhsulları aparılıb, bu rəqəm isə ildə 7, 7,53 milyard barrel karbohidrogen ehtiyatları deməkdir. Bu da qlobal neft ticarətinin təxminən 20%-nə (beşdəbirinə) bərabərdir. Belə olduqda Hörmüz boğazı dünya enerji təchizatında ən strateji və kritik "boğazlardan" birinə çevrilir.




Bu gün İran bu ərazini nəzarətə götürüb və körfəzin 97 faizi bağlıdır. İran özünə dost saydığı ölkələrin tankerlərinin oradan çıxarılmasına imkan verir. Bu ölkələr Rusiya, Çin, Hindistan və Pakistandır. İran ABŞ-ın irəli sürdüyü 15 şərti tanımır və öz şərtlərini irəli sürür.

Əslində BMT-nin konvensiyasına görə Hörmüz boğazı heç bir dövlətin mülkü deyil, beynəlxalq sular sayılır. İran 1983-cü ildə həmin sənədə imza atıb, ancaq sənədi paraflamayıb. 1995-ci ildə Bəhreyn həmin boğaza nəzarət etməyə başlayıb. İran deyir ki, bu məkanda sahildən 12 mil, yəni 22 kilometr İran ərazisi sayılır. Həmin fikri Oman da irəli sürür, yəni dövlətin sahilindən 12 mil Oman ərazisidir.

Dünyada belə düşünənlər də var ki, körfəz İran, BƏƏ, Omanın nəzarətində olmalıdır. Boğazın ən dar hissəsi, yəni 33-34 kilometri İranla Oman arasına düşür və beynəlxalq konvensiyaya görə bu, beynəlxalq ərazi sayılır.

### Körfəzin müxtəlif adları

Farslar bu dar su yolunu İran və ya Fars körfəzi, 1960-cı illərdən sonra ərəb milliyyətçiləri Ərəb körfəzi adlandırmağa başlayıb. İran körfəzi və ya Fars körfəzi İran və Ərəbistan yarımadası arasındakı Hörmüz boğazı vasitəsilə Oman körfəzi, Ərəbistan dənizi və Hind okeanı ilə birləşir. Türklər bu körfəzi Bəsrə körfəzi də adlandırıb. Bu ad tarixi köklərə bağlıdır və Osmanlı imperiyası dövründə körfəz bu adla tanınıb.

Qədim yunan mənbələrində, həmçinin Herodotun yazılarında bu məkanın adı Qırmızı dəniz, qədim Babil qaynaqlarında Akkaddan şimalda yerləşən dəniz adlandırılıb.

Eradan əvvəl 550–330-cu illər arasında mövcud olan ilk fars dövləti – Əhəmənilər imperiyası dövründən bəri bu körfəz Pars dənizi adlanıb.

Son dövrlərdə körfəzin Fars körfəzi və ya Ərəb körfəzi adlandırılması bəzi ərəb ölkələri ilə İran arasında ciddi mübahisəyə səbəb olub. 2010-cu ildən bəri İranda İslam və Mədəni İnqilab Ali Şurası tərəfindən aprelin 30-nun rəsmi olaraq Fars körfəzi günü kimi qeyd olunması ilə bağlı qərar verilib. Bununla əlaqədar İran poçt xidməti ayrıca markalar buraxıb.

Körfəzlə bağlı orta əsr Avropa kartoqrafları tərəfindən çəkilən xəritələrdə də adlardan istifadə olunub. Alman kartoqrafı Qustav Droysenin "945-ci ilədək Xilafət dövləti" ("Das Reich der Kalifen bis 945") xəritəsində körfəzin o dönəmdəki ərəbcə adı olan Bəhr-ül Farsi (Fars dənizi) almanca Grünes Meer, yəni Yaşıl dəniz kimi qeyd olunub.

16-cı əsrdə alman kartoqrafı Gerhard Merkatorun 1561-ci ildə çəkdiyi dünya xəritəsində körfəzin adı latınca Mare di Mesendin, yəni Müsəndəm dənizi adlanıb. Bu ad Ərəbistan yarımadasının şimal-şərq nöqtəsində yerləşən Müsəndəm yarımadasının adı ilə bağlıdır. Həmin yarımada hazırda Oman və Birləşmiş Ərəb Əmirlikləri arasında bölünüb.

Digər bir kartoqraf Abraham Orteliusun 1570-də çəkdiyi xəritədə isə körfəz latınca Mare El Catif, yəni Qətif dənizi adlandırılıb. Bu ad isə Səudiyyə Ərəbistanının şərq sahilindəki əş-Şərqiyyə məntəqəsində yerləşən Qətif şəhərinin adı ilə bağlı olub.

İran Xarici İşlər Nazirliyinin sözçüsü Ramin Mehmanpərəst ölkəsinin körfəz bölgəsinə münasibətindən danışarkən deyib: "Körfəzin adı hamıya aydındır. Qərb dövlətləri öz tarixi sənədlərinə nəzər yetirsə, buna bir daha əmin olarlar. Bölgə Fars körfəzi adını daşıyıb və daşıyacaq. Heç kəsin Fars körfəzinin adını dəyişməyə nə haqqı var, nə də imkanı. İran xalqı körfəzin adının dəyişdirilməsinə dözməz. Fars körfəzinin adı mübahisəsizdir. Biz başqa adla nə razılaşmışıq, nə də ki, razılaşacağıq".

### Körfəz Ərəb Ölkələrinin Əməkdaşlıq Şurası

Körfəz Ərəb Ölkələrinin Əməkdaşlıq Şurası və ya qısa olaraq Körfəz Əməkdaşlıq Şurası 1981-ci il mayın 25-də Küveyt, Bəhreyn, Səudiyyə Ərəbistanı, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Oman dövlətləri tərəfindən yaradılıb və bu, ərəb ölkəsinin beynəlxalq iqtisadi birliyidir. İştirakçı dövlətlərin ümumi razılığı ilə rəsmi sənədlərdə birliyin adında "Fars" sözü işlədilmir. İran bu birliyə daxil olunmayıb. Yəmən 2006-cı ildən üzvlük üçün müraciət edib.

Şuranın üzvü olan dövlətlər arasındakı iqtisadi razılaşma 1981-ci il noyabrın 11-də Ər-Riyadda imzalanıb.

Körfəz Əməkdaşlıq Şurasının üzvləri öz üzərlərinə iqtisadiyyat, maliyyə, ticarət, gömrük, turizm, sənaye, mədənçilik, əkinçilik, su ehtiyatları sahələrində əməkdaşlıq, elmi tədqiqat mərkəzləri yaratmaq, müştərək olaraq ticarət etmək, "Khaleeji" adlı ortaq pul vahidi yaratmaq kimi öhdəliklər götürüblər.

### İslam həmrəyliyi idman oyunları niyə keçirilmədi?

İslam Konfransı Təşkilatı 2001-ci ildə İranda "İslam həmrəyliyi idman oyunları"-nın keçirilməsi ilə bağlı qərar qəbul edib. Xatırladırıq ki, birinci oyunlar 2005-ci ildə Səudiyyə Ərəbistanında baş tutub. Birinci oyunlarda Özbəkistan, Albaniya və Toqo istisna olmaqla 53 müsəlman dövlətindən 6,5 min idmançı iştirak edib. Bu il keçiriləcək yarışlar keçən ilin oktyabrında olmalı idi. Bir problem ucbatından bu oyunların keçirilməsi təxirə salınıb. Məsələ burasındadır ki, İran yarışların loqosunda medalların və mükafatların üzərindən "Fars körfəzi" ifadəsinin yazılmasını tələb edib. Səudiyyə Ərəbistanının təmsilçiləri isə loqoda, medalların və mükafatların üzərində "Ərəb körfəzi" və ya sadəcə olaraq "Körfəz" yazılmasının tərəfdarı kimi çıxış ediblər.

*

Xatırladırıq ki, aprelin 8-də İran və ABŞ iki həftəlik atəşkəs elan ediblər, ayın 11-12-də İslamabadda Amerika Birləşmiş Ştatları və İran arasında aparılan danışıqlar nəticəsiz başa çatdıqdan sonra ABŞ Prezidenti Donald Tramp boğazın dəniz blokadasına alınacağını bildirmişdi.

İran Xarici İşlər Nazirliyinin sözçüsü bildirib ki, nə Vaşinqton, nə də Tehran hələlik atəşkəsin uzadılması barədə rəsmi razılığa gəlməyiblər, lakin əlaqələr Pakistanın vasitəçiliyi ilə davam edir.

Vasitəçilər atəşkəsin aprelin 22-də bitməsindən əvvəl həftəsonu danışıqlari pozan üç əsas mübahisəli məsələdə güzəştə getməyə çalışırlar. Bunlar İranın nüvə proqramı, Hörmüz boğazı və müharibənin vurduğu ziyana görə kompensasiyadır.

Bəli, İran ABŞ tərəfindən dəniz blokadasına alınıb. Bundan sonra hadisələr necə cərəyan edəcək...

Yaşayarıq, görərik.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan üzrə xüsusi müxbiri*
**Daşkənd**

# Milli Məclisin Belçika və Niderland parlamentlərinə kəskin etirazı



**Belçika və Niderlandın Nümayəndələr palataları 2026-cı il aprelin 16-da Azərbaycan-Ermənistan sülh prosesinə, hər iki ölkənin birgə səyləri ilə regionda sülh və əməkdaşlıq mühitinin formalaşmasına yönəlmiş addımlara zərbə vurmaq məqsədi daşıyan qətnamələr qəbul etmişdir. Azərbaycan Respublikasının Milli Məclisi ölkəmizin suveren ərazisinə təhrif edilmiş formada istinad edən, saxta iddialar və əsassız ittihamlar üzərində qurulmuş bu birtərəfli və qərəzli sənədləri kəskin şəkildə qınayır və qətiyyətlə rədd edir.**

Bu fikirlər Milli Məclisin məsələ ilə bağlı açıqlamasında yer alıb.

Açıqlamada, həmçinin qeyd olunur: "Azərbaycan ilə Ermənistan arasında mövcud olmuş münaqişənin tarixini və nəticələrini təhrif edən, ənənəvi anti-Azərbaycan, islamofob dairələrin qeyri-sağlam və irqçi təxəyyülündən irəli gələn bu sənədlər beynəlxalq hüququn və qanunun aliliyinin kobud şəkildə pozulması, regionda davam edən və həssas mərhələdən keçən sülh prosesinə qarşı təxribatdır.

Bu sənədlərin xüsusilə Azərbaycan və Ermənistanın parlament sədrlərinin növbəti görüşünün keçirildiyi bir vaxtda qəbul edilməsi onların "təşəbbüskarları"nın regiondakı reallıqlardan uzaq olduqlarını, əsl niyyətlərinin sülh və dialoq təşviq etmək deyil, məhz düşmənçiliyi və qisasçılığı qızışdırmaq olduğunu bariz şəkildə göstərir.

Belçika Nümayəndələr Palatasının qəbul etdiyi sənəddə tarixi Vaşinqton Sülh Sammitinə heç bir istinadın olmaması, Sammitin nəticələrinin, o cümlədən "Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş"in paraflanmasının qeyd edilməməsi sənədin müəlliflərinin və onun lehinə səs verənlərin mövzu ilə bağlı "savadlılığı"nın və xroniki hal almış qərəzliliyinin daha bir əyani nümunəsidir.

Azərbaycan-Ermənistan sərhədində vəziyyəti hərbi baxımdan riskli hesab edən və bunu Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının davamlı fəaliyyəti üçün əsas kimi qələmə verən sənəd müəlliflərinin qiymətləndirmələri, ilk növbədə, Ermənistanın rəsmi şəxslərinin ictimaiyyətə açıqlanan mövqeyi ilə ziddiyyət təşkil edir. Məhz Azərbaycan tərəfinin sülhə yönəlmiş addımları və məsuliyyətli davranışı nəticəsində son iki il sərhəddə hər hansı hərbi insidentin baş verməyi ən sakit dövr kimi xarakterizə olunur və bu, Ermənistan tərəfindən də təsdiq edilir.

Müharibə və insanlıq əleyhinə cinayətlər törətdiyi şəffaf və açıq hüquqi proses yolu ilə sübuta yetirilmiş şəxsləri "müharibə əsiri" kimi qələmə vermək və onların azadlığa buraxılmasını tələb etmək, hər şeydən əvvəl, sözügedən sənədlərdə istinad olunan beynəlxalq hüquq normalarına, insan hüquqlarına və qanunun aliliyinə qarşı qəsddir.

Məhkum edilmiş həmin şəxslərin istintaq və mühakimə prosesində bütün hüquqlarının qorunduğu, onlar üzərində məhkəmə prosesinin qanuniliyi mövcud bitərəf beynəlxalq mexanizmlər tərəfindən təsbit edilmişdir. Bu kontekstdə, həmin şəxslərin azad edilməsi, habelə onların mühakimə prosesi ilə əlaqədar Azərbaycana qarşı tədbirlərin görülməsi ilə bağlı Ermənistan tərəfindən edilmiş müraciətlərin vaxtilə Beynəlxalq Ədalət Məhkəməsi tərəfindən bir neçə dəfə rədd edilməsi xüsusilə qeyd olunmalıdır.

Eyni qaydada, BMT İnsan Hüquqları Şurasının Əsassız həbslər üzrə İşçi Qrupunun 2025-ci il 13 mart tarixli müvafiq rəyində qeyd olunan şəxslərin Azərbaycan tərəfindən həbsinin və mühakiməsinin qanuniliyi təsbit edilmiş, həmin şəxslərin hüquqlarının pozulmasına dair iddialar təmin edilməmişdir.

Biz qeyd olunan əsassız çağırışların ünvanlandığı aidiyyəti dövlətlərin və Avropa İttifaqının ikitərəfli dialoq vasitəsilə qətiyyətlə irəlilədilən sülh prosesinə pozucu müdaxilədən çəkinəcəyini gözləyir, onları belə təxribatçı addımların təkrarlanmaması üçün zəruri tədbirlər görməyə dəvət edirik".

Milli Məclis Belçika və Niderland parlamentlərindən Azərbaycana qarşı nifrət kampaniyasına və regionda sülhün möhkəmləndirilməsi səylərinə zərbə vuran addımlara son qoymağı tələb edib. Bildirilib ki, bu addımlar hazırkı həssas mərhələdə yalnız sülh əleyhinə fəaliyyət göstərən revanşist qüvvələrin həvəsləndirilməsinə deyil, həm də Avropa İttifaqının regionla bağlı bəyan edilmiş təhlükəsizlik və iqtisadi maraqlarına xələl gətirilməsinə xidmət edir.

*XQ*

# Uşaqlara sosial-emosional öyrənmə dəstəyi



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə uşaq evi sosial xidmət müəssisələrinin uşaqları üçün sosial-emosional öyrənmə proqramı həyata keçirilir.**

IDEA İctimai Birliyi, ADA Universiteti və Sosial Xidmətlər Agentliyinin birgə tərəfdaşlığı ilə icra olunan proqram sosial xidmət müəssisələrində yaşayan uşaqların sosial və emosional bacarıqlarının inkişafını dəstəkləyir. Proqramın icrasına ötən aydan etibarən başlanılıb və hazırda uğurla davam etdirilir.

Proqram çərçivəsində 1, 2 və 3 saylı uşaq evi sosial xidmət müəssisələrində yaşayan uşaqlar üçün həftəlik təlim sessiyaları təşkil olunur. Sessiyalarda 100-dən çox uşaq iştirak edir. Təlimlər zamanı iştirakçıların ünsiyyət, özünüifadə, emosiyaların idarə olunması, komanda işi və qarşılıqlı əməkdaşlıq bacarıqlarının inkişafına xüsusi diqqət yetirilir.

Proqram çərçivəsində təşkil olunan təlimlər ADA Universitetinin tələbələri tərəfindən həyata keçirilir. Təlim prosesinin effektivliyinin və keyfiyyətinin təmin edilməsi məqsədilə universitetin müəllim heyəti tərəfindən iştirakçılara mütəmadi metodiki dəstək göstərilir, sessiyaların məzmunu və yanaşmaları üzrə müvafiq istiqamətləndirmə aparılır.

Təşəbbüsün əsas məqsədi sosial xidmət müəssisələrində yaşayan uşaqların sosial-emosional inkişafını dəstəkləmək, onların özünəinamını gücləndirmək, ünsiyyət bacarıqlarını inkişaf etdirmək və cəmiyyətə daha fəal inteqrasiyasına töhfə verməkdir.

*XQ*

*Epidemioloji durum*

# Ötən illə müqayisədə yoluxmalar azalıb

**Yoluxucu xəstəliklər patogen mikroorqanizmlərin, virusların və prionların orqanizmə daxil olması nəticəsində yaranan xəstəliklər qrupudur. Mikrobun yoluxucu xəstəlik törətməsi üçün onun zəhərlilik miqdarı, yəni orqanizmin müqavimətini üstələmək və zəhərli təsir göstərmək qabiliyyəti olmalıdır. Bəzi patogen agentlər həyat fəaliyyəti zamanı ifraz etdikləri ekzotoksinlərlə orqanizmin zəhərlənməsinə səbəb olur, digərləri məhv edildikdə toksinlər əmələ gətirir.**

İnfeksionistin, yəni yoluxucu xəstəlikləri araşdıran, təhlil edən, doğru müayinə və tədqiqdən sonra diaqnoz qoyub bu xəstəlikləri müalicə edən həkimlərin fikrincə, yoluxucu xəstəliklərin xüsusiyyətlərindən biri inkubasiya dövrünün, yəni yoluxma anından ilk klinik əlamətlərin görünməsinə qədər olan vaxtın olmasıdır. Bu dövrün müddəti infeksiya üsulundan və patogenin növündən asılıdır və bir neçə saatdan bir neçə ilə qədər davam edə bilər.

Son dövrlərdə infeksion xəstəliklərin sürətlə yayılması ilə insanlar arasında bir təşviş əmələ gəlib. Nəzərə alsaq ki, bəzi yoluxucu xəstəliklərin peyvəndi hələ də mövcud deyil, insanlar infeksion xəstəliklərə yoluxmamaq üçün ciddi tədbirlər alıb, gigiyenik qaydalara incəliyinə qədər riayət etməlidirlər.

**Ölkədə infeksion xəstəliklərin yayılma səviyyəsi, yoluxmalara qarşı görülən tədbirlərlə bağlı cəmiyyəti maarifləndirmək məqsədilə Kliniki Tibbi Mərkəzin yoluxucu xəstəliklər şöbəsinin müdiri Xatirə Əliyeva ilə görüşüb XQ üçün müsahibə aldıq.**

Qeyd edək ki, həkim Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinin məzunudur. 1989-cu ildən həmin tibb ocağında çalışır. İlk illər həkim-infeksionist kimi fəaliyyətə başlayan gənc xanım illər keçdikcə səhiyyənin, əsasən də yoluxucu xətəliklərin müalicəsində yenilikləri və incəlikləri mənimsəyib və 38 illik böyük təcrübə qazanıb. Ötən illərdə qüsursuz xidmətə, aktiv fəaliyyətinə görə dəfələrlə xəstəxana rəhbərliyinin təşəkkürnamələri ilə mükafatlandırılıb.

Bütün dünya, eləcə də ölkəmiz COVID–19 pandemiyası ilə sınağa çəkiləndə Xatirə xanım günlərlə xəstəxanada gecələyib, ölüm-dirim mübarizəsi aparan yüzlərlə insanın həyatda qalması üçün əlindən gələni əsirgəməyib. Məhz onun pandemiya dövründə göstərdiyi fədakarlıq və aktiv fəaliyyət dövlət başçısı tərəfindən dəyərləndirilib. Prezident İlham Əliyev həmin dövrdə öz çıxışlarında həkimlərin əvəzsiz fədakar əməyini dəfələrlə vurğulamışdı. Yuxusuz gecələrdə istirahət bilmədən xəstələrin sağalması üçün var gücü ilə çalışan Xatirə Əliyeva 2021-ci ildə dövlət başçısının sərəncamı ilə "Tərəqqi" medalına layiq görülüb.



**– İnfeksion xəstəliklərin təsnifatı və yoluxma yolları barədə ilk sualımızı şöbə müdiri belə cavablandırdı:**

– Yoluxucu xəstəliklər təsnifatına görə, bakterial (stafilokok, streptokok, vərəm) infeksiyalar, virus infeksiyaları, göbələk və ya funqal (kandidiaz, dermatofitiya (tənəffüs göbələyi) kimi xəstəliklər) infeksiyalar, həmçinin parazitar (malyariya, trixomoniasis və qurd xəstəlikləri) infeksiyalara bölünür.

İnfeksion xəstəliklərin yoluxma yolları da müxtəlifdir. İlkin olaraq, hava-damcı yolu ilə yayılan infeksiyalar, qida və ya su vasitəsilə yayılanlar, qan və ya bədən mayeləri ilə yayılan infeksiyalar, həmçinin dəri təması – heyvanlar və həşəratlar vasitəsilə yayılan infeksiyaları qeyd edə bilərik.

**– İnsanın hər hansı infeksiyaya yoluxması özünü hansı əlamətlərlə göstərir və xəstəlik necə təsdiqlənir?**

– İnfeksion xəstəliklərin özünü xüsusi büruzə vermə əlamətləri var. Öncə xəstədə bədən temperaturunun yüksəlməsi diqqət çəkir. Bundan sonra ümumi halsızlıq, baş və ya əzələ ağrıları müşahidə edilir və xəstəlik öskürək, boğaz ağrısı, ishal, qusma və dəri səpkiləri ilə özünü göstərir.

Yoluxucu xəstəliklərin diaqnozunu qoymaq üçün müxtəlif müayinə üsullarından istifadə olunur. Klinik müayinələr, laborator analizlər, qan və sidiyin mikrobioloji testləri, PZR (polimeraz zəncirvari reaksiya) və seroloji testlər, həmçinin radioloji müayinələr, yəni rentgen, kompüter tomoqramma müayinəsi aparılır.

Onu da qeyd edim ki, yoluxucu xəstəliklərin diaqnozunun qoyulmasında terapevtik xəstələrdən fərqli olaraq, epidemioloji anamnezin toplanması mühüm əhəmiyyət kəsb edir. Ən çox hava damcı infeksiyalarında – məsələn, qrip, suçiçəyi, qızılca zamanı xəstənin yoluxucu xəstə ilə kontaktda olub-olmaması öyrənilir. Tropik malyariya, hemorragik qızdırmalar zamanı xəstənin səyahətdə olub-olmaması, mədə-bağırsaq infeksiyasında çiy su içməsi, qarışıq və köhnə qida qəbulu, virus hepatitləri, HİV–SPİD infeksiyası aşkarlananda qan köçürülüb-köçürülməməsi kimi sorğulara cavab toplanır. Bu, xəstəliyin dəqiqləşdirilməsi və düzgün diaqnoz qoyulması üçün çox vacib üsuldur.

**– Yəqin ki, xəstənin hansı virusa yoluxmasından asılı olaraq, sağalma müddəti də fərqli olur? Hansı infeksiyaları daha təhlükəli hesab edirsiniz?**

– Yoluxucu xəstəliklərin sağalma müddəti müxtəlif səbəblərdən asılıdır. Yəni bu müddət dəyişə bilər. Bu səbəblərə xəstəliyin növü, xəstənin ümumi vəziyyəti – immuniteti, müalicənin düzgün aparılıb-aparılmaması aiddir. Bəzi infeksiyaların ömrü qısa olur, müalicəyə tez tabe olur və xəstə bir neçə günə sağalır. Bəziləri isə həftələrlə, bəzən aylarla davam edir.

Qan yolu ilə yayılan infeksiyalar və tənəffüs yolu infeksiyaları digər infeksiyalara nisbətən daha təhlükəli hesab olunur. Buna hepatit viruslarını, bronxların xroniki xəstəliklərini misal göstərə bilərik.

**– İnfeksionist həkim olaraq, müalicə, müayinə, ümumiyyətlə, xəstələrlə təmas zamanı yoluxmaq ehtimalı barədə düşünürsünüzmü?**

– Yoluxucu xəstəliklər şöbəsində çalışanlar xüsusi qorunma qaydalarına əməl etməlidirlər və buna riayət edilir. Onlar yaxşı bilirlər ki, fərdi qoruyucu vasitələrdən – maska, əlcək, qoruyucu geyimdən istifadə edilməli, sterilizasiya və dezinfeksiya qaydalarına, eyni zamanda, təhlükəsiz iş protokollarına ciddi əməl olunmalıdır.

**– Xəstəliyin daha çox müşahidə edilməsinə mövsümün, yaxud insanın yaşının təsiri varmı?**

– Bəzi yoluxucu xəstəliklər mövsümü xarakter daşıyır. Belə ki, havaların tez-tez dəyişməsi ilə əlaqədar olaraq qış və yaz aylarında daha çox tənəffüs yolu infeksiyaları yayılır. Bunlar da hava-damcı yolu ilə insandan-insana keçir. Bağırsaq infeksiyaları isə yay aylarında daha çox müşahidə edilir. Yoluxucu xəstəliklər üçün yaş fərqi yoxdur. Eyni infeksiyaya hər yaşda insan yoluxa bilər. Lakin burada bir nüansa xüsusi diqqət edilməlidir. Yaşlılar, kiçikyaşlı uşaqlar və immuniteti zəif olanlar bu xəstəliklərə qarşı daha həssasdırlar. Müalicə yoluxma yolunun səbəbindən asılı olmayaraq aparılmalıdır. Xəstədə bakterial infeksiya aşkarlanıbsa, ona antibiotik müalicəsi aparılır. Viral infeksiyaya yoluxubsa, müalicə üçün antiviral və digər preparatlardan istifadə olunur.

**– Hazırda infeksion xəstəliklərin yayılması ilə bağlı vəziyyət necədir? Profilaktik tədbirlərin köməyi varmı?**

– Havaların dəyişkən keçməsi ilə əlaqədar olaraq məktəblərdə uşaqlar arasında boğaz ağrısı, temperaturun yüksəlməsi, öskürəklə müşahidə olunan qrip (influenza) infeksiyası yayılmışdır. Bu xəstəlik A və B tip influenza virusları tərəfindən törədilir. Virus öskürək və asqırma yolu ilə (hava-damcı) asanlıqla yayılır. Bəzən uşaqlarda ürəkbulanma, qusma və ishal kimi əlamətlər də ola bilər. Amma risk qrupları vardır ki onlar qrip infeksiyasını ağır keçirə bilərlər. Bunlar yaşları 65-dən yuxarı olanlar, 5 yaşdan kiçik uşaqlar, hamilə qadınlar, xroniki xəstəlikləri olanlar və immun sistemi zəif şəxslərdir.

Qripə qarşı hər il vaksinasiya etmək, əllərin tez-tez yuyulması və xəstə insanlarla yaxın təmasdan çəkinmək kimi profilaktik tədbirlər xəstəliyin yayılmasını azalda bilər. Ötən illə müqayisədə bu il daha çox hava-damcı infeksiyasına yoluxmalar müşahidə edilir.

İnfeksionist həkim olaraq tövsiyə edirəm ki, yaşından asılı olmayaraq, infeksion xəstəliklərdən qorunmaq üçün gigiyena qaydalarına əməl etmək, sağlam qidalanmaq, immuniteti gücləndirmək və profilaktik vasitələrdən olan peyvəndlərdən istifadə etmək lazımdır. Peyvəndlər infeksiyaların qarşısını almaq üçün ən effektiv vasitələrdən biridir və bir çox xəstəliklərin yayılmasını əhəmiyyətli dərəcədə azaldır. Biz pandemiya dövründə vaksinasiyanın əhəmiyyətini təcrübədə müşahidə etdik.

***Müsahibəni hazırladı:***
***Zərifə HÜSEYNOVA***
***XQ***

*Sosial gündəm*

# Dövlət dəstəyi cəmiyyətə rifah, insanlara məmnunluq gətirir

## *Son 7 ildə 5 sosial paket 4 milyon insanı əhatə edib*

**Ölkəmizdə sosial dövlət modeli yeni inkişaf dövrünə daxil olub. Bu mərhələ yalnız sosial təminat tədbirlərinin genişlənməsi ilə deyil, həm də onların effektivliyinin artırılması, hədəfliliyinin gücləndirilməsi və dayanıqlılığı ilə səciyyələnir.**

Müasir dövrdə sosial dövlət anlayışı təkcə sosial yardımların verilməsi ilə məhdudlaşmır, vətəndaşların rifahının yüksəldilməsi, sosial ədalətin təmin edilməsi, insan kapitalının inkişafı və inklüziv iqtisadi artımın dəstəklənməsi kimi daha geniş məqsədləri əhatə edir. Sosial dövlət modeli yeni inkişaf mərhələsində daha sistemli, hədəfli və müasir yanaşmalar əsasında formalaşır. Məqsəd yalnız sosial müdafiəni təmin etmək deyil, həm də vətəndaşların potensialını reallaşdırmaq, onların həyat keyfiyyətini yüksəltmək və cəmiyyətin inkişafına töhfə verməkdir.

Son illərdə minimum əməkhaqqı, pensiya və sosial müavinətlərin artırılması əhalinin həssas təbəqələrinin rifahının yaxşılaşdırılmasına yönəlmiş mühüm addımlardandır. Bu artımlar inflyasiya təzyiqlərinin kompensasiya olunması, əhalinin alıcılıq qabiliyyətinin və sosial bərabərliyin gücləndirilməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Sosial dövlət modelinin yeni mərhələsinin əsas xüsusiyyətlərindən biri aktiv məşğulluq siyasətinin genişləndirilməsidir. Özünüməşğulluq proqramları, peşə hazırlığı kursları və əmək bazarına inteqrasiya tədbirləri işsizliyin azaldılmasına və vətəndaşların iqtisadi fəallığının artırılmasına xidmət edir. Xüsusilə regionlarda kiçik bizneslərin qurulmasına dəstək verilməsi, sosial xidmətlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi də diqqət mərkəzindədir.

Əlilliyi olan şəxslərin, şəhid ailələrinin və digər həssas qrupların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən proqramlar sosial dövlət prinsiplərinin real həyata tətbiqinin göstəricisidir. Mənzil təminatı, reabilitasiya xidmətləri və sosial infrastrukturun inkişafı bu sahədə əldə olunan mühüm nailiyyətlər sırasındadır.

Rəqəmsallaşma sosial dövlət modelinin inkişafında mühüm rol oynayır. Elektron hökumət xidmətlərinin genişləndirilməsi, sosial reyestrlərin yaradılması və məlumat bazalarının inteqrasiyası sosial siyasətin daha çevik və operativ həyata keçirilməsinə imkan verir. Bu, həm də resursların daha səmərəli idarə olunmasına şərait yaradır. Yeni mərhələdə diqqətçəkən digər mühüm istiqamət isə işğaldan azad edilmiş ərazilərdə sosial infrastrukturun bərpası və əhalinin sosial təminatıdır. Bu ərazilərə qayıdan əhalinin məşğulluğu, sosial xidmətlərlə əhatə olunması və yaşayış şəraitinin yaxşılaşdırılması sosial dövlət modelinin inklüzivliyini daha da gücləndirir, yerli iqtisadiyyatın canlanmasına və sosial rifahın yüksəlməsinə müsbət təsir göstərir.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında ictimai şuranın sədri Elşad Məmmədov** bildirdi ki, ölkə başçısının sosial ədalət və inklüziv dəyərlərə əsaslanan uğurlu rifah siyasəti nəticəsində bir-birinin ardınca icra olunan sosial islahatlar ölkəmizdə sosial inkişafın həm əhatəliliyinə, həm də davamlılığına təminat yaradıb. Dövlətimizin başçısının sosial sahəyə diqqət və qayğısını ifadə edən "bizim bütün siyasətimiz həm sosialyönümlüdür, həm də ki, investisiyayönümlüdür. Hər ikisi arasında çox həssas balans, tarazlıq olmalıdır" fikirləri Azərbaycanda sosial dövlət modelinin inkişafının mahiyyətini aydın şəkildə əks etdirir.



Son 7 ildə icra edilən 5 sosial islahat paketi 4 milyon insanı əhatə edib ki, bu məqsədlər üçün də təqribən 8 milyard manat vəsait sərf edilib. Həmin sosial islahat paketləri nəticəsində minimum pensiya 3 dəfəyədək artırılaraq 110 manatdan 320 manata çatdırılıb. Son illər bütün pensiyaların və pensiya kapitallarının hər il indeksləşdirilməsi də həyata keçirilib. Təkcə bu il pensiyaların indeksləşdirilərək artırılmasına 640 milyon manat vəsait ayrılıb və bu artımlar 1,1 milyon pensiyaçıya şamil olunub. Cari ilin I rübünün sonuna qeydə alınan rəqəmlərə əsasən pensiyaların orta məbləği 594 manat, yaşa görə orta aylıq pensiya məbləği isə 632 manat təşkil edir.




Minimum əməkhaqqı 3,1 dəfə artırılaraq 130 manatdan 400 manata çatdırılıb. Bu il qanunvericiliyə edilən yeni dəyişikliklə minimum əməkhaqqının məbləğinə baxılmasının dövriliyi də təmin edilib. Bununla da ildə bir dəfədən az olmayaraq həmin məbləğə yenidən baxılacaq. Ötən dövrdə orta aylıq əməkhaqqı 2 dəfə artaraq 545 manatdan 1 mart 2026 tarixə artıq 1099 manat olub.

Qeyd olunan sosial islahat paketləri ilə sosial müavinət, təqaüd ödənişləri üçün ayrılan illik vəsaitdə 5 dəfə, ünvanlı yardımın hər ailəyə düşən orta aylıq məbləğində isə 2,4 dəfə artım olub. Bu sosial islahat paketləri yaşayış minimumunun da 65 faiz artırılaraq 173 manatdan ötən il 285 manata, ehtiyac meyarının 2,2 dəfə artırılaraq 130 manatdan ötən 285 manata çatdırılmasına imkan verib. 2026-cı il üçün isə yaşayış minimumu və ehtiyac meyarı 300 manatdır.

Elşad Məmmədov vurğuladı ki, sosial müdafiə xərclərindəki artım dinamikası daha çox nəzərə çarpır. Dövlət Sosial Müdafiə Fondunun (DSMF) əhaliyə ödənişlər üzrə bu il üçün nəzərdə tutulan xərcləri (8 milyard 196 milyon manat) 2024-cü ilə nisbətən 1 milyard 534 milyon manat, 2025-ci illə müqayisədə isə 912 milyon manat daha çoxdur:

– Ölkəmizdə sosial müdafiə sisteminin inkişafı təkcə ödənişlərdəki artımlarla deyil, əhalinin məşğulluğunun, sosial təminatın, sosial xidmət və reabilitasiya sahələrində keyfiyyətin və xidmət istiqamətlərinin artırılması ilə də xarakterizə olunur. 2018-2025-ci illərdə 2,2 milyon nəfər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən aktiv məşğulluq tədbirlərinə cəlb olunub ki, onlardan da 836 min nəfəri münasib işlərlə təmin edilib. 56 min nəfər isə peşə hazırlığına yönəldilib. Bununla da 2018-ci ilə nisbətən 2025-ci ildə işlə təmin olunanların sayı 3,6 dəfə artıb. İşsiz və işaxtaran şəxslərin öz kiçik biznesini quraraq əmək bazarına çıxışına mühüm dəstək olan özünüməşğulluq proqramına cəlb olunanların sayı 2,7 dəfə artaraq 100 mindən çox olub.




Dünya Bankı tərəfindən maliyyələşdirilən "Məşğulluğa dəstək" layihəsinin 1-ci fazası çərçivəsində 26,7 min şəxsin layihədən faydalanmasına baxmayaraq, növbəti mərhələdə (2025-2029) daha 30 min şəxs üçün kiçik bizneslərin qurulması nəzərdə tutulur.

Böyük Qayıdış proqramına uyğun olaraq işğaldan azad edilmiş ərazilərə köçürülən sakinlərin artıq 9445 şəxsin məşğulluğu təmin olunub, o cümlədən 802 sakin özünüməşğulluq proqramı üzrə kiçik biznes qurub.

Keyfiyyətli və əlçatan sosial xidmətlərin göstərilməsi üçün mühüm amil olan sosial infrastruktur layihələri içərisində dövlət sosial xidmətlərini "bir pəncərə"dən, müasir və çevik, tam şəffaf mexanizmlər üzərindən təqdim edən DOST konsepsiyası əhəmiyyətli yer tutur. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST infrastrukturu 7 DOST Mərkəzi, 2 DOST filialı, "Smart DOST" xidmət məntəqəsi, 2 DOST məntəqəsi ilə paytaxt və bölgələrimizdə fəaliyyət göstərir.

Ölkəmizdə aparılan sosial islahatların mühüm istiqamətlərindən biri də dövlət sosial xidmətlər sisteminin rəqəmsallaşdırılmasıdır. Son illərdə nazirliyin xidmətlərindən 90 faizdən çoxu elektronlaşdırılıb, o cümlədən bir çox xidmətlər proaktivləşdirilib. Bu sahədə aparılan davamlı təkmilləşdirilmə işləri çərçivəsində isə mayın 1-dən daha 4 müavinət növünün də proaktiv qaydada təyin edilməsinə başlanacaq. Rəqəmsal dövlət xidmətlərinin vahid mərkəzləşdirilmiş sistemə keçidi məqsədilə görülən tədbirlər çərçivəsində "e-Sosial" mobil tətbiqi üzərindən rəqəmsal xidmətlərin "mygov" platformasına inteqrasiyası bu ayın sonunadək tam yekunlaşacaq.




Bütün bunlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin sosial sahəyə yüksək diqqət və qayğısı nəticəsində ölkəmizdə vətəndaş rifahının və məmnunluğunun təminatı, həmçinin sosial sahədə xidmətlərin innovativ əsaslarla daha da təkmilləşdirilməsi istiqamətində irəliləyişlər qarşıdakı dövrdə də uğurla davam etdiriləcək.

***Mustfi K AMAL***
***XQ***

# I Ümumittifaq Türkoloji Qurultay milli mətbuatda

## *Etnoqrafik məsələlər ətrafında açılan müzakirə*

*(əvvəli qəzetin 11 və 15 aprel 2026-cı il tarixli saylarında)*

**"Yeni yol" qəzeti, №52**
**28 fevral 1926-cı il**
**I Ümumittifaq Türkoloji Qurultayı**
**5-ci İCLAS**
**Professor Samoyloviçin məruzəsi**
**(Leninqrad darülfünunun professoru)**

Birinci Ümumittifaq Türkoloji Qurultayı yeni elmi türkoloji tarixi dövrünün başlanğıcında oldu.

Türk xalqlarının öyrənilməsi üçün keçən dövrdən qalma bir çox materiallar istər ayrı-ayrı işçilərin, istər müştərək qüvvənin plan üzrə mütəşəkkil sürətdə çalışmasını tələb edir. İndiki halda bu türkoloji məsələlərin təhlilində türk xalqları arasından çıxmış işçilər ciddi sürətdə iştirak edir.

Mərkəzdə oturan işçilər, məhəllində görülən işləri təkib etmək iqtidarına malik deyildirlər.



*Nadir MƏMMƏDLİ,*
*AMEA Nəsimi adına*
*Dilçilik İnstitutunun direktoru,*
*filologiya elmləri doktoru, professor*

Professor ən uzaq şimal-şərq yerlərdən, yakut xalqından başlayaraq ta Avropaya qədər gələn türklərin canlı dillərin öyrənilməsi üçün görülən işlərin kiçik bir projesini cızaraq o xüsusda müfəssəl danışdı. Türk dünyasının bu odacıqları bir çox rus alimləri tərəfindən ana dilləri sahəsində bir türlü öyrənilmişdir. Bu alimlər içərisində Pekar akademiki Betlinq, professor Katanov, akademik Radlov vardır. Xırda xalq şivələrinin öyrənilməsində professor Malov da az iş görməmişdir.

Sonra professor Samoyloviç Orta Asiyaya keçərək Melioranskinin, Radlov və Divayevin gördükləri böyük işləri göstərir. Qazax və qırğız xalqları dillərinin də öyrənilməsinə xüsus diqqət verilmişdir. Orta Asiyada mühüm rol oynayan özbək dili də unudulmamışdır, fəqət lazımınca öyrənilməmişdir. Çin Turqustanındakı türk ünsürlərinin halı bir qədər dəyişmişdir. Çin Turqustanının indiki danışıqları bizə məlum olan və onların əski dilləri olan uyğur dilidir.

Orta Asiya daxilində Amu-Dərya sahilləri tərəfdə hüdudda türkmən xalqlarının şivələri ən az öyrənilmişdir. Təəssüflər olsun ki, bu vaxta qədər türkmən xalq ədəbiyyatı nümunələri nəşr olunmamış və elmi siyahısı tərtib edilmiş qrammer yoxdur. Samoyloviç yoldaş Orta Asiya şivələrinin öyrənilməsinə xüsusi diqqət verilməsini arzu edir.

Şərqi Avropada yaşayan başqırd xalqı Orta Asiya türk dünyası Şərqi Avropa türk dünyası arasında körpüdür. Başqırd dilinin öyrənmək akademik Radlovun və qurultayda bulunan macar alimi Meyzelin xidməti görünmüşdür.

Şərqi Avropada Kazan tatarı adlanan türklər də vardır. Onlarla birlikdə yaşayan macarlar da vardır. Volqaboyunda yaşamalarına, Kazan darülfununa malik olmalarına baxmayaraq, məəltəəssüf edildiyi gibi öyrənilməmişlər.

Çuvaşlar isə Başqırd darülfününun professoru Aşmarin kibi tədqiqatlara malik olmuşdur. O yalnız çuvaş dili sərfi nəşr etməklə qalmayıb, o vaxta qədər nəşr edilmədiyinə təəssüf etdiyimiz böyük bir lüğət toplamışdır. Çuvaş dili və etnoqrafiyası ilə Aşmarindən başqa doktor Meysarov və türkoloq Romstedt və Lenin altayçısı Poppe də məşğul olur.

Astraxan ölkəsi türkləri də az öyrənilmişdir.

Nəhayət, Şimali Qafqaziyada qaraçay və balkar gibi türk qəbilələrinə rast gəliriz. Balkar dilinin kiçik qrameri (sərfi) və xalq ədəbiyyatı nümunələri və qımık-balkar lüğəti olmuşdur.

İndiki halda qımıkların öyrənilməsi ilə professor Çobanzadə məşğul olmadadır.

Azərbaycan və ona yaxın İran türkləri dil xüsusda ciddi öyrənilməlidir. Alman alimi Fajjanın əməli qrammerindən başqa bu vaxta qədər bir ciddi iş görülməmişdir. Yalnız son zamanda Azərbaycanı tədqiq tətəbbö cəmiyyəti təsisindən sonra ayrı-ayrı şivələr öyrənilməyə başlamışdır.

Yeni dövrdə türkolojinin elmin tələb etdiyi şəkildə irəliləməsi üçün cümhuriyyətdə ölkənin və canlı şivələrinin öyrənilməsi üçün mərkəz təşkil olunmalıdır.

Müştərək iş prinsipi üzərində iş qurduğumuzdan, o prinsipi biz təbii dilin ən xırda şivələrini öyrənmək əsası, üzərində müqayisəli tarixi qrammer yaratmaq üçün beynəlxalq əməkdaşlıq sahəsində genişləndirməliyik.

***

I Ümumittifaq Türkoloji Qurultayda təqdim olunan məruzələr türk dillərinin geniş coğrafi əhatəsini və bu dillərin öyrənilməsində mövcud vəziyyəti sistemli şəkildə təqdim edir. Qurultayda qeyd olunur ki, şimal-şərqdən (Yakutiyadan) başlayaraq Orta Asiyaya qədər yayılmış türk dilləri və şivələri hələ tam şəkildə tədqiq edilməmişdir. Professor Samoyloviç və digər alimlər, xüsusən Pekar, Betlinq, Katanov və Radlov kimi tədqiqatçıların işlərinə istinadla, bu dillərin öyrənilməsində əsas uğurların dilçilik və etnoqrafiya sahələrində qeydə alındığını göstərirlər.

Məruzələr Orta Asiyada qazax, qırğız, özbək, türkmən və Çin Turqustanı türk dillərinin vəziyyətinə xüsusi diqqət yetirir. Qeyd olunur ki, Amu-Dərya sahillərindəki türkmən şivələri, demək olar ki, öyrənilməmişdir, elmi ədəbiyyatda nümunələr və qrammatik təsnifatlar hələ mövcud deyil. Bu durum Orta Asiyanın türk dilləri tarixinin sistemli öyrənilməsi üçün ciddi boşluqlar yaratmışdır. Samoyloviçin vurğuladığı kimi, tədqiqatlarda yalnız əhali danışığı və müəyyən dialekt nümunələri əsasında ilkin müqayisəli təhlil aparılmışdır.

Qurultay, həmçinin Orta Asiya türk dillərinin öyrənilməsində mövcud metodoloji çətinlikləri də işıqlandırır. Məruzələr göstərir ki, dillərin öyrənilməsində əvvəlki mərhələdə toplanmış materiallar müxtəlif alimlərin fərdi tədqiqatlarına əsaslanmış, lakin bu materiallar mərkəzləşdirilmiş və sistemli şəkildə işlənməmişdir. Nəticədə, Orta Asiya türk dillərinin tarixi əlaqələri və dialektoloji xüsusiyyətləri hələ tam açıqlanmamışdır.

Qafqaz və Şərqi Avropa türk dillərinin tədqiqi də qurultayda diqqət mərkəzində olmuşdur. Başqırd, Kazan tatarı, çuvaş, Astraxan, qaraçay, balkar və Azərbaycan dilləri yalnız qismən öyrənilmişdir. Məruzələr göstərir ki, bu dillər üzrə elmi ədəbiyyat azdır və geniş müzakirəyə imkan verən material mövcud deyil. Professorların vurğuladığı kimi, çuvaş dilinin tədqiqi sahəsində Aşmarin və Poppe kimi alimlərin işləri önəmli olsa da, bütün dialektləri və etnoqrafik xüsusiyyətləri əhatə etmir. Azərbaycan türk dili də Fajjanın əməli qrammatikasından başqa ciddi tədqiqata məruz qalmamışdır, yalnız son dövrlərdə şivələr üzrə ilkin araşdırmalar aparılmışdır.

Qurultayın ümumi nəticəsi göstərir ki, türkolojinin elmi irəliləyişi üçün mərkəzləşdirilmiş tədqiqat sistemi və beynəlxalq əməkdaşlıq zəruridir. Hər bir bölgənin öz dialekt və şivələrinin öyrənilməsi, müqayisəli tarixi qrammatikanın tərtibi və etnoqrafik məlumatların sistemləşdirilməsi əsas prioritetlər kimi qeyd olunmuşdur. Məruzələr, həmçinin vurğulayır ki, yalnız müştərək və planlı iş vasitəsilə türk dillərinin coğrafi və tarixi xüsusiyyətləri, qarşılıqlı əlaqələri və dialektoloji xüsusiyyətləri elmi cəhətdən düzgün təsvir oluna bilər. Bu yanaşma türkoloji tədqiqatların metodoloji zəminini gücləndirir və gələcək tədqiqatlar üçün əhəmiyyətli istiqamətlər müəyyən edir.

**Professor Malovun əlavə məruzəsi**

Professor Malov qədim türk dillərinin öyrənilməsi haqqında öz məruzəsində iranlıların türklərə təsiri üzərində dayanır. Yalnız 1893-cü ildə Danimarka türkoloq Tomsenin run kitabələrinin kəşfi ilə bu abidələrin türk abidəsi olduğu ortaya çıxdı. İndiki halda bu abidələrin bir neçə dəfə nəşr edildiyini, kitabələrin tərcümə və tədqiq edildiyini biliriz. Bu abidələrlə bərabər, Çin Türküstanında kağız yazılar da tapılmış və 102 səhifədən ibarət bir kitab bulunmuşdur. Bu kitab Britaniya müzesində bulunur və Leninqrad Asiya müzesində də türk yazıları nümunələri və qədim türk dilini öyrənmək üçün materiallar bulunur. Ona görə də türk runları və yazıları bizə lazımınca məlum deyil.

Yenisey abidələri, yəni qırğızların qədim yazı əsərlərində bu vaxta qədər bir çox anlaşılmazlıq vardır.

Məruzəçi sonra uyğur əl yazılarını sayaraq nəticə çıxarır. Türk dilinin tarixi qrammeri üçün bir çox material toplamışdır. İstanbul alimlərindən başqa digər türk xalqları alimlərinin də bu işdə iştirakı arzu olunur. Bu vəziyyət türk qrammeri müəlliflərini bir çox səhvlərdən qoruyardı.

***

Məruzə qədim türk dillərinin öyrənilməsi sahəsində aparılan araşdırmaların əsas istiqamətlərini və mövcud çətinlikləri əhatə edir. Professor Malov iranlıların türklərə təsirini qeyd edərək dil tarixindəki kontekstual amillərə diqqət çəkir. 1893-cü ildə Danimarka türkoloqu Tomsenin run kitabələrini kəşfi qədim türk abidələrinin tanınmasında önəmli mərhələ olmuşdur; həmin kitabələr bir neçə dəfə nəşr olunmuş, tərcümə və tədqiq edilmişdir. Bununla yanaşı, Çin Türküstanında tapılmış kağız yazılar və 102 səhifəlik kitab Britaniya və Leninqrad muzeylərində saxlanılır ki, bu da qədim türk dilinin öyrənilməsi üçün zəngin mənbədir. Məruzə göstərir ki, türk runları və digər yazı abidələri hələ tam başa düşülməyib və bir çox anlaşılmazlıqlar mövcuddur, xüsusilə Yenisey abidələrində. Uyğur əlyazmaları isə tarix və qrammatikanın tədqiqi üçün əlavə material təqdim edir. Məruzəçi türk dilinin tarixi qrammerasının öyrənilməsində İstanbul alimləri ilə yanaşı, digər türk xalqları alimlərinin də iştirakı zərurətini vurğulayır ki, bu yanaşma tədqiqatlarda səhvlərin qarşısını almağa və materialların tam istifadəsinə imkan verər.

Mətn qədim türk dilləri üzrə filoloji araşdırmaların həm tarixi, həm də praktiki aspektlərini vurğulayır. Məruzə, əsasən, mövcud abidələrin zənginliyinə və eyni zamanda tədqiqatlarda hələ də qaranlıq qalan sahələrə diqqət çəkir. Eyni zamanda, türk dili qrammatikasının inkişafı üçün kollektiv elmi əməkdaşlığın vacibliyini önə çəkir ki, bu da akademik və elmi baxımdan konstruktiv tövsiyə kimi qiymətləndirilə bilər.

**Professor Aşmarinin əlavə məruzəsi**
**(Azərbaycan darülfününun professoru)**

Rusiyada elmi türkolojinin əsası alman alimlərinin zəhməti ilə XIX əsrin ikinci yarısında qoyulmuşdu. Keçən əsrin ikinci yarısına qədər türk dillərinin öyrənilməsi işi olduqca zəif irəliləyirdi. Başlıca olaraq, Osmanlı ləhcəsi öyrənilirdi.

Türk xalqları dillərinin elmi tədqiqatı akademik Betlengin yakut qrammeri ilə başlanmışdır.

Onun əsəri türk dillərinin gələcək müqayisəli şərfi üçün təməl daşıdır. Betlengin əsərinin çıxmasından 2 il sonra Kazanda Sibir missioneri tərəfindən tərtib edilmiş Altay qrammeri çıxdı.

**Məruzəçi sonra bir çox elmi əsərləri sayaraq nəticəyə gəlir:**

*1) Ayrı-ayrı ləhcələrin səs quruluşları lazımınca öyrənilmişdir.*

*2) Ləhcələrin morfolojisi az tədqiq olunmuşdur.*

*3) Nəhvin fərdi cəhətləri çivələrin əksərisi heç tədqiqi olunmamışdır. Bununla bərabər, türk dillərində mühüm rol oynayan psixoloji amillər nəzərə alınmamışdır.*

*4) Ləhcələrin lüğət tərəfi az tədqiq olunmuşdur: başqırd və tunquz ləhcələri haqqında lüğətlər çox qısadır; digər ləhcələrdə isə heç lüğət tərtib edilməmişdir.*

*5) Xalq yaradıcılığı əsərləri bir çox qəbilələrdə toplanmamış və öyrənilməmişdir.*

*6) Türk dilinin musiqi cəhətinə və türk şeir vəzninə az diqqət verilmişdir.*

*7) Türk ləhcələrinin müqayisəli qrammeri haqqında heç bir əsər yoxdur.*



Öndəlik kazeta.
JENI JOL
Azər. M. I. K-si nəzdində „Jeni turq əlifba komitesi" nin organıdır.
№ 55 (466) Cumə, 5 mart 1926 il.
Tarixi bir karar.
BY NƏMRƏDƏ
TURQOLOZI KYRYLTAJL
Əkvam Cəmijjəti sessijası ərəfəsində.
Balaca feljeton

***

Mətn Rusiyada elmi türkologiyanın inkişaf tarixini və XIX əsrin ikinci yarısından XX əsrin ikinci yarısına qədər türk dillərinin tədqiqindəki vəziyyəti ümumiləşdirir. Alman alimlərinin zəhməti ilə elmi türkoloji əsası qoyulmuş, lakin türk dillərinin öyrənilməsi əsasən Osmanlı ləhcəsi ilə məhdudlaşmışdır. Akademik Betlenqin yakut qrammatikası və onun əsəri türk dillərinin müqayisəli tədqiqi üçün ilkin təməl rolunu oynamışdır, bundan iki il sonra Kazanda Altay qrammeri nəşr edilmişdir. Məruzəçi tədqiqatların çatışmazlıqlarını göstərərək vurğulayır ki, səs quruluşları öyrənilsə də, morfologiya, nəhv, psixoloji amillər, lüğət tərtibi, xalq yaradıcılığı, musiqi və şeir vəzni kimi sahələr kifayət qədər araşdırılmamışdır. Eyni zamanda, türk ləhcələrinin müqayisəli qrammatikası haqqında heç bir sistemli iş mövcud deyildir. Bu təhlil qədim və müasir türk dillərinin tədqiqində boşluqların çoxluğunu göstərir və gələcək tədqiqatlar üçün istiqamətləri aydınlaşdırır.

**"Yeni yol" qəzeti, №52**
**2 mart 1926-cı il**

**Qurultayda əlifba məsələsi**

Bu gün Türkoloji Qurultay öz gündəlik məsələlərinin ən mühümünü – əlifba məsələsini müzakirə edir.

Qurultayın məsələsi haqqında üzərinə düşən vəzifə ən ağır və tarixcə pək məsuliyyətli bir məsələdir. Bu məsələnin bir və ya başqa yolla həll edilməsi türk-tatar xalqları və onların mədəni inkişafı üçün böyük tarixi mənası vardır. Ona görə də hər bir qurultayın üzvü öz hissəsinə düşən tarixi vəzifəni layiqincə düşünməli və əlifba məsələsinə tam mənası ilə şüurlu bir surətdə yanaşmalıdır.

Qurultay məsələsi ətrafında qurultay açılmazdan qabaq bir çox dedi-qodular törənmişdi. Bir çox mühafizəkar və tərəqqi düşmənləri belə şayiələr buraxmışdılar ki, guya Türkoloji Qurultay nümayəndələrə qabaqcadan hazırlanmış əlifba qərarı təqdim ediləcək və bunun qəbul edilməsi tələb ediləcək. Fəqət həqiqətdə belə bir şey olmadı. Hər bir qurultay üzvü öz fikrini, nə kimi məsələdə olursa-olsun sərbəst söyləməyə qadir olduğunu sözdə deyil, işdə gördü və anladı.

Qurultayda hazırda əlifba məsələsi haqqında iki cərəyan vardı. Bunlardan biri ərəb əlifbasının islahı, digəri isə latın əlifbasının qəbul edilməsinin tərəfdarıdır.

Qurultay nümayəndələrinin danışıqlarından anlaşılır ki, bunların həpsi ərəb əlifbasının türk-tatar xalqlarının dillərinə yaramaması fikrinə şərik olurlar. Bu xüsusda akademik Oldenburqun müsahibə əsnasında söylədiyi fikri son dərəcə maraqlıdır. Akademik demiş ki, ərəb hürufatı heç vaxt türk dilinin sözlərini ifadə etmək üçün müvafiq olmamış; ərəb hürufatından istifadə etmək üçün onun bütün incəliklərini bilmək lazımdır.

Burasını gözəlcəsinə anlayan şəxslərin bəzisi yenə də ərəb hürufatının mühafizə edilməsində israr edirlər. Bunlar öz fikrini yeritmək üçün nə tarix və nə tarixin inkişafı ilə əlaqədar olmayan bir çox çürük fikirlər meydana atırlar. Bunlar elə güman edirlər ki, türk-tatar xalqları ərəb əlifbasından əl çəkməklə islamlıqdan və islam mədəniyyətindən uzaq düşəcəklər. Bunların zənnincə, türk-tatar xalqlarının səadəti yalnız Qurana və hazırda ancaq tarixi mənası olan islam mədəniyyətinə bağlıdır. Bizcə, belə düşünmək div addımları ilə irəliləyən Avropa mədəniyyətini və onun qələbəsini düşünməmək deməkdir. Digər tərəfdən Petro qəbir zamanı bir dekret vasitəsilə slavyan əlifbasını alıb Avropa sistemi əlifbaya keçən Rusiya nə ortodoks dinindən, nə də əski rus mədəniyyətindən uzaqlaşdı. Belə fikirlərlə latın əlifbasına etiraz etmək riyakarlıqdan, mühafizəkarlıqdan başqa bir şey deyildir.

Latın əlifbasının düşmənləri başqa, birinci nəzərdə guya haqlı fikir meydana atırlar. Bunlar deyirlər ki, ingilislər və fransızlar çətin əlifbaya malik olduğu halda böyük mədəniyyət kəsb etmişlər və əlifbalarının çətinliyinə baxmayaraq, yenə də ondan əl çəkmək fikrində deyillər. Əvvəla, burasını qeyd etməliyiz ki, məşhur millətlərin dillərində milyonlarla hər elmə aid kitablar çap edilmiş, türk-tatar xalqlarının dilində isə bunların mində biri yoxdur. Digər tərəfdən, yeni mədəniyyət dünyasına çürüməkdə olan türk-tatar xalqları Avropanın hər bir mühafizəkarlığını təqlid edə bilməz. Yoxsul Türkiyə orta əsrlərdən qalmış xilafət mirasını kökündən qazıyıb atdığı halda, mədəni və zəngin İngiltərə "ənənəyə" tabe olaraq hələ Kral həzrətinin əlini öpməkdə davam edir. Bəlkə də islam mühafizəkarları inqilabçı türk xalqının bu addımına da təəssüf edəcəklər? Qoy etsinlər.

Türkiyə xalqı islamlığın əskilmiş mirasından əl çəkdiyi halda Şuralar İttifaqında yaşayan türk-tatar xalqları həmin islamlığın başqa mirası – ərəb əlifbasından əl çəkər və əl çəkmək üçün özündə lazımi qüvvət bular.

Biz güman edirik ki, türk-tatar xalqları latın əlifbası məsələsində tarixi "ənənə" və dini mövhumatçılıq ilə deyil, həyati inkişaf və tərəqqi məsələsi ilə hesablaşar. Biz qəti bir imanla inanırız ki, türk-tatar xalqlarının Qurultaya toplanmış nümayəndələri əlifba məsələsi kimi böyük bir tarixi məsələdə inqilabcasına davranacaq və qəti surətdə latın əlifbasının həyata keçirilməsinə səs verəcək.

***

Mətn Türkoloji Qurultayın əlifba məsələsini müzakirə etməsini və bu müzakirənin türk-tatar xalqlarının mədəni inkişafı üçün tarixi əhəmiyyətini əks etdirir. Qurultayda ərəb əlifbasının islahı və latın əlifbasının qəbulu mövzusunda iki cərəyanın olduğu göstərilir. Məruzə, ərəb əlifbasının türk dillərini dəqiq ifadə etmək üçün uyğun olmadığını vurğulayır və akademik Oldenburqun fikrinə istinad edir. Həmçinin qurultay üzvlərinin sərbəst fikir söyləmək imkanlarını və mühafizəkarların şayiələrinə baxmayaraq, müzakirələrin demokratik şəkildə aparıldığı qeyd edilir. Bu əlifba məsələsinin sadəcə dilçilik yox, həm də mədəni modernləşmə və tarixi məsuliyyət kontekstində önəm daşıdığını göstərir. Mətndə latın əlifbasına keçid məsələsi ətrafında mühafizəkar və tərəqqipərvər cərəyanlar müqayisəli şəkildə təqdim edilir. Vurğulanır ki, ərəb əlifbasının qorunmasını müdafiə edənlər dini və tarixi ənənələrə əsaslanaraq, türk-tatar xalqlarının islam mədəniyyətindən uzaqlaşacağı fikrini irəli sürürlər. Mətn bu yanaşmanı rasional və Avropa mədəni tərəqqisini nəzərə almayan mövhumatçılıq kimi tənqid edir. Rusiyanın və Türkiyənin əlifba və mədəni dəyişiklikləri nümunə göstərilərək, latın əlifbasına keçidin modernləşmə, elmi inkişaf və xalqın mədəni tərəqqisi baxımından zəruri olduğu bildirilir. Məruzə latın əlifbasının qəbulunun yalnız tarixi və dini ənənələrə deyil, həyati və strateji inkişaf məqsədlərinə əsaslandığını, qurultay nümayəndələrinin də bu prinsiplə qərar verəcəyini proqnozlaşdırır.

**"Yeni yol" qəzeti, №55**
**5 mart 1926-cı il**

**Bizə yalnız türk əlifbası əlverişlidir**

Yalnız Azərbaycanda deyil, bütün qonşu cümhuriyyətlərdə yaşayan türk zəhmətkeş kütləsi yeni əlifbanı alqışlamaqla onun mühüm olduqca tətbiq edilməsini tələb etməkdədir. Türk xalqlarının əsrlərdən bəri arasına soxulmuş ərəb əlifbasını büsbütün arasından çıkarıb atmaya və az zamandan bəri tətbiq və təcrübə edilmə dövrünü keçirən yeni əlifbayı qəbul etməyə vadar edən səbəblər çoxdur. Onlardan başlıcası ərəb əlifbasının türk xalqına hər gün yeni xariqələr yaratmaqda olan fənni elmləri əldə etməyə imkan verməməsidir.

Çünki ərəb əlifbası ilə yazılan bir sözün öncə mənasını bilməyən bir adam o sözün mühərrir tərəfindən nə cür yazıldığını (necə tələffüz ediləcəyini) bilməsə, onu necə okuyacayını biləməz.

"…İslahdan daha əvvəl türk həyatına əl verməyən ərəb əlifbası nə qədər islah yapılırsa yapılsın, nə qədər şəkli dəyişdirilirsə– dəyişdirilsin zəhmətkeş türklərə əl verəcək bir əlifba meydana gətirməyəcəyinə konfrans qane bulunur; çünki islah işinin son həddinə və yüksək dərəcəsinə varmış olan kazanlılar ərəb əlifbasından heç bir cəhətlə ona bənzəməyən başqa bir əlifba qayırdığı halda, bu əcib əlifbanın ələ alınmayacaq qəribə bir şey olduğunu etirafə məcbur olmuşlardır...".

Yeni əlifbanın türk dilinə olan uyğunluğuna gəldikdə: "...Ermənistan türkləri arasında qısamüddətli təcrübələrdən sonra yeni əlifbanın tamamilə zəhmətkeş türk-tatar əlifbası olduğunu konfransa məlum olmuşdur: ərəb əlifbasındakı mövcud bulunan musqulata qarşı asanlığı; səsləri, ifadə və imla uyğunluğu, texnikaya yararlılığı tərəfindən bu zamana qədər elm, fənn və ədəbiyyat aləmindən kırakda kalmış türk zəhmətkeşlərinin bu (məşhur) aləmlərə tezliklə çıkaracak ən müsaid bir açar vəzifəsini görəcəkdir...".

Yeni əlifbanın türk xalqı tərəfindən az zamanda bənimsəməsi mümkün olduğunu və türk zəhmətkeşlərinin bu əlifbaya olan həvəs və rəğbətini göstərmək məqsədilə konfrans öz rəyini izhar edir: "...Bu əlifbayı türk-tatar zəhmətkeşi nə qədər tezliklə tətbiq etməyə başlarsa, o qədər tez elm və fənn aləminə daxil olacakdır..." deyir və nihayət böylə karar çıkarır:

"...Əgər də Türkoloji Qurultayı yeni türk əlifbası barədə başka bir karar çıkaracak olsa belə, Ermənistan türkləri Azərbaycan türkləri ilə barabar öz əlifbası olarak kabul etdiyi yeni türk əlifbasını yeganə əlifba olaraq əlində saklayacakdır.

Geniş zəhmətkeş kütləsi tərəfindən bu və buna bənzər yüzlərcə çıkarılan kararlar ərəb əlifbasının heç bir vəch ilə islaha uğramayıb, yenə də çətin olmasına və bizim üçün əlverişli, dilimizə və ahəngimizə ən uyğun yalnız latın sistemi üzrə yapılmış yeni əlifba olacağına birər sübut və şahiddir.

***

Mətn türk-tatar xalqları arasında latın əlifbasının qəbulunun səbəblərini və əhəmiyyətini ətraflı şəkildə təqdim edir. Ərəb əlifbasının türk dilinə uyğun olmaması, elmi və texniki biliklərin əldə edilməsini çətinləşdirməsi əsas arqument kimi göstərilir. Qurultayın qərarları, təcrübələr Ermənistan və Azərbaycan türklərinin yeni əlifbaya uyğunlaşmasını təsdiqləyir. Mətn vurğulayır ki, latın əlifbası türk dilinin səsləri, ifadəsi və imla xüsusiyyətlərinə uyğunluğu, həmçinin texniki tətbiq rahatlığı ilə zəhmətkeş türk-tatar xalqı üçün elm və ədəbiyyata açar rolunu oynayır. Nəticədə, yeni əlifbanın həm sürətlə mənimsənməsi, həm də türk xalqlarının mədəni tərəqqisinə xidmət etməsi strateji və tarixi əhəmiyyət daşıyır.

***(ardı var)***

*Dövlət mükafatına təqdim edilib*

# Milli ədəbiyyat tariximizin öyrənilməsinə və tanıdılmasına layiqli töhfə

## *“Bədirxan Əhmədli. XX əsr Azərbaycan ədəbiyyatı tarixi”*

**Bədirxan Əhmədli imzasının geniş təqdimata ehtiyacı yoxdur. Elmin yoluna yeni gələnlər də, əvvəldən bu yola könül verib qalanlar da Bədirxan müəllimi yaxşı tanıyırlar. Yaradıcılığının şaxəli, çoxyönlü olmasının da burada böyük payı var. Mühacirət irsinin yaradıcıları, ədəbi irsin repressiyaya uğramış nümayəndələri, cümhuriyyət dövrünün təmsilçiləri kimi silsiləyə çağdaş ədəbiyyatın bir çox tanınmış, istedadlı qələm adamları haqqında yazılarını da əlavə etsək, mənzərə daha da dolğunlaşar. Asiya xalqları ədəbiyyatı ilə bağlı son dövr tədqiqatlarını sadalasaq, miqyas və ölçü xeyli böyüyər. Bu ölçünü Bədirxan Əhmədli ədəbiyyat tarixçisi kimi çıxdığı yolun sərhədsizliyi ilə bəlirləyib.**

İki il öncə müəllif XX əsr tədqiqləri sırasından “XX əsr Azərbaycan ədəbiyyatı tarixi” (Bakı, Qanun, 2024) üçcildliyini ərsəyə gətirdi. Hər biri XX əsri bütün parametrləri, gücü, ağırlığı, ziddiyyət və mürəkkəbliyi ilə meydana qoyan həcmli, siqlətli iş sayıla bilər. Dərsliyin birinci cildi milli hərəkat (1890-1920), ikinci cildi post-cümhuriyyət və sovet (1920-1950), üçüncü cildi isə müstəqillik ərəfəsi və müstəqillik (1960-2020) dövrünü əhatə edir.

Bu kitablardan hasil olan başqa qənaət də var: ədəbiyyat tarixinin yazılması yönündə yeni təfəkkürün formalaşması proseslərini göstərmək və bu istiqamətdə meydana çıxacaq yaradıcılıq problemlərinin həllində elmi-nəzəri düşüncənin fəaliyyətini meydana çıxarmaq. Bədirxan Əhmədli üçcildlikdə bir sıra elmi vəzifələrin həllini gerçəkləşdirir: ilk növbədə, XIX əsrin sonlarından başlayaraq çağdaş dövrümüzün son çərəyinə qədər əhatələnən dövrün ümumi mənzərəsini canlandırır; müxtəlif zaman kəsimlərində və fərqli ideoloji diskurslarla meydana qoyulan mətnlərin oxşar və fərqli cəhətlərini göstərir; digər formasiyada, siyasi-ideoloji dalğada qabaran problemlərin sonrakı illər üçün davamını izləyib, onların elmi-nəzəri dəyərini müəyyənləşdirir. Zamanın tələbi olan yeni dəyərlər sisteminin, nəzəri-estetik baxışın formalaşmasında ədəbiyyat tarixinin rolunu təyin edir; çağdaş ədəbi prosesdə, müasir insan konsepsiyasının yaradılmasında müəllifin, mətnin və dövrün təcrübəsini işıqlandırır; həmçinin bütün tarixi-ədəbi proseslərə münasibətdə, onun yeni kontekstdə dəyərləndirilməsində tədqiqatçıların ideyalarını sərgiləyir. Belə hərtərəfli, çoxyönlü baxış bucağında isə zamanın obrazı ilə yanaşı, araşdırmaçının özünün obrazı görünür.

Bədirxan Əhmədlinin ədəbiyyat tarixi konsepsiyası onun bədii-estetik və ədəbi-humanitar görüşlərində hər zaman aparıcı, prioritet mövqeni təşkil edib. Bunu üçcildlikdən əvvəl hasilə gətirdiyi işlərdə də görmək olar. Mühacirət ədəbiyyatının öyrənilməsi dediklərimizə sübutdur. Bəlkə də yollar elə mühacirət irsinin öyrənilməsindən başlamışdı.

Tədqiqatçı arxivlərdə yatan sənədlərin tozunu içinə çəkərək milli tariximizdə açılan boşluğun üzərindəki sirr pərdəsini götürənlərdən oldu. Amma bu sirr örtüyünün qaldırılmasından milli ədəbiyyat tariximiz, bütünlükdə XX əsrin ruhunu duymaq üçün silahlanan tədqiqatçı ilə üz-üzə dayandı.

Bu il yanvarın 14-də Prezident İlham Əliyev “Azərbaycan Mədəniyyəti – 2040” Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası ilə bağlı sərəncam imzaladı. Sərəncam mədəniyyətimizin uzunmüddətli inkişaf strategiyasını hazırlayan mühüm strateji sənəd kimi fundamentaldır. Düşünürəm ki, bu yolda bizə bələdçilik edən mühüm ədəbiyyat tarixçiliyi kitabları da olmalıdır. Bu mənada, Bədirxan Əhmədlinin üçcildliyi tutarlı faktaloji sənədləri, tarixi həqiqətləri özündə ehtiva edən mühüm elmi-nəzəri arsenaldır. Azərbaycan xalqının mənəvi irsini dünya mədəniyyətinin inkişafı kontekstində tədqiq etmək, Azərbaycanda milli-sosial inkişafın, ədəbi-mədəni hərəkatın mərhələ özəlliklərini müstəqil dövlətçilik ideologiyasının tələb və meyarları ilə səsləşən yeni məzmun və keyfiyyət nümayiş etdirməklə üzə çıxarmaq bu kitabların əsas məfkurə, ideya nailiyyətidir.

Söhbət tarixə qovuşan, əlahiddəliyi ilə xüsusi əhəmiyyət kəsb edən XX əsrdən gedirsə, ziddiyyətli və təlatümlü dövrün gerçəkləri ilə üz-üzə qalmağımız qaçılmazdır. Burada həm sovet dövrünün izləri var, həm də bu qalıqlarla mübarizə apararaq yeni biçimdə özünü ifadə etməyə çalışan düşüncə meyarları. Qızıl orta, sadəcə, dövrü əsr səciyyəsində, öz varlığında tədqiq etməkdir. Bəs meyar, məhək daşı nə olmalıdır?

Bədii fikrin təbii inkişaf qanunauyğunluğunu nəzərə almaq, amma bu sırada həm də ədəbiyyatın milli və ictimai şüura təsirin ən fəal mənbəyi, ideoloji-estetik amilə çevrilmək qaynağı olmasını unutmamaq! Bədirxan Əhmədli bütün ədəbi-tarixi mərhələlərə ədəbi hadisələrə, faktlara analitik nöqteyi-nəzər, akademik ifadə və dil, materialı yaxşı bilmək əzmindən irəli gələn təmkin və əminliklə nəzər yetirir.

Professor Bədirxan Əhmədlinin “Azərbaycan ədəbiyyatı tarixi” üçcildliyinin yeniliyini şərtləndirən daha mühüm amillərdən biri, onun ilk dəfə sistemli şəkildə işlənməsi, tədqiqata cəlb olunmasıdır. Belə ki, bütövlükdə XX əsrin müxtəlif zaman kəsimləri, keçdiyi tarixi inkişaf yolu, təkamül mərhələləri tədqiq olunsa da, bu kitablarda XX əsrin ədəbiyyatı ilk dəfə olaraq tədqiqat predmetinə çevrilir. Bizdə bu istiqamətdə az kitablar yazılmayıb, F. Köçərlidən başlayaraq Mir Cəlal, F.Hüseynov, Y.Qarayev, Ş.Salmanov, B.Nəbiyev, N.Şəmsizadə, N.Ələkbərli, Elçin, İ.Həbibbəyli, V.Quliyev, N.Cəfərov, Ş.Alışanlı, Ş.Vəliyev, A.Bayramoğlu, T.Əlişanoğlu, V.Sultanlı, C.Yusifli, A.Turan, T.Salamoğlu, R.Kamal və digərlərinin monoqrafiyalarında ilk dəfə olaraq Azərbaycan ədəbiyyatı tarixinin öyrənilməsi ilə əlaqədar irəli sürülən ideyaların elmi mənzərəsi verilib, yazılı ədəbiyyatımızın mənşəyi, onun dövrləşdirilməsi, intibah problemi, sovet dövrü Azərbaycan ədəbiyyatı barədə elmi-nəzəri fikrin ehtiva etdiyi metodoloji qənaətlər yer alıb.

Çoxcildliyin müəllifi bunların hamısının cəmi olaraq, bütünlükdə, XX əsrin əvvəli və sonunu da tədqiqatına daxil etməklə incəliklərinə qədər tədqiqat predmetinə çevirir. Klassik irs, cümhuriyyət irsi, mühacirət irsi, repressiyaya uğramış yazıçıların irsi, sovet dövrü irsi, keçid dövrünün ədəbiyyatı, müstəqillik dövrünün ədəbi-prosesi. Bütün bu aşamalardan keçmiş ədəbiyyat və sənətkarın tutduğu mövqe, onun ədəbi prosesdə rolu, mənəvi həyata və sənətə müdaxiləsi kimi məsələlər. Ədəbiyyatın ayrı-ayrı inkişaf meyilləri, istiqamətləri, problem və hadisələri.

Dərsliyi ərsəyə gətirərkən alim dünya ədəbiyyatının bir çox mürəkkəb, ziddiyyətli hadisələrini, “izm”ləri, ədəbi cərəyanları, fərqli metodologiya və ədəbi prinsipləri özündə ehtiva edən inkişaf yoluna özünəməxsus ədəbi, metodoloji kontekstdən yanaşır. Sənətkar və mühit amili nəzərə alınmaqla, dövrün öz xaotik obrazından sərf-nəzər edilməməklə, qınamamaq, ittiham etməmək, yanlış təsəvvür və rəy formalaşdırmamaq, ucuz populizmə getməməklə. Belə olduğu üçündür ki, kitabda repressiya, sovet ədəbiyyatı, mühacirət və legion ədəbiyyatına məxsus ziddiyyətli məqamlar da siyasi baxışın predmetinə çevrilmir, növbəti ideoloji müdaxilənin qurbanı olmurlar.

Bədirxan Əhmədlinin kitabları bütün ziddiyyətli, mürəkkəb dövrlərin ədəbiyyatına müstəqil mövqedən, ədəbi fakta və prosesə yanaşmada sərbəst düşüncədən çıxış edərək bütöv bir epoxanın dərkini verməyə hədəflənmiş məqsədyönlü mətnlər toplusudur. Həm də o baxımdan fərqlidir ki, burada artıq türk düşüncəsi öndədir, C.Əfqaninin “milli vəhdət” ideyasından başlanaraq yola çıxan bütün türk ruhu daşıyıcılarının irsi təhlilə çəkilir, M.F.Axundzadədən başlanan maarifçi dalğanın XX əsrin əvvəllərində gəlib çatdığı hürriyyət sevdası bütün konturları ilə izah olunur, H.Zərdabidən başlanan milli oyanış əzminin özünüdərkdə oynadığı tarixi missiya meydana qoyulur. Tədqiqatçı Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Hadi, H.Cavid, Ə.Cavad, C.Cabbarlının əsərlərindəki milli vəhdət və məfkurə fəlsəfəsinin qaynaqlarına nüfuz edərək millətçilik, türkçülük, islamçılıq düşüncəsinin formalaşma yollarını izləyir.

Əlbəttə, yeni minillik reallığında Azərbaycan ədəbiyyatı tarixi probleminə yenidən dönüş etmək, onu milli əsaslar, meyar və prinsiplər əsasında yazılmasını zərurətə çevirmək bu yöndə qazanılan təcrübə və ənənələrin inkar olunması demək deyil. Elə Bədirxan Əhmədli də bu məsələyə son dərəcə ciddiliklə yanaşaraq, keçmiş tarixçilik ənənələrindən heç də sərf-nəzər edilmədiyini vurğulayır, hər halda, müəllifin istinadlarında mövcud olan təcrübə qiymətli və böyük tədqiqat irsi kimi dəyərləndirilir.

Hələ ötən əsrin 90-cı illərində ədəbiyyat tarixinin yazılmasının vacibliyi məsələsini qabardan unudulmaz Yaşar Qarayev yazırdı ki, “Obyektiv, tarixi qanunlar və qanunauyğunluqlar var və onları biz əvvəlcədən ibtidai, primitiv, populist yanaşma tərzi ilə inkar və rədd eləsək, öz tədqiqatlarımızı əvvəlcədən elmi-nəzəri-metodoloji perspektivdən, miqyaslı, analitik nəzəri səpkidən məhrum etmiş olarıq. Söhbət elmi meyarların dəqiqləşməsindən gedir, kökündən rədd olunub, quru yerdə yenidən “yaranmasından” yox!”!

Digər mühüm məqam nədir? Ədəbiyyat tariximizin bəzi məsələləri, onun mühüm məziyyət və problemlərinin aşkarlanması aktual mövzu kimi üççildliyin əsas predmetini təşkil edir. Bəzi mərhələ və faktlara münasibətdə üççildlik məhdudluqların, qüsur və səhvlərin üzə çıxarılmasını məqsədə çevirir və bu səhvlərin nədə özünü göstərdiyini aşkarlamağa cəhd göstərir. 1917-1920-ci illər ədəbi prosesinə, bu dövr sənətkarlarının irsinə verilən qiymət, 30-40-cı illərin ədəbiyyatşünaslığında romantizmə və onu təmsil edən şəxslərin yaradıcılığına vulqar-sosioloji aspektdə yanaşma və s. məsələlərlə razılaşmayan tədqiqatçı obyektiv elmi-metodoloji mövqedən çıxış edir. Faktlara müstəqil təfəkkür işığında yanaşır, ədəbi mərhələlərə müasir baxışla nüfuz edir, onun hər bir çərəyinə yeni metodologiya və dünyagörüş əsasında müdaxilə zərurəti duyur.

XX əsrin əvvəlindən başlayaraq çağdaş zamanımıza qədər fəaliyyət göstərən sənətkarları araşdırmaq, onların meydana qoyduğu əsərləri oxumaq, təhlil etmək, nəzəri analizin predmetinə çevirmək XX əsrin bütün inkişaf qanunauyğunluğunu vermək, mərhələ təsnifatını aparmaq, yaradıcılıq axtarışları, cərəyanlar, metodlar, hər bir yaradıcı mərhələnin əsasında dayanan struktur vahidləri və nəzəri anlayışları nüans səhihliyi ilə araşdırmaqla daşları yerinə oturtmaq çox çətin, mürəkkəb prosesdir. Amma Bədirxan Əhmədli ədəbiyyatımızda yaradıcılığı tədqiqat predmetinə çevrilməyə əsas verən heç bir müəllifi kölgədə saxlamır.

XX əsr bu kitablarda məhz tarixi-tipoloji vahid kimi götürülür və mətnlər yalnız Azərbaycan ədəbiyyatı deyil, ümumiyyətlə, dünya ədəbiyyatı kontekstində araşdırmaya cəlb olunur. Bəzən başlıqlar belə bəs edir ki, müəllifin düzgün hədəfə vurmasına, yenilikləri açar söz olaraq kiçik başlıqlara sığdırma məharətinə şahidlik edək. Məsələn, ədəbiyyat tarixinin üçüncü cildində Bədirxan Əhmədli 80-ci illər Azərbaycan ədəbiyyatında nəsrin imzalarından danışırsa, dünya ədəbiyyatında Çingiz Aytmatov, Qabriel Qarsia Markes, Vasili Şukşin kimi yazıçıların yaradıcılığı ilə müqayisəli konteksti də verməyi unutmur.

Görkəmli ədəbiyyatşünas alim Vilayət Quliyevin Azərbaycan yazıçılarının X qurultayında səsləndirdiyi “çox təəssüf ki, müstəqillik dövrü ədəbiyyatında layiqli bir hadisəyə çevirən bir nəsr əsəri meydana çıxmadı” qənaətinə qarşılıq olaraq həmin dövrdə yazılan nəsr əsərlərinin ümumiləşmiş şərhini verir. 80-ci illər ədəbi tənqidinin ideoloji tərəflərindən yazırsa, onun estetik qütbünü təmsil edən Yaşar Qarayev tənqidini ayrıca araşdırır, Asif Əfəndiyev tənqidinin layiqli qiymətini meydana qoyur.

Bu ayrıcalıq hissi onun müasir dövrə baxışının istiqamətini təyin edən əsas göstəricidir. Bədirxan Əhmədlinin bu gün çağdaş imzalar haqqında yazdığı bütün məqalələrdə bir xətt aydın görünür. Müasir prosesə klassik ədəbiyyatın təcrübəsini çatdırmaq meyli. O, müasir ədəbi prosesin




şərhinə həmişə tarixdən gəlir, hadisənin, faktın etnik-tarixi tipini-genotipini müəyyənləşdirir. Bəlkə buna görə onun estetik mövqeyində müxtəlif yazıçı və şairlərə münasibətdə hüquq bərabərliyi nəzərə çarpır.

Nəriman Əbdülrəhmanlı, Azad Qaradərəli, Firuz Mustafa nəsri, Zəlimxan Yaqub, Səxavət Sahil, Əsgər Rəsul poeziyası və digər tanınmış qələm adamları haqqında yazdığı məqalələrdə bir məqam daim öndədir: yeni tendensiyaları anlamaq, yazarın fərqi xüsusiyyətlərini bilmək təmkini ilə bərabər, mətnin tarixi həqiqətlərini dərk etmək səriştəsi, yeni sənət nəzəriyyələrini milli spesifika ilə əlaqələndirmək əzmi.

Bədirxan Əhmədli hazırda AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda “Asiya xalqları ədəbiyyatı” şöbəsinə rəhbərlik edir. Bu gün təbii ki, Azərbaycan–Asiya xalqları arasında münasibətlər yüksələn bir xətlə inkişaf edir, strateji əməkdaşlıqlar, dost körpüləri qurulur. Ən böyük körpüləri isə mədəniyyət, ədəbiyyat qurur. Bədirxan Əhmədlinin özünün yazdığı kimi, “xalqları bir-birinə bağlayan, onları yaxınlaşdıran yalnız din, dil deyil, həm də bədii düşüncədir”.

* * *

Professor Bədirxan Əhmədlinin “XX əsr Azərbaycan ədəbiyyatı tarixi” üçcildliyi qorunan mənəvi missiyanın abidəsi kimi qiymətlidir. F.Köçərlidən başlanan müqəddəs missiyanın davamından, milli-mənəvi estafetin, ədəbi-bədii, mədəni mühitin fasiləsizliyindən xəbər verən yaddaş nümunəsi respublika Dövlət mükafatına layiq ədəbiyyatşünaslıq əsəridir. Çoxcildlik XX əsr ədəbiyyat tariximizin çağdaş düşüncə və tələbat baxımından öyrənilməsinə və tanıdılmasına layiqli töhfədir. Yeni nəsil milli ədəbiyyatımızın son əsrinin əhatəli mənzərəsini bu irimiqyaslı mənbədən mənimsəməsi ilə müəllifin çoxillik zəhmətinin dəyər və sanbalını təsdiqləmiş olur.

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***filologiya elmləri doktoru***

*Dünyadan gələn sorağımız*

# “Qarabağ bülbülləri”nin cəh-cəhi “Euronews”dan eşidildi

**Dağlarının dumanı, çaylarının pıçıltısı, çəmənlərinin ətri ilə göz oxşayan istedadlar diyarı Qarabağ əsrlər boyu sənətin, sözün, musiqinin beşiyi olub. El arasında deyirlər ki, Qarabağda körpələr muğam üstə ağlayar, muğam üstə gülər. Çünki musiqi bu yurdun havasında, suyundadır. Burada hər isti nəfəsdən bir avaz, hər səmimi baxışdan bir nəğmə yaranır. Muğam isə bu ruhun ali ifadəsidir.**

Tarixin dərin qatlarına boylandıqca Qarabağın sənət salnaməsinin zənginliyi daha aydın görünür. Bu torpaq saz-söz ustadlarının ilham mənbəyi olub. Qurbaninin hikmət, Aşıq Pərinin incə duyğularla dolu misraları, Sarı Aşığın bayatıları, sazın sehri dağları aşaraq ellərə yayılıb, zaman keçdikcə xalqın ruhuna hopub. Aşıq havaları, muğam dəstgahları, xalq mahnıları milli musiqimizin sütunlarına çevrilib. “Arazbarı”, “Kərəmi”, “Mani” kimi havalar xalqın duyğularını ifadə edən bənzərsiz nümunələrdir.

Qarabağın musiqi yaddaşında isə elə bir zirvə var ki, oradan yüksələn hər səs unudulmazdır, bu zirvə Şuşadır. Musiqi beşiyimizin sinəsində ucalan şəhər səsin, sözün və ruhun möhtəşəmliyi, ahəngi ilə əhatə olunub. Burada igidlər süngü ilə tarix yazdığı kimi, sənətkarlar da səs və sazla əbədiyyətə çevrilən dastanlar yaradıblar. Elə buna görə də Şuşa canlı konservatoriya, Azərbaycan musiqisinin nəfəs aldığı məkandır.

Üzeyir Hacıbəylinin ilk musiqi nəfəsi burada duyulub, onun notlara köçürdüyü duyğular məhz o mühitin məhsuludur. Eyni havanı udan, eyni bulağın gözündən su içən Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Seyid Şuşinski, Xan Şuşinski, Rəşid Behbudov və bir çoxları bu şəhərin ruhunu sənətləri ilə dünyaya tanıdıblar. Şuşanın təbiəti belə musiqi kimidir, dağların sərtliyi, soyuğu ilə bulaqların incə, həzin səsi sənətkarların ruhunu oxşayaraq notlarda öz əksini tapıb. Belə bir mühitdə yaranan əsərlərin dillər əzbəri olması da təsadüfi deyil. Rəngarəng musiqi çələngində “Segah”ın sevgi ilə dolu ahəngi, “Şur”un incə lirizmi, “Cahargah”ın fəryadı, “Rast”ın qürurlu səslənişi xalqın ruhuna yansıyır.

Xan Şuşinskinin səsində, avazında Qarabağın vüqarlı dağları gözümüzdə canlanır, hər zənguləsində Şuşanın heyrətamizliyi hiss olunur. Onun adı çəkiləndə Səməd Vurğunun “Azərbaycan” poemasından həzin misralar yaddaşlarda canlanır:

***Könlüm keçir Qarabağdan***
***Gah bu dağdan, gah o dağdan***
***Axşam üstü qoy uzaqdan***
***Havalansın Xanın səsi,***
***Qarabağın şikəstəsi.***



Bu zəngin mədəniyyət beşiyi haqqında ötən günlərdə nüfuzlu beynəlxalq media qurumu olan “Euronews”un hazırlayıb yayımladığı videosüjet muğamın incəliklərini dünya musiqisevərlərinə təqdim etdi. Süjetdə Qarabağ muğam məktəbinin dərin kökləri, ənənələri və bu sənətin nəsildən-nəslə ötürülməsi xüsusi vurğulandı. Eyni zamanda, Qarabağ musiqi ənənəsinin formalaşmasında təbiət, mühit və insan amillərinin vəhdətindən söhbət açıldı.

**Doğma Qarabağdan yüksələn muğamın zil səsi zamanın sınağından keçərək bu günə gəlib çatıbsa, burada müəllimlərin əməyi danılmazdır. Onlar muğamı yaşadır, qoruyur və gələcəyə ötürürlər.**

**Bu missiyanı daşıyanlardan biri də Müşfiqabad qəsəbəsində yerləşən Ağdam rayon Gülablı kənd uşaq musiqi məktəbində dərs deyən səs müəllimi, pedaqoq, xanəndə Habil Məmmədovdur. Onun yetişdirdiyi uşaqlar səhnədə muğam oxuyanda, əslində, bütöv bir məktəbi, torpağı təmsil edirlər. Səhnədə alqışlanan azyaşlı ifaçıların yanında dayanan müəllimin zəhməti əvəzsizdir. Çünki bu gün muğam yaşayırsa, deməli, onu yaşadanlar var.**

**Habil Məmmədov deyir ki, Qarabağ musiqi mühiti Azərbaycan sənət tarixində elə bir məktəb formalaşdırıb ki, təsiri yalnız ifaçılıqla məhdudlaşmır. Bu mühitdə Aşıq Valeh, Qurban Primov, Sara Qədimova, Səxavət Məmmədov kimi sənətkarlar yetişib:**

– Bu mühitdə böyüyən ifaçılar üçün musiqi zaman-zaman hiss edilən, yaşanan həyatın ayrılmaz bir hissəsi olub. Qarabağın təbiəti, insanları və səsi elə bir estetik vəhdət yaradıb ki, bu mühitdə formalaşan sənətkarın musiqiyə baxışı daha dərin və instinktiv olur. İstedadlar yurdunda yetişən ifaçılar muğamı daha tez mənimsəyirlər. Bunun səbəbi mühitin özüdür. Qarabağda böyüyən bir gənc üçün muğam sanki əvvəldən içində olan istedadı yenidən oyatmaqdır.

*(ardı 14-cü səhifədə)*

*Təqvim yada salır*

# Ana dili xalqımızın ölməz ruhu, dərin düşüncəsi və söz yaddaşıdır

**Azərbaycan tarixinin 30 ildən artıq bir dövrü milli dövlətçiliyimizin banisi, ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqını və dövlətini zamanın ən çətin sınaqlarından uğurla çıxaran dahi şəxsiyyətin uzaqgörənliyi və müdrik siyasəti nəticəsində ölkəmiz ictimai-siyasi, iqtisadi və mədəni sahələrdə böyük tərəqqiyə nail olmuşdur. Ulu öndərin rəhbərliyi dövründə Azərbaycan dünyanın qabaqcıl ölkələri ilə geniş iqtisadi, siyasi və mədəni əlaqələr qurmuş və bu əlaqələr getdikcə daha da möhkəmləndirilmişdir.**

**Dil hər bir millətin mənliyinin əsasıdır. İnkişaf etmiş, zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir.**

***Heydər ƏLİYEV,***
***ümummilli lider***




1969-cu ildə dahi liderin hakimiyyətə gəlişi respublikamızın həyatında mühüm dönüş nöqtəsi oldu. İctimai-siyasi proseslər canlandı, iqtisadi islahatlar geniş vüsət aldı. Xüsusilə milli-mənəvi dəyərlərin qorunması, mədəniyyətin inkişafı və ana dilimizin qorunması istiqamətində ardıcıl və məqsədyönlü siyasət həyata keçirildi.

Hər bir xalqın varlığını təsdiq edən əsas amillərdən biri onun dilidir. Lakin sovet dövründə "vahid sovet xalqı" ideyası adı altında müxtəlif xalqların dili və milli kimliyi sıxışdırılır, rəsmi dövlət dili kimi rus dili üstün tutulurdu. Təhsil sistemində və yerli mətbuatda rus dilinə geniş yer verilməsi milli dillərin inkişafına maneələr yaradırdı. Belə bir mürəkkəb şəraitdə Heydər Əliyev böyük cəsarət və qətiyyət nümayiş etdirərək ana dilimizin müdafiəsinə qalxdı.

1978-ci il aprelin 2-də IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında Heydər Əliyev təklifi ilə 73-cü maddə aşağıdakı redaksiyada təklif olundu: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir". Həmin il aprelin 21-də qəbul edilən sayca 4-cü Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Bu, milli kimliyin qorunması və dilimizin hüquqi statusunun möhkəmləndirilməsi baxımından mühüm tarixi hadisə idi.

Həmin dövrdə respublikada ana dilli məktəblərin açılması, dərsliklərin nəşri, ədəbiyyatın inkişafı və dilçi alimlərin fəaliyyətinə dəstək göstərilməsi istiqamətində mühüm addımlar atıldı. Rəsmi tədbirlərdə ana dilinin istifadəsi genişləndirildi ki, bu da dilimizin ictimai nüfuzunu artırdı.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Ulu öndər müstəqil Azərbaycanın dil siyasətinin formalaşdırılmasına xüsusi diqqət yetirdi. 1995-ci ildə qəbul olunan Ana Qanunda Azərbaycan dili dövlət dili kimi bir daha təsbit olundu və onun qorunması, inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biri olaraq müəyyənləşdirildi.

Sonrakı illərdə bu sahədə mühüm hüquqi sənədlər qəbul edildi. 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman, iyulun 4-də Dövlət Dil Komissiyasının yaradılması barədə sərəncam, avqustun 9-da isə "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsdiq edilməsi haqqında" fərman imzalandı. 2002-ci il sentyabrın 30-da qəbul edilən "Azərbaycan Respublikasının dövlət dili haqqında" Qanun isə dilimizin işlənməsi, qorunması və inkişafı üçün hüquqi baza yaratdı.

"Hər bir Azərbaycan vətəndaşı öz ana dilini bilməlidir" - deyən Heydər Əliyev bütün fəaliyyəti boyu Azərbaycan dilinin dövlət dili statusunun möhkəmləndirilməsi, inkişafı naminə ardıcıl və məqsədyönlü siyasət həyata keçirmişdir. Dünya Azərbaycanlılarının I Qurultayındakı çıxışında azərbaycançılıq ideyasını önə çəkərək dilin milli kimliyin əsas dayağı olduğunu xüsusi vurğulayan Ümummilli lider qeyd edirdi ki, Azərbaycan dili yalnız ünsiyyət vasitəsi deyil, həm də milli-mənəvi dəyərlərimizin daşıyıcısıdır.

Bu gün Azərbaycan dilinin dövlət dili kimi möhkəmlənməsi, beynəlxalq aləmdə nüfuzunun artması və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilməsi məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Ulu öndərin məqsədyönlü siyasətini uğurla həyata keçirən Prezident İlham Əliyev AMEA-nın 80 illik yubiley iclasında çıxışı zamanı vurğulamışdır ki, ana dili dövlət müstəqilliyinin və milli suverenliyin rəmzidir.

Doğma dilimizin saflığının qorunması, onun ədəbi normalarının tətbiqi və gələcək nəsillərə düzgün şəkildə ötürülməsi hər bir vətəndaşın, xüsusilə də ziyalıların məsuliyyətidir. Azərbaycan dilinin zənginləşməsi üçün elmi araşdırmalar genişləndirilməli, gənc nəsildə dilə sevgi aşılanmalı və düzgün istifadə mədəniyyəti formalaşdırılmalıdır.

Qloballaşma dövründə milli dillərin qorunması daha da aktuallaşır və müstəqil dövlətimiz bu istiqamətdə ardıcıl və məqsədyönlü siyasət yürüdür. Bu gün Azərbaycan dili yalnız ölkə daxilində deyil, dünya azərbaycanlılarını birləşdirən mənəvi körpü kimi də öz mövqeyini gücləndirir.

***Mehparə ƏLİYEVA***
***XQ***

# "Qarabağ bülbülləri"nin cəh-cəhi "Euronews"dan eşidildi

*(əvvəli 13-cü səhifədə)*

Qarabağ muğam məktəbinin əsas fərqləndirici xüsusiyyəti isə onun ifa üslubundadır. Burada səs işlətmə texnikası sərbəst, emosional və daha geniş diapazonludur. Zəngulənin quruluşu və səsin "rənglənməsi" Qarabağ məktəbinə xüsusi estetika verir. Bu məktəbdə ifaçı səsi formalaşdırır, yönləndirir və dinləyicisinə yansıdır. Zəngulələr daha uzun nəfəs üzərində qurulur, səs keçidləri yumşaq və təsirli olur.

Qarabağ üslubunun ən mühüm cəhətlərindən biri də ifaların çox vaxt zil registrdə aparılmasıdır. Qarabağ məktəbində səs yumşaq, axıcı və fərqli çalar daşıyır. Bu məktəbin gücü onun ötürdüyü duyğudadır, ifaçı musiqini yaşayır. Bu səbəbdən Qarabağ muğamı dinləyicidə həm də emosional təsir yaradır.

Hər bir uşaq eyni sürətlə qavramır, eyni şəkildə hiss etmir və eyni anda musiqiyə açılmır. Bu fərqlilik müəllim üçün həm çətinlik, həm də böyük bir sınaqdır. Muğamın uşaqlara öyrədilməsi və gələcək nəsillərə ötürülməsində əsas çətinliklərdən biri səsin formalaşdırılmasıdır. Zəngulələrin düzgün verilməsi, nəfəsin idarə olunması və səsin muğam estetikası ilə uyğunlaşdırılması uzun zaman tələb edir. Uşaq səsi təbii və saf olsa da, onu klassik muğam üslubuna uyğunlaşdırmaq səbir və düzgün metodika istəyir.

Bu yanaşmanı daha dəyərli edən məqam isə tədrisin yalnız sinif otağı ilə məhdudlaşmamasıdır. Şagirdlərlə birlikdə hazırlanan videolar, ifalar və layihələr tədrisin davamı kimi çıxış edir. İstedadlı uşaqların bir arada qrup şəklində çalışması onların bacarıqlarını inkişaf etdirir, ictimai mühitdə özlərini ifadə etmək imkanı yaradır. Bu cür layihələr milli musiqinin, xüsusilə də xalq və retro mahnılarının təbliğinə xidmət edir.

Müəllimin məqsədi nəticəni də göstərməkdir. Çünki sinif otağında formalaşan istedadın geniş auditoriya tərəfindən eşidilməsi uşaqlar üçün motivasiya yaradır və real nəticəni ortaya qoyur. Şagirdlərin səhnəyə çıxması, efirlərdə görünməsi onların özünəinamını artırır və gələcək sənət yoluna ciddi təsir göstərir. Bu gün sosial media platformalarının rolu da danılmazdır.



Paylaşılan ifalar mədəni təsir vasitəsinə çevrilir. Həmin mahnının uşaqlar arasında yayılması, kəndlərdə, məktəblərdə səslənməsi artıq mədəniyyətin canlı şəkildə ötürülməsi deməkdir. Eyni zamanda, konsert uşaqlar üçün fərqli təcrübədir. Müsabiqə mühitində bir neçə münsifin önündə çıxışdansa, minlərlə insanın qarşısında ifa etmək daha böyük məsuliyyət tələb edir.

Muğamdan fərqli olaraq müasir dövrdə geniş yayılan bəzi musiqi nümunələri daha sadə strukturda olduğu üçün texniki və bədii baxımdan eyni dərinliyi daşıya bilmir. Yeni nəsil daha çox trendlərə uyğun, ritmik və qısa formatlı musiqilərə maraq göstərsə də, milli musiqinin rolu dəyişməz olaraq qalır. Çünki milli musiqi xalqın kökündür. O, yaddaşı, tarixi və kimliyi qoruyur. Bu musiqiyə heç bir xarici qüvvə təsir edə bilməz, çünki onun formalaşdığı mühit, dil və emosional zəmin unikaldır. Azərbaycan musiqisi məhz özünəməxsusluğuna görə dünyaya fərqli bir səs təqdim edir.

Milli musiqi ictimai və mənəvi dəyərləri gücləndirən vasitədir. Xüsusilə çətin tarixi dövrlərdə musiqi xalq üçün mənəvi dayaq rolunu oynayıb. 2020-ci il Vətən müharibəsi zamanı yayılan görüntülərdə döyüşçülərin milli mahnılarla ruhlandığı, bu musiqilərlə yola çıxdığı tez-tez müşahidə olunurdu. Milli musiqi vətən sevgisinin səsli formasıdır. Torpağa, tarixə və kimliyə bağlılıq musiqinin hər notunda hiss olunur.

Ona görə də mədəniyyətimizi qorumaq, inkişaf etdirmək və yeni nəsillərə düzgün şəkildə ötürmək hər bir sənətkarın missiyasıdır. Gənclərin bu sahəyə cəlb olunması isə gələcəyin musiqi mənzərəsini müəyyənləşdirir. Əgər yeni nəsil öz kökünə bağlı qalarsa, milli musiqi Azərbaycan mədəniyyətinin dünyada daha güclü və orijinal şəkildə təmsil olunmasına imkan yaradacaq.

***Ləman TƏHMƏZ***
***XQ***

**Filologiya elmləri doktoru, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu Ədəbi tənqid şöbəsinin müdiri, Əməkdar mədəniyyət işçisi Vaqif Yusifli dünən – 78 yaşı tamam olan gün redaksiyamızın qonağı oldu. Həyat və fəaliyyəti, elmi yaradıcılığı, eləcə də müasir ədəbi proses barədə suallarımızı cavablandırdı, özəl fikirlərini bizimlə bölüşdü.**

# Çağdaş ədəbi prosesin yorulmaz araşdırıcısı



Onunla müsahibəni oxuculara təqdim etməzdən öncə, qeyd edək ki, Vaqif müəllim universitetin filologiya fakültəsini bitirdikdən sonra 3 il Masallıda dil-ədəbiyyat müəllimi işləyib. Sonra aspirantura həyatı, davamlı çalışmalar dövrü olub. Ədəbiyyatımızın, ədəbi tənqidimizin canlı klassiklərindən öyrənib, görüb-götürüb. 2011-ci ildə "Müasir Azərbaycan poeziyasında ənənə və novatorluq" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə edib. Məqalələri Azərbaycanın hüdudlarından kənarda – Türkiyə, Almaniya və İranda çap olunub. Rəsul Rza və Məmməd Araz ədəbi mükafatları laureatıdır.

Vaqif Yusiflinin yarım əsrdən çox zəhmətinin bəhrəsi olan 30 kitabı, yüzlərlə məqaləsi ərsəyə gəlib. "Azərbaycan qəzəli", "Poeziya və zaman", "Rəsul Rza və müasir Azərbaycan poeziyası", "Sındır qəfəsi", "Məmməd Araz dünyası"(yenilənmiş nəşri ilə bərabər), "Yaxşı ki, varsan", "Bu nə sehrdir belə", "Karvanbaşı, yolun hayanadır", "Qanadlandıq uçmağa", "Sumqayıtda ədəbi həyat", "Qarabağ şeirimizdə, nəsrimizdə" kimi kitablarını oxuduqca hər kəs istər-istəməz o söz karvanına qoşulub gedir. Ədəbi aləmin dərinliklərinə baş vurur. Elə söhbətimiz də bu və digər ədəbi mətləblər barədə oldu.

**– Vaqif müəllim, 78 yaşınız mübarəkdir! Uzun və məhsuldar həyat yolunuz var. İstirahətə meyilli müdriklik yaşında belə, "silah"ı tətikdə saxlayır, ədəbi prosesi, poeziya və nəsri gündəlik izləyir, sanballı məqalələr yazır, çıxışlar edirsiniz. Haqlı olaraq sizi "qələminin fəhləsi" olan alim kimi dəyərləndirirlər. Sizin doğulub böyüdüyünüz Masallı rayonunun Ərkivan kəndindəki məşhur "Şah Səfi" bulağının suyu kimi tükənməz həvəsiniz, ədəbi proseslərə davamlı can yanğınız haradan qaynaqlanır?**

– Bu, mənim yaşayış adətim, həyat tərzimdir. Lap uşaqlıqdan belə öyrəşmişəm. Bir gün nəsə oxumasam, yazmasam, özümü işsiz sayıram. Müəllimlərim, ustadlarım məni belə öyrədiblər. Bu, mənim içimdə, ruhumda bünövrədən kök salıb və elementləri heç bir zaman rişəsini itirməyib. Ədəbiyyatsız yaşaya bilmirəm. Baxın, indi gözlərim zəifləyib, amma mən mütalidən, yazmaq vərdişimdən ayrıla bilmirəm. Dahi Nizamidən bu günün ən gənc şairinə qədər əsərlərini mütalıə edirəm. Bəlkə də başqa bir peşənin sahibi olsaydım, indiyə qalmazdım. Məni ədəbiyyat yaşadır.

**– Sizinlə çoxsaylı ədəbi tədbirlərdə, görüşlərdə olmuşuq. Hamısında da çıxışlarınız, necə deyərlər, qənimət xarakteri daşıyıb, xüsusilə də klassiklərimiz haqqında danışdıqlarınız. Hər söhbətiniz o qədər də dərindən bilmədiyimiz filoloji mətləblərə işıq salıb. Füzuli şeirinin elə qatlarına nüfuz etmisiniz ki, əzbərdən elə qəzəllərini deyib açmasını vermisiz ki, heyran qalmışıq. Eləcə də digər şairləri məxsusi tərzdə təqdim edirsiniz. Yeri gəlmişkən, bu gün sosial şəbəkədə oğlunuz Vidadi şair Səməd Mənsurun sizin ifanızda lentə alınmış "Rəngdir" şeirini paylaşıb. Böyük maraqla bir daha dinlədik.**

– Bu, həm də estetik zövq məsələsidir. Bir də gərək təmsilçisi olduğun sahəyə hərtərəfli bələd olasan. Qoy, məndən incimsinlər, bəzi həmkarlarım var ki, yalnız tədqiq etdikləri məhdud dairədə biliklərini artırırlar. Məncə, ədəbiyyatı öyrənməkdə çərçivə olmamalıdır.

**– Əlbəttə, qeyri-adi çalışqanlığınız, yorulmazlığınız da mühüm şərtlərdəndir. Fəaliyyət dairəniz çoxşaxəlidir. Buna görə də kitab, məqalə, esse, resenziyalarınız yetkinliyi, bitkinliyi ilə seçilir. Vaqif müəllim, bu gün ədəbiyyatın cəmiyyət tərəfindən az oxunması nə ilə bağlıdır?**

– Zamanın təsiri ilə, dolanacaq şərtləri ilə, bir də bununla bağlı maariflendirmənin səngiməsi ilə. Mən tez-tez ölkəmizin Cənub bölgəsinin rayonlarına gedirəm. Təsəvvür edin ki, nə kitab almağa bir mağaza tapılır, nə də qəzet almağa bir köşk. Bunu da, yumşaq desək, bəhanə kimi qabartmaq olar. Amma bir məsələ də var ki, oxuyan, yazan hardan olsa, o ədəbiyyatı tapacaq, oxuyub öyrənəcək, yəni bekar qalmayacaq.

**– Vaqif müəllim, bir çox gənc şairlərin bədii nümunələrində bir giley-güzar, ağlaşma, sızlaşma duyulur. İctimai mövzulara az müraciət olunur. Bu nə ilə bağlıdır?**

– Bu haqda geniş danışmaq olar. Bəli, həmin şairlərin və nasirlərin yazılarında ictimai aləmdən gəlməyən, yalnız fərdi duyğuları ifadə edən ah-uflar, sızıltılar, hıçqırıqlar geniş yer tutur. Məsələn, "Ayrılıq mənim dar ağacımdır" tipli deyimlər çoxdur. Heç hələ evlənməmiş, ailə qurmamış gənc şairlər həyatdan gileylənirlər. Təbii ki, oxuduqlarından təsirlənib yazırlar. Bax, bu təsir dairəsi bir zəncir kimi, sanki, hamını əhatə edir. Onlarca şair adı çəkə bilərəm ki, üslubları fərqli olsa da, mövzuları eynidir: həyatdan kam almamaq. Ay balam, sən bir həyata daxil ol, həyatla üzbəüz dayan, mübarizələr içindən keç, ondan sonra bu sızıltılara yer ver. Ağlaşma qurmaq vəzifə borcun deyil ki...

**– Zəfər mövzusu da ictimai mövzudur...**

– Elədir. İndi şəhidlərdən yazmaq, 44 günlük Zəfər yürüşünü, böyük Qələbəni vəsf etmək ənənə halını alıb. Təbiidir. Amma bu yazılanların, nə qədər təsirli, səmimi olsa da, doğrudanmı, bir zaman böyük ədəbiyyata dəxli olacaq? Yox, olmayacaq. Müəyyən bir qismi yaşarı olacaq, əksəriyyəti isə yalnız ədəbiyyat tarixinin arxivlərində qala bilər. Ədəbi əsər gərək elə yazıla ki, Nüsrət Kəsəmənlinin sevgi şeirləri kimi, Xəlil Rza Ulutürkün, Məmməd Arazın ictimai motivli əsərləri kimi, Zəlimxan Yaqubun xalq ruhuna yaxın ovqatda yazdıqları kimi yaşaya. Bundan ötrü isə qələmə alınanlar, əsl mənada, bədii-estetik meyarlara uyğun gələn şeiriyyət olmalıdır, nəzm yığını yox.

**– Bu gün poeziyamızda poema çatışmazlığı var. Bunun səbəbi nədir?**

– Doğrudur, poema janrına əvvəlki illərə nisbətən çox az təsadüf edilir. Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Qabilin, Əliağa Kürçaylının gözəl poemaları olub. İndi o səviyyədə yazılmır. Doğrudur, az sayda sanballı poemalar da var. Məsələn, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli 40-dan artıq poemanın müəllifidir. İçində elələri var ki, xüsusilə də yurd həsrətindən bəhs edənləri, gözəldir. Yaxud mən Ramiz Qusarçaylının "Vətən" poemasını "Azərbaycan" jurnalında oxuyandan sonra "İsti-isti" rubrikası ilə yazdığım məqalədə bu əsəri "Poetik vətənnamə" adlandırmışam. Bu əsəri nəinki müəllifin, ümumilikdə ədəbiyyatımızın nailiyyəti hesab edirəm. Ancaq bir güllə bahar olmur, axı. Yüksək səviyyəli poemalara ehtiyac var...

**P.S:** *Bəli, ömrünün müdriklik çağını yaşayan görkəmli filoloq Vaqif Yusifli gəncliyindən üzü bəri konyunktura uymayan, qərəzdən uzaq olan, təbiiliyi və xeyirxahlığı ilə seçilənlərdəndir. Zəhmətkeş alim klassiklərdən də, az tanınan müəlliflərdən də eyni səmimiyyət və məsuliyyətlə yazır. Onun başlıca mövzusu sədaqətlə xidmət etdiyi Azərbaycan ədəbiyyatının uğurları və qayğıları, dövrümüzün ümumi elmi-ədəbi mənzərəsi ilə bağlıdır. Elmiklə publisistikanın vəhdətdə olduğu əsərlərində bu iki amil bir-birini layiqincə tamamlayır.*

*100 yaşayasınız, Vaqif müəllim!*

***Ə.NƏCƏFXANLI***
***XQ***

Beynəlxalq həyat

# İslamabad danışıqların 2-ci raunduna hazırlaşır

*Rəsmi Tehran Vaşinqtonla təmasları davam etdirmək niyyətindədir, amma...*



**İran Prezidenti Məsud Pezeşkian Pakistanın Baş naziri Şahbaz Şərifə telefon danışığında bildirib ki, müharibə nə İranın, nə də ABŞ-ın maraqlarına uyğun deyil. Pezeşkian münaqişənin həlli üçün diplomatik yollara əl atmağın vacibliyini vurğulayıb.**

"Müharibə heç kimin maraqlarına xidmət etmir və təhdidlərə qarşı mübarizədə gərginliyi azaltmaq üçün bütün rasional və diplomatik yollardan istifadə edilməlidir", – o qeyd edib. Eyni zamanda, Pezeşkian ABŞ-İsrail münasibətlərində "etimadsızlıq və sayıqlığın" saxlanmasının vacibliyini vurğulayıb. Ş.Şərif isə öz növbəsində Pezeşkianı əmin edib ki, "Pakistan davamlı sülh və regional sabitlik üçün dürüst və səmimi vasitəçi roluna tam sadiqdir".

İran rəhbərliyinin danışıqların 2-ci raundunda iştirak edəcəyi barədə məlumatı Pakistanın rəsmi mənbələri yayıblar. Onların məlumatına görə, İran nümayəndə heyəti aprelin 21-də İslamabada gələ bilər. Tehranın özü danışıqlarda iştirakını hələlik rəsmən təsdiqləməyib. İran nümayəndə heyətinin tərkibi olduğu kimi qalacaq: ona parlamentin spikeri Məhəmməd Bağır Qalibaf başçılıq edəcək, xarici işlər naziri Abbas Əraqçi də iştirak edəcək.

Yayılan xəbərlərdə qeyd olunur ki, ABŞ nümayəndə heyətinin çərşənbə axşamı və ya sonrakı günlərdə İslamabada gələcəyi gözlənilir. Danışıqların 1-ci raundunda olduğu kimi, bu dəfə də heyətə vitse-prezident Ceyms Devid Vens, ABŞ prezidentinin xüsusi elçisi Stiv Vitkoff və prezidentin kürəkəni Jared Kuşner başçılıq edəcəklər.

"France 24" Pakistan təhlükəsizlik mənbəsinə istinadən xəbər verir ki, ABŞ Prezidenti Donald Tramp Pakistan ordusunun rəisi Asim Munirlə telefon danışığında dəniz blokadası ilə bağlı məsələni nəzərə alacağını bildirib. Mənbənin məlumatına görə, Munir bazar ertəsi Trampa bildirib ki, blokada İranla sülh danışıqlarına ciddi manea ola bilər.

İran Amerikanın Pakistan vasitəsilə göndərdiyi təklifləri nəzərdən keçirir. İİR-in Xarici İşlər Nazirliyinin sözçüsü İsmail Beqai zənginləşdirilmiş uranın ABŞ-a ötürülməsi ilə bağlı iddiaları təkzib edib. O, "Tasnim" informasiya agentliyinə açıqlamasında bildirib ki, zənginləşdirilmiş uranın ABŞ-a verilməsi məsələsi danışıqların indiki mərhələsində müzakirə olunmayıb və əvvəllər də müzakirə predmeti olmayıb. XİN-in nümayəndəsi həmçinin bildirib ki, Hörmüz boğazının idarə olunması ilə bağlı İran parlamentində baxılan qanun layihəsinə də toxunub və qeyd edib ki, ölkənin bütün dövlət qurumları İran xalqının mənafeyini qoruyan üsul və mexanizmlər əsasında fəaliyyət göstərir. O əlavə edib ki, qanunun bəzi müddəaları Xarici İşlər Nazirliyi ilə razılaşdırılmaqla həyata keçiriləcək.

İsmail Beqai, həmçinin onu da qeyd edib ki, İran hərbçilərinin Hindistan gəmilərinə atəş açıb-açmaması məsələsi araşdırılır. O, iddia edib ki, ABŞ-ın İrana qarşı tətbiq etdiyi dəniz blokadası atəşkəs rejiminin pozulması kimi qiymətləndirilməlidir. Beqai, həmçinin bildirib ki, Pakistan İran və ABŞ arasında yeganə vasitəçidir: "Hazırda Pakistan İran və ABŞ arasında diplomatik prosesdə yeganə vasitəçidir. Digər ölkələr təmasda olduğu və məsləhətləşmələr apardığı halda, vasitəçiliyin effektivliyi hər iki tərəfin öz öhdəliklərini yerinə yetirməsindən asılıdır".

İ.Beqayi təsdiqləyib ki, rəsmi Tehran ABŞ-la danışıqların yeni mərhələsini keçirməyi planlaşdırmır. İran Xarici İşlər Nazirliyinin sözçüsü bu bəyanatı Əl-Cəzirə telekanalına istinadən yayıb. İran Xarici İşlər Nazirliyinin sözçüsü qeyd edib ki, İran danışıqlardan imtina edir, çünki ABŞ səzişin icrası zamanı onu pozub. O sözlərinə əlavə edib ki, Tehran ilkin diplomatik danışıqlar zamanı ABŞ-ın İrana hücumlarını unuda bilməz: "İran öz milli maraqlarını müdafiə etməyə davam edəcək. Amerikalılar İranı günahlandırmaq oyunu oynayırlar. Onlar konstruktiv rol oynamaq əvəzinə bu oyunu davam etdirirlər. Amma biz amerikalıların həqiqəti deyəcəyini gözləmirik, onlar həmişə bizi günahlandırırlar".

"Tasnim" xəbər verir ki, bu arada İran Silahlı Qüvvələrinin Hatəmul-Ənbiya qərargahı bəyanat yayıb. Bəyanatda İranın ABŞ-ın ticarət gəmisinə hücumuna lazımi cavab veriləcəyi bildirilir. Qərargah bəyanatda qeyd edir ki, ABŞ xüsusi təyinatlılarının Oman dənizində İran ticarət gəmisinə açıq hücumundan sonra İran Silahlı Qüvvələri qəti şəkildə cavab verməyə hazır vəziyyətdədir. Lakin gəmidə ekipaj üzvlərinin ailə üzvlərinin də olduğu üçün İran onların həyatını qorumaq üçün zəruri tədbirlər görməyib. "Mövcud vəziyyəti nəzərə alaraq və gəmidə olan ekipaj üzvlərinin və onların ailələrinin təhlükəsizliyinə tam inam əldə etdikdən sonra İran Silahlı Qüvvələri ABŞ hərbi qüvvələrinə qarşı lazımi tədbirlər görəcək", – bəyanatda deyilir.

Bu arada İranın xarici işlər naziri Abbas Əraqçi ilə Pakistanın xarici işlər naziri İshaq Dar arasında telefon danışığı olub. A.Əraqçi qeyd edib ki, Amerikanın İran gəmilərinə qarşı təhdidləri və Vaşinqtonun Tehrana qarşı "məntiqsiz tələbləri" "ABŞ-ın Fars körfəzindəki vəziyyətin nizamlanmasında ciddilik nümayiş etdirmədiyini təsdiqləyir".

Eyni zamanda, İranın xarici işlər naziri vurğulayıb ki, Tehran "öz maraqlarını və milli təhlükəsizliyini qorumaq üçün bütün mümkün vasitələri istifadə edəcək". Bununla yanaşı, o, həmçinin regionda sülh və təhlükəsizliyin qorunması ilə bağlı məsləhətləşmələrin davam etdiriləcəyini təsdiqləyib.

ABŞ Prezidenti Donald Tramp bildirib ki, Pakistan ordusunun rəisi Asim Munir ona İran limanlarının dəniz blokadasına hər hansı dəyişiklik etməyi məsləhət görməyib. Media daha əvvəl yazmışdı ki, Munir Trampa blokadanın İranla sülh danışıqlarına ciddi manea olduğunu deyib.

"Münir blokada ilə bağlı mənə heç nə tövsiyə etməyib". Bu sözləri Donald Tramp "The Hill"ə deyib. ABŞ lideri hesab edir ki, blokadanın İrana çox ciddi iqtisadi təsiri var: "Blokada çox güclüdür, olduqca güclüdür. Onlar (İran) bu blokadaya görə gündə 500 milyon dollar itirirlər. Hazırda Hörmüz boğazına biz nəzarət edirik, onlar yox".

Eyni zamanda, İranın məhkəmə sisteminin rəhbəri Qulamhüseyn Möhseni-Ejei bəyan edib ki, Tehran danışıqlar zamanı əvvəlki tələblərindən əl çəkməyib: "Düşmən bizə danışıqlar təklif etdi və İslam Respublikası öz tələblərindən bir zərrə belə geri çəkilmədi".

*Hazırladı:*
*İ.HƏSƏNQALA*
*XQ*

# Konstitusiya Məhkəməsi Plenumunun iclası



**Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Məhkəmənin mətbuat xidmətindən verilən məlumata görə, iclasda Konstitusiyanın 130-cu maddəsinin VI hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, İnzibati Xətalar Məcəlləsinin 598.7-ci maddəsinin şərh edilməsinə dair Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin müraciətinə baxılaraq, Plenumun icraatına qəbul olunması haqqında qərardad qəbul edilib.

Müraciətə mahiyyəti üzrə Konstitusiya Məhkəməsi Plenumunun mayın 12-nə təyin edilmiş iclasında baxılacaq.

*XQ*

# Faşizm qurbanı olmuş azərbaycanlılara xatirə abidəsi




**İkinci Dünya müharibəsi zamanı Almaniyanın hərbi əsir düşərgəsində həlak olan azərbaycanlı əsirlərin xatirə lövhəsinin açılışı olub. Bu dəfə mərasim Bergen-Belzen memorial kompleksinin hərbi əsirlər məzarlığında baş tutub.**

Ölkəmizin Almaniyadakı səfirliyi tərəfindən Azərbaycan və alman dillərində hazırlanmış xatirə lövhəsinin açılışı münasibətilə Bergen-Belzen Memorial Kompleksinin tədqiqat və sənədləşmə departamentinin rəhbəri Akim Yah və Memorialın Beynəlxalq Məşvərət Şurasının üzvü Rolf Keller çıxış edərək xatirə lövhəsinin açılışının bu əsir düşərgəsində əzab çəkmiş və həlak olmuş azərbaycanlı hərbçilərin xatirəsinə ehtiramın ifadəsi olduğunu vurğulayıblar. Səfir Nəsimi Ağayev iki il əvvəl səfirlik tərəfindən Daxau, ötən il isə Zaksenhauzen əsir düşərgələrindən sonra Bergen-Belzen əsir düşərgəsində soydaşlarımızın xatirəsinə həsr olunmuş lövhənin açılışının mənəvi borcun yerinə yetirilməsi və tarixi hadisə kimi qiymətləndirib.

Çıxışlardan sonra xatirə lövhəsinin üzərindəki örtük götürülüb, əklillər qoyulub və həlak olmuş əsirlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Xatırladırıq ki, Bergen-Belzen hərbi əsirlər məzarlığında isə azərbaycanlı əsirlər də daxil olmaqla 19 min 580 sovet hərbi əsiri dəfn olunub.

*XQ*

# Azərbaycan Astana xoreoqrafiya festivalında

**Astanada II "NOMAD AWARDS" beynəlxalq müsabiqə-festivalının qala-konserti keçirilir. Musiqi yarışmasında MDB ölkələri və digər dövlətlərin yaradıcı qrupları iştirak edir.**

Konsert proqramında dünya xalqlarının özəlliyini, adət-ənənələrini və mədəni irsini əks etdirən canlı xoreoqrafik əsərlər təqdim olunur. Xalq rəqslərindən ibarət qala-konsert rəqs mədəniyyətinin zənginliyini və müxtəlifliyini nümayiş etdirir.




Bu təqdimat gənc ifaçılar arasında mədəni qarşılıqlı əlaqəni, yaradıcı mübadiləni və dostluğu ifadə edir.

Festivalın qaliblərini 5 ölkənin nümayəndələrindən ibarət beynəlxalq münsiflər heyəti müəyyən edir. Fikrət Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblının xoreoqrafı, Əməkdar artist Ceyhun Qubadov münsiflər heyətində Azərbaycanı təmsil edir.

*XQ*

# Moskvada Türkiyə uşaq günü şənliyi

**Moskvadakı Beynəlxalq Musiqi Evində Türkiyənin Milli Suverenlik və Uşaqlar Günü münasibətilə bu ölkənin Rusiyadakı səfirliyinin təşkilatçılığı ilə şənlik keçirilib.**

Konsertdə müxtəlif ölkələrdən olan gənc yaradıcı qruplarla yanaşı, Azərbaycan səfirliyinin dəstəyi ilə "Dostluq–Drujba" muxtar qeyri-kommersiya təşkilatının ansamblının üzvləri də iştirak ediblər. Almaz Zairovanın rəhbərlik etdiyi ansamblın uşaq xoru Şəms Teymurovanın müşayiəti ilə bəstəkar Tofiq Quliyevin "Kəndimiz" mahnısını ifa edib. Səxavət Namazəliyev və Dinarə Məmmədovanın rəhbərlik etdiyi rəqs qrupu isə Polad Bülbüloğlunun eyniadlı mahnısı əsasında hazırlanan "Mənim Azərbaycanım" rəqs nömrəsini təqdim edib.

*XQ*



# "Böyükşor Avtonəqliyyat" ASC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

*(min manatla)*

| AKTİVLƏR | Cari dövr | Əvvəlki dövr |
|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | |
| Qeyri-maddi aktivlər | [illegible] | [illegible] |
| Torpaq, tikili və avadanlıqlar | [illegible] | [illegible] |
| **Cəmi uzunmüddətli aktivlər** | **1480,1** | **1454,5** |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | [illegible] | [illegible] |
| Qısamüddətli debitor borcları | [illegible] | [illegible] |
| Pul vəsaitləri və onların ekvivalentləri | [illegible] | [illegible] |
| Sair qısamüddətli aktivlər | [illegible] | [illegible] |
| **Cəmi qısamüddətli aktivlər** | **395,4** | **387,3** |
| **Cəmi aktivlər** | **1875,5** | **1841,8** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Kapital** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | [illegible] | [illegible] |
| Kapital öhdəlikləri | [illegible] | [illegible] |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | [illegible] | [illegible] |
| **Cəmi kapital** | **1787,5** | **1739,0** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli faiz öhdəlikləri yaradan öhdəliklər | [illegible] | [illegible] |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | [illegible] | [illegible] |
| Sair qısamüddətli kreditor borcları | [illegible] | [illegible] |
| **Cəmi qısamüddətli öhdəliklər** | **88,0** | **102,8** |
| **Cəmi kapital və öhdəliklər** | **1875,4** | **1841,8** |

## MALİYYƏ FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİ HAQQINDA HESABAT

| Məzmunu | Cari dövr | Əvvəlki dövr |
|---|---|---|
| Satış | [illegible] | [illegible] |
| Sair əməliyyat gəlirləri | [illegible] | [illegible] |
| İşçi heyəti üzrə xərclər | (111,2) | (112,5) |
| Amortizasiya xərcləri | (28,5) | (29,0) |
| Sair əməliyyat xərcləri | (33,7) | (32,4) |
| Əməliyyat mənfəəti (zərəri) | **428,9** | **433,2** |
| Maliyyə xərcləri | (3,5) | (5,4) |
| Vergidən əvvəl mənfəət (zərər) | **425,4** | **427,8** |
| Mənfəət vergisi | (85,1) | (85,5) |
| Hesabat dövrünün xalis mənfəəti (zərəri) | **340,3** | **342,3** |

## MÜSTƏQİL AUDİTORUN HESABATI

*"Böyükşor Avtonəqliyyat" ASC-nin rəhbərliyinə*

**Müsbət rəy**

Biz, "Böyükşor Avtonəqliyyat" ASC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatından, maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatından, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti, habelə, maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini maliyyə hesabatlarının beynəlxalq standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərində düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə "Etika Məcəlləsi"nin tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdəndir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına aid rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının, maliyyə hesabatlarının beynəlxalq standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisari qərarlarına təsiretmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

***Ş.M.Məmmədov***
***"Cavid-Audit" MMC-nin direktoru – auditor***

*Auditor rəyi 27 yanvar 2026-cı il tarixində tərtib edilmişdir.*

***Ünvan**:Bakı şəhəri, AZ1029, Böyükşor şosesi, 2062-ci məhəllə.*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 67 (31036) 21 aprel 2026-cı il, çərşənbə axşamı

El sənətkarları

# “Sazı dilləndirən ürəyin atəşidir”

## Zər qədrini zərgər, saz dəyərini sazbənd bilər

**Sazbənd Mürsəl Ağalarovla görüşümüz şər qarışan vaxta təsadüf etdi. Uzaqdan əsən külək torpaq qoxusu ilə birgə sazın səsini də özü ilə ətrafa yayırdı. Usta Mürsəl qapısı yarıaçıq bir emalatxanada sazı əzizləyə-əzizləyə sinəsinə sıxıb fikrə dalmışdı.**



**– Salam, usta.**

– Xoş gəldin. Sazın səsi səni bura gətirdi, eləmi?

**– Bəli, usta.**

Özünün dediyinə görə, hər səhər gün doğmadan işə başlayır. Əvvəlcə emalatxananın pəncərəsini açır, havasını dəyişir, sonra alətlərə toxunmaqla sanki onları oyadır.

Emalatxanada sadə ağac parçası canlı musiqi alətinə çevrilir. Ustanın barmaqları simlərin üstündə astaca gəzir, hər toxunuşu bir söz kimi ürəyə dəyir.

**– Usta, saz danışır deyirlər. Doğrudurmu?**

– Saz danışmaz, onu danışdıran insanın içindəki oddur. O od yoxdursa, min il sazı sinənə sıxsan da, səsi boş çıxar.

**– Mürsəl divardan aşıq Ədalətin asılmış fotosunu göstərir:**

– Ustad sənətkarımız hər zaman sazı əlində olmaqla yanaşı, sözü də ürəyində daşıyırdı. Ona görə sazı dillənirdi. Ədalət Nəsibovdan söz düşmüşkən, usta yaddaşını sanki yeniləyir: “Bir dəfə aşığa sual verirlər ki, ustad, bu saz səni, yoxsa sən sazı yenirsən? Cavab verir ki, baxır məqamına. Elə vaxt olur ki, bir az vəziyyət yaxşı getmir, iş alınmır, müştəri zəifləyir onda saz məni yenir”.

**– Mən də sazı öyrənə bilərəm?**

Usta gülümsəyir. Hiss edirəm ki, atalarımızın məşhur “qırxında öyrənən” məsəli yadına düşüb:

– Sazı tutmağı, onu dilləndirməyi hamı öyrənə bilər. Amma aşıq olmaq, o, başqa bir məsələdir. Aşıq olmaq üçün əvvəl “ürəyin sınmalıdır”. Yadda saxla, saz əlində yox, ürəyində olmalıdır. Əgər ifa edib kövrəlməsən, bil ki, hələ yolun əvvəlindəsən.

**– Bunsuz mümkün olmaz?**

– Olmaz, qardaş. Odsuz ürək nə sevər, nə də danışar. Sinəsindəki sazın səsi birdən dəyişir. Daha dərindən, daha da yanğılı bir ifa ilə.

Vaxt uzandıqca usta ilə söhbətimiz daha da dərinləşir. Mən suallarımı yönəldirəm, o da cavab verir, amma hər cavab sanki bir dərsdir.

Söhbətimizin şirin yerində qapı astadan döyülür. İçəriyə daxil olan gənc təmir üçün tar gətirib. Gəncin gözlərindən sanki qəribə bir ümidsizlik görünür:

– Usta, əmanət olan tarımı düzəldə bilərsiniz? – ehtiyatla soruşur. Usta tarı əlinə alır, diqqətlə baxır. Taxtanın çatlarını, simlərin qırılmış yerlərini yoxlayır. Sonra sakitcə gülümsəyərək: düzəltmək olar. Amma məsələ alətdə deyil. Oğlan çaşqınlıqla ustanın üzünə baxır: Bəs nədədir? Usta gəncə oturmaq üçün yer göstərir. Danış görüm, bu alət sənin üçün nə deməkdir? Əvvəlcə tərəddüd edən gənc yavaş-yavaş söhbətə başlayır. Bu tar mənə atamdan yadigardır. Atamı itirəndən sonra bir daha ona toxunmamışam. Üstündən illər keçib, tar “dilə” gəlib.

Usta gənci diqqətlə dinləyir. Sonra tarı masanın üstünə qoyur.

– Bax, alətlər, sadəcə, taxta və sim deyil. Onlar xatirələri daim yaşadır. Sənin tarın qırılmayıb, sadəcə, susub. Usta işə başlayır. Elə bil o, tarı yox, bir insanın yaddaşını bərpa edir. Gənc sakitcə emalatxananın küncündə oturub ustaya diqqətlə baxır. Nəhayət, usta tarı ona uzadır.



Gənc tərəddüdlə simlərə toxunur. İlk səs emalatxanaya yayılır. Gənc gözlərini yumaraq öz aləminə dalır, sanki illər sonra ilk dəfə əmanətinin səsini duyur.

Sazbənd Mürsəl Ağalarov Laçının Mirik kəndindəndir. Ürək yanğısı ilə kəndlərindən söz açır. Hiss edirsən ki, ürəyi doludur. Doğulub başa çatdığı Mirik kəndindən ağızdolusu danışır:

– Elə məni də bu sənəti öyrənməyə məhz kəndimiz, onun əsrarəngiz meşələri oldu. Kənd qədim Mirik qalasının yanında yerləşdiyi üçün həmin qalanın adını daşıyır. Keçmiş adı Mirik Hasanalı olub. Yaşayış məntəqəsini təqribən XVIII əsrin axırları XIX əsrin əvvəllərində Dərələyəz mahalından gəlmə Hasanalı tayfasına mənsub ailələr salıb. Ehtimal olunur ki, mirik sözü türk dillərindəki marak-maraq sözündən olub, “müşahidə məntəqəsi” mənasındadır. Mirik kəndinin yaranma tarixi ilk orta əsrlərə, buradakı ilk insan məskənlərinin mövcudluğu isə ibtidai icma dövrünə qədər gedib çıxır. Bu kəndin ərazisindəki memarlıq nümunələri, antik qala, yeraltı mağaralar, tunellər və kəhrizlər Azərbaycan tarixini öyrənmək üçün çox maraqlı, əvəzsiz materiallardır. Qədim dövrlərə aid daş əmək alətləri, daşdan yonulmuş istehsal vasitələri və Azərbaycanın qiymətli mədəniyyət nümunələrindən sayılan bədii daşlar, qabartmalar, oymalar, ornamentlər və digər dekorativ tətbiqi sənətə aid olan əvəzsiz nümunələr Mirik kəndinin ərazilərində hələ də qalmaqdadır.

Laçın azadlığına qovuşandan sonra dəfələrlə kəndimizə getmişəm. İlk gedişimdə inanın ki, tanımadım. Evlərimiz tamamilə dağıdılıb, viran qoyulub. Ermənilər illərlə meşələrimizi tamamilə qırıb, məhv edib. Hər dəfə doğma, füsünkar Laçına gedəndə saz mənə yol-yoldaşlığı edir. Elə ki, yoruldum saz sinəmə taxılır.

Mürsəl 1990-cı ildən bu sənətlə məşğuldur. 1992-ci ildə məcburi köçkün həyatı yaşadıqdan sonra Xəzər rayonunun Qala qəsəbəsində məskunlaşıb. Mirik kəndinin də tanınmış aşıqları olub. Aşıq Teymur, Ziyadxan, Zahid. Hazırda aşıq Teymurun oğlu Bəhlul atasının davamçısıdır.

Usta min bir əziyyətlə emalatxana düzəldib. Sənəti yaşatmaq üçün illərlə çalışıb. Vaxtilə köç edərkən özünün dediyinə görə, 500-ə yaxın təkcə saz alətinin materialını gətirib. Uzun illər istifadə edib. Hazırda isə Gürcüstandan alır. “Elə bilirsiniz ki, hər ağacın materialı saz üçün yarayır?” – sazbənd Mürsəl sözünə davam edir:

– Məşhur sazbəndlər hər ağacdan saz düzəltməyib, keyfiyyətli ağac materialı üçün el-el, oba-oba gəzib, daha çox yaşlı ağaclara üstünlük veriblər. Hər bir alətin özünün materialı olur. Ən əsası, sazı hazırlamaq onun materialına xüsusi diqqət yetirmək lazımdır. Sazın çanağı tut ağacının seçmə növlərinin oduncağını ovmaqla, qolu isə qoz ağacından hazırlanır. Çox hallarda alətin qolu və çanağın yan tərəfləri təbii sədəflə bəzədilir. Əsas saz hesab edilən tavar sazın ümumi uzunluğu 1200 millimetr, çanağının dərinliyi isə 200 millimetr olur. Bəzən elə sazlara rast gəlirsən ki, saz çox ağır olur. Dəmyə yerində bitən ağacın çəkisi yüngül, həm də məsamələri sıx olur. Sonrakı mərhələsində çanağın üstü nazik taxta üzlüklə örtülür və qoluna 16-17 pərdə bağlanılır. Bir vaxtlar simlər yüksəkkeyfiyyətli poladdan hazırlanıb, gümüş suyuna salınarmış. Onlar heç zaman paslanmaz və çox az halda qırılarmış. Ümumiyyətlə, musiqi alətləri düzəltmək hiss və təcrübə tələb edən sənətdir.

Usta sazbəndlik sənətinə marağın olmamasından söz açıb narahatlığını da bildirir:

Təəssüf ki, bu gün sazbəndlik sənətinə maraq azdır. Mən heç kimdən maddi maraq güdmədən bu sənəti öyrədərəm, bircə istək olsun yetər, təki sənət yaşasın. Həmçinin özünü sazbənd adlandıran çoxdur, amma öz sənətinin ustası olanlar çox azdır. Bu da ondan irəli gəlir ki, sazbəndliklə məşğul olanların bir çoxu sənəti özbaşına öyrənib. Amma usta yanında sazbəndliyi öyrənənlər də var. Sazbəndlik minilliklərin sənətidir. Onun daşıyıcısı həm dülgər, həm tərtibatçı-rəssam, həm musiqiçi, həm də saz-söz sənətinə yaxşı bələd olmalıdır. “Zəri zərgərdən, sazı sazbənddən alarlar” deyimi də təsadüfi deyilməmişdir. Usta sazbəndlər təkcə saz düzəltməmiş, həm də zaman-zaman sazı təkmilləşdirmişlər. Azərbaycanda ustad sazbəndlər həmişə olub, bu gün də var.

Mürsəl doğma kəndinə dönüşü səbirsizliklə gözləyir. Köç etdikdən sonra sazbəndlik sənətini yaşatmağı planlaşdırır.

***Müşfiq MİRZƏ***
***XQ***

İDMAN

# Avropa çempionatında 2 medal




**Polşanın Katovitse şəhərində təşkil edilən şəxsi Avropa çempionatında son turun partiyaları oynanılıb.**

Azərbaycan Şahmat Federasiyasından verilən məlumata görə, 11-ci turda Azərbaycan şahmatçılarının duelində Aydın Süleymanlı ilə Məhəmməd Muradlı heç-heçə oynayıb. Son tura lider kimi qədəm qoyan Nicat Abasov ağ fiqurlarla Rumıniya təmsilçisi Daniel Bogdanla bərabərliyə razılaşaraq yarım xalla kifayətlənib.

Eyni xala malik Ukrayna şahmatçısı Roman Deqityarov son turda ispan David Guijarronu məğlub edərək Avropa çempionu olub. 11 turdan sonra hərəyə 8,5 xal toplayan Azərbaycan şahmatçıları 2-ci-4-cü yerləri bölüşdürüb. Nicat Abasov Avropa çempionatını 2-ci, Aydın Süleymanlı isə 3-cü pillədə başa vurub. Son Azərbaycan çempionu Məhəmməd Muradlı qitə çempionatında 4-cü olub. Hər üç şahmatçı gələn il keçiriləcək Dünya Kubokuna vəsiqə qazanıb.

Xatırladaq ki, şəxsi Avropa çempionatı 2000-ci ildən keçirilir. Azərbaycana kişi şahmatçıların qitə çempionatında yeganə medalı 2005-ci ildə ikinci yeri tutan Teymur Rəcəbov qazandırıb.

# “Turan” çempion oldu




**Aprelin 19-da qadın voleybolçuların Yüksək Liqasına yekun vurulub.**

GİN-in Voleybol Mərkəzində Yüksək Liqanın mükafatları uğrunda oyunlar keçirilib. İlk olaraq üçüncülük qarşılaşmasında “Milli Aviasiya Akademiyası” və “Gəncə” komandaları üz-üzə gəliblər. Bu matçda “Gəncə” komandası 3:0 hesabı ilə qalib gələrək Yüksək Liqanın bürünc medalını qazanıb.

Ardınca baş tutan final oyununda “Turan” və “DH Volley” komandaları üz-üzə gəliblər. Gərgin keçən qarşılaşmada rəqibini 3:1 hesabı ilə məğlub edən “Turan” çempion adını qazanıb.

Final qarşılaşmasından sonra mükafatlandırma mərasimi keçirilib.

# İsrafil Aşurlunun yeni Himalay fəthi



**Aprelin 14-də Azərbaycan alpinisti İsrafil Aşurlının da daxil olduğu 5 nəfərlik komanda Himalay dağ silsiləsində yerləşən Annapurna (8091 metr) zirvəsini fəth edib.**

Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, baza düşərgəsindən hərəkətə başlayan alpinistlər dərin qar örtüyü və çətin relyef şəraitində irəliləyərək zirvəyə qalxmaqla bu mövsümün ilk uğurlu çıxışlarını həyata keçiriblər.

Aşurlı zirvəyə qalxan zaman süni oksigen balonundan istifadə etməyib. İdmançı ötən il də zirvələrə süni oksigendən istifadə etmədən qalxmışdı.

Bununla da İsrafil Aşurlının fəth etdiyi zirvələrin (8000 metrdən yüksək) sayı 9-a çatıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

HAVA

# Paytaxtda yağış, rayonlarda dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı proqnozlaşdırılır. Yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Axşama doğru yağış tədricən kəsiləcək. Arabir güclənən şimal-qərb küləyi gündüz mülayimləşəcək.**

Havanın temperaturu gecə 10-12, gündüz 12-14 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunu, nisbi rütubət 70-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.



Havanın temperaturu gecə 7-11, gündüz 13-18 dərəcə isti, dağlarda gecə 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, gündüz 5-10 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

✓ *Azərbaycan Respublikası FHN Dövlət Yanğından Mühafizə Ximəti tərəfindən Bakı şəhər Binəqədi rayon yanğından mühafizə hissəsinin qazdan və tüstüdən müdafiə vasitələri bölməsinin sürücüsü, daxili xidmət çavuşu Babayev Fərman Şükür oğluna verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

✓ *“Qax Konserv” ASC-nin emissiya prospekti itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

İsrafil Qurbanov, Əzizə Şamil, Əfruz Fərzəliyeva, Əli Şamil, Akif Cabbarlı, Rəhim Hüseynzadə, Tahir Aydınoğlu, Namiq Əhmədov tələbə yoldaşları və həmkarları, AMEA Ədəbiyyat İnstitutu elmi nəşrlərinin məsul katibi Maral Poladovaya oğlu

**MEHMANIN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Konstitusiya Məhkəməsinin sabiq məsul əməkdaşı Şahin Rüstəmova həyat yoldaşı

**ARZU RÜSTƏMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri palatanın əməkdaşı Bəhman Abbasova nənəsi

**SARA NOVRUZOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apellyasiya Məhkəməsinin kollektivi Bakı Şəhəri Səbail Rayon Məhkəməsinin hakimi İlkin Rüstəmliyə anası

**ARZU XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3123
SİFARİŞ 513
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00